## Rəşad Məcid

# BİR DƏ GƏLMƏYƏCƏK...

ÖNSÖZ

**Bütün yönləri ilə yaradıcı**

Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan, şeir də, hekayə də yazan, publisistik məqalələrini də, ədəbi-tənqidi yazılarını və müsahibələrini də geniş ictimaiyyətə təqdim edən Rəşad Məcidin (1964) fəaliyyətində ən uzun-ömürlü sahə publisistikadır. Özünün də etiraf etdiyi kimi, o, hələ 1988-ci ildən Qarabağa həsr olunmuş məqalələrini çap etdirdikdən bu günə qədər publisistika ilə ardıcıl şəkildə məşğul olmaqda davam etməkdədir. Çap olunan kitablarında da digər janrlarla müqayisədə publisistika üstündür. Artıq müstəqillik dövründə Azərbaycan müstəqil mətbuatının mükəmməl bir əsərinə çevrilmiş «525-ci qəzet»in baş redaktoru kimi də Rəşad Məcid cəmiyyət miqyasında mətbuat mühitində daha qabarıq görünür. Əgər 1993-cü ildə «Mərhəmət» jurnalının əlavəsi, ya-xud xüsusi buraxılışı olaraq çap etdirdiyi «Hələ ki vaxt var» adlı şeirlər kitabında toplanan və bir qədər də sonralar yazıb uzun illər mətbuata çıxarmadığı şeirlərini 2004-cü ildə nəşr olunan əsərlərinin «10 sentyabr» adlı külliyyatında oxuculara çatdırmasaydı, Rəşad Məcidin şeir yaradıcılığı keçici bir ovqatın ifadəsi kimi düşünülərək hər halda arxa planda qalmalı olacaqdı. Doğrudur, «10 sentyabr» kitabında şeirlərinin, səfər qeydlərinin, publisistikası, müsahibələri və ədə-bi-tənqidi məqalələrinin toplanılmasına baxmayaraq, ədəbiyyat cəmiyyəti bu topluda ilk dəfə oxuculara təqdim olunan nəsr əsərlərinə, xüsusən də külliyyatın adına çıxarılmış eyniadlı hekayəyə daha çox reaksiya verdiyi üçün Rəşad Məcidin şeir yaradıcılığı yenə də müqayisədə layiq olduğu səviyyədə diqqəti cəlb edə bilməmişdi. Lakin «10 sentyabr» kitabı ilə «Hələ ki vaxt var» şeirləri, ondan sonra yazılan poetik nümunələr və «Roman» poeziya serialı meydandadır. «10 sentyabr» kitabı ilə geniş ictimaiyyət də, ədəbi tənqid də artıq Rəşad Məcidin yaradıcılığını bütün istiqamətlər, o cümlədən şeir yaradıcılığı üzrə tam halda görmək, mütaliə etmək və təhlil süzgəcindən keçirmək, bu barədə söz demək, ümumiləşdirmələr aparmaq imkanı əldə edə bilmişdir. Fikrimcə, Rəşad Məcidin yaradıcılığının birinci dövrü «10 sentyabr» kitabı ilə yekunlaşır. Bəlkə də, belə demək daha doğru olardı ki, 2004-cü ildə çıxmış «10 sentyabr» kitabı Rəşad Məcidin çoxcəhətli yaradıcılığının birinci dövrünün yekunu, yeni mərhələnin uğurlu başlanğıcıdır. Həyatı və yaradıcılığının birinci döv-rünün əsas yekunları aşağıdakılardan ibarətdir:

• Rəşad Məcid çoxcəhətli yaradıcılıq fəaliy-yətinə malikdir. Və məşğul olduğu bütün yaradıcılıq sahələrində professionaldır;
• Publisistika Rəşad Məcidin yaradıcılıq fəaliyyətinin əsas, aparıcı tərəfidir, onun gündəlik işidir. Azərbay-can-da «525-ci qəzet» səviyyəsində müstəqil mət-buat yaratmaq və bu qəzetin nəşrini uğurla davam etdirmək Rəşad Məcidin xidmətidir. Rəşad Məcid müstəqillik dövrü Azərbaycan publisistikasının əsas yaradıcılarından və görkəmli nümayəndələrindən biridir;
• Ədəbi tənqid sahəsində də Rəşad Məcid mü-kəmməl «yazıçı sözü» deməyi bacarır;
• Rəşad Məcid tam orijinal bir şairdir. Müstəqillik dövrü Azərbaycan şeirinin yaradıcıları sırasında onun özünəməxsus görkəmli yeri vardır. Rəşad Məcidin şeirləri mövzu, janr, üslub-yanaşma, bədii təsvir vasitələri etibarilə bənzərsizdir.

Göründüyü kimi, Rəşad Məcid bədii-publisist fəaliyyətinin bütün istiqamətlərində səmərəli xidmət gös-tərmiş, orijinallıq nümayiş etdirmişdir. Ən əsası isə o, məşğul olduğu bütün yaradıcılıq sahələrində professionaldır.

Rəşad Məcidin çoxcəhətli yaradıcılıq fəaliyyəti dərin, əsaslı və geniş tədqiqatlar üçün zəngin material verir. Xüsusən onun demək olar ki, ədəbiyyatşünaslıq elminin diqqətindən kənarda

qalmış lirikası bir şair olaraq Rəşad Məcidin şeir yaradıcılığı haqqında konkret, sistemli və ümumiləşmiş elmi söz demək üçün meydan açır. Nəhayət, Rəşad Məcidin şeir yaradıcılığı müstəqillik ərəfəsinin və yeni dövrün Azərbaycan poe-ziyasındakı inkişaf proseslərini izləmək, təhlil et-mək, nəticələr çıxarmaq baxımından da əhəmiyyətlidir.

*   *   *

Rəşad Məcidin 1993-cü ildə nəşr edilən ilk şeirlər kitabı olan «Hələ ki vaxt var» kitabındakı şeirlərində dərin bir lirizm müşahidə olunur. Bu şeirlər «vaxt var ikən şeir də yazım» – məntiqindən deyil, yazmaya bilməmək zərurətindən meydana çıxmış xalis lirika nü-munələridir. «Hələ ki vaxt var» şeirlər kitabına yazdığı «On il əvvəlin toplusu» adlı müqəddimədə etiraf etməli olduğu kimi, artıq səksəninci illərdə, yəni 18–21 yaşlarında özünü, gələcək həyatını şeirdən, ədəbiy-yatdan uzaqda düşünməyin mümkünsüzlüyünü dərindən hiss etmişdir. Beləliklə, məktəb yaşlarında ikən yaşadıqları binanın «dəmir çərçivəli pəncərəsindən» baxarkən evdən həyətə, genişliyə çıxmaq arzusunun bədii ifadəsi kimi tumurcuqlayan ağaclar, uzaqdakı qarlı dağlar, torpağımızın bənzərsiz gözəllikləri haqqında qoşduğu misralar formalaşaraq tərtəmiz poeziya nümunələrinə çevrilmişdir. «Hələ ki vaxt var» ki-ta-bından görünür ki, Rəşad Məcid üçün şeir «bir dolu ürəyin püskürmə çağı»dır, «dikəlib asfaltı deşən bənövşə»dir, «sinədə boğmaq olmayan bir qəfil hönkürtü» kimi təbii proseslərin nəticəsində yaranmış bədii dü-şüncənin ifadəsidir. Rəşad Məcidin lirikası içərisində olduğu cəmiyyətlə və doğma təbiətlə birgə nəfəs alan cavan bir qəlbin həyata şairanə şəkildə vurğunluğudur. Onun şeirlərində dünya da, Vətən də, ictimai motivlər də, milli duyğular da, sevgi də, təbiət də, tale də öz şeiriyyətini təqdim edir. Mövzusundan asılı olmayaraq, Rəşad Məcidin şeirləri daşdan süzülüb ke-çən bulaq suyu qədər saf, təmiz və təbiidir. O, cəmiy-yətə də, təbiətə də, tarixə də, müasir həyata da şeirin gözü ilə baxır. Onun hər misrasının «göyərçin qanadı» kimi bənzərsiz obrazlı görkəmi, hər bəndinin bayatılarda olduğu kimi lirik-fəlsəfi mənası vardır. Rəşad Məcidin şeirləri həyata şairanə baxışın özünəməxsus ifadəsidir:

Leysanların, tufanların inadı sınır,
Gün işığı parıldayır qaya döşündə.
Şəfəqləri qucağına sıxıb qızınır,
Gülümsəyir damlaların düzülüşündə.

Göründüyü kimi, Rəşad Məcidin səksəninci illərə aid şeirlərində Xalq şairi Məmməd Araz poeziyasının ruhu, yaxşı mənada təsiri sezilir. İlk dövr şeirlərinin bəzilərində Məmməd Arazdan gəlmiş tanış ovqatlar və intonasiya müşahidə olunur. Bu qəbildən olan «İndən belə», «Yazığım gəlir», «Necə unudum», «Bilmədim» şeirlərində Məmməd Araz notları hiss olunsa da, Rəşad Məcid həm də öz sözünü deməyə çalışmışdır. Məsələn, Məmməd Arazın şeirlərinə bənzəyən «Bilmədim» şeirində ovqat və intonasiya yaxınlığı olsa da, fikir, mətləb, xüsusən obrazlı düşüncə yenidir:

Ömrümüzün günlü günü, yaz çağı,
Ömrümüzə çox çəkdilər göz dağı.
İki ürək bir şübhənin dustağı,
Yalanları kim hayqırdı, bilmədim.

Bədii yaradıcılığa başlayan qələm sahiblərinin, o cümlədən də Rəşad Məcidin qəlbinə yatan, baxışlarını ovsunlayan hər hansı bir şairdən, məsələn, Məmməd Arazdan təsirlənməsi təbii bir prosesdir. Məmməd Arazın da yazdığı kimi, Rəşad Məcid onun mühitinə daha yaxın olmuş, «gözünün qabağında» şair kimi yetişib formalaşmışdır. Şübhəsiz ki, Rəşad Məcidin ilk dövr şeir yaradıcılığında ədəbiyyatımızın başqa görkəmli nümayəndələrinin, məsələn, Əli Kərimin də müəyyən izini görmək mümkündür. Hətta Rəşad Məcidin müasiri olan, yaradıcılığına rəğbətlə yanaşdığı Ramiz Rövşənə yaxın misralarına da rast gəlmək olur. Lakin nəzərə almaq lazımdır ki, bədii yaradıcılıqda əsas məsələ cavan yaradıcı şəxsin bu təbii prosesi keçib, daha tez özünü ifadə

edə bimәsindən ibarətdir. Və Rəşad Məcid də böyük ədəbiyyata gedən yolun başlanğıc mərhələsinin öyrənmə-təsirlənmə dövrünü yaşayaraq, keçərək qısa müddət ərzində şeirdə öz sözünü deməyi bacarmışdır. Müşahidələr göstərir ki, Rəşad Məciddə bədii yaradıcılığın başlanğıc dövrün-də öyrənmə-təsirlənmə ilə sənətdə özünüifadə yana-şı, paralel olaraq davam etmiş, bu proses çox az bir zaman ərzində başa çatmışdır. Belə ki 18–21 yaşların-da yazdığı və «Hələ ki vaxt var» kitabında çap etdirdi-yi şeir-lərində təsirlənmə notları üstündə köklənən bədii nümunələrlə müqayisədə onun özünü ifadə edən poetik örnəklər qat-qat çoxdur. Həm də Rəşad Məcidin görkəmli söz ustalarından təsirlənərək yazdığı şeir-lərdə «öz payı» oxuyub-öyrəndiklərindən heç də az deyildir. Məmməd Araz və ya Əli Kərim şeirlərinin ruhu, intonasiyası, təsvir vasitələri, müraciət formaları ilə səsləşən şeirlərində də Rəşad Məcidin özünəməxsus  təsvir və tərənnüm vasitələri, həyata fərqli baxışlarını nəzərə çarpdıran məqamlar – mətləblər diqqəti cəlb etməkdə idi. Buna görə də Rəşad Məcid çox qısa müddətdə orijinal poetik söz sahibi kimi özünü təsdiq etməyi bacarmışdır.
XX əsrin əllinci illərindən ədəbiyyat meydanında olan Məmməd Arazla bədii yaradıcılıqda səksəninci illərdə özünü tapmış Rəşad Məcidin arasında «altmışıncılar» gerçəkliyi də dayanır. Xalq şairi Səməd Vur-ğu-nun mövcud ideoloji mühit nəzərə alınmaqla ümumi şəkildə tərənnüm etdiyi mətləbləri artıq cəmiyyət həyatı ilə üzvi əlaqədə təqdim edən Məmməd Arazdan sonra ədəbiyyatda yeni mərhələ insan mənəviyyatının dərinliklərinə enməklə başlamışdır. Hətta poeziyada «altmışıncılar»ın da şeirlərində nə qədər lirizmə meyil qüvvəsi olsa da, romantik pafos tamam çəkilib get-mə-mişdir. Xüsusən ictimai məzmunlu lirika nümunələrində romantik pafosun iştirakından poetik mətnin daxili ritmini təmin edən ünsür səviyyəsində olsa da, müəyyən səviyyədə istifadə olunmuşdur. Hətta Azərbaycan ədəbiyyatının «yetmişincilər» nəslində, məsələn, Sabir Rüstəmxanlının, Zəlimxan Yaqubun, Hi-da-yətin, Çingiz Əlioğlunun və başqalarının yardıcılığında konkret vətəndaşlıq ruhu şeirin cövhəri, əsas mahiyyəti kimi çıxış edir. Bu qəbildən olan ədəbiyyat, o cümlədən vətəndaşlıq poeziyası müstəqillik dövrü Azərbaycan ədəbiyyatının böyük başlanğıcıdır. Rəşad Məcidin şeirləri isə təpədən dırnağa qədər həyat və insan haqqında lirik düşüncələrdən yoğrulmuş təbii bir daxili poetik monoloqdur. Rəşad Məcidin zərif və dərin şeiriyyəti ilə müqayisədə hətta monoloq məfhumu da müəyyən dərəcədə pafoslu səslənir. Bu şeirlər dünyadan, həyatdan  və insandan danışan işıqlı və obrazlı düşüncələrdən yoğrulmuşdur. Fikrimcə, bu mənada Rəşad Məcidin lirikası müasir Azərbaycan şeirinin inkişafında fərqli hadisədir. Rəşad Məcid şeirlərində bütün hallarda, o cümlədən lirik duyğularını ictimailəşdirəndə də obrazlı düşüncənin təbiiliyini və səmimiyyətini, lirizmi qoruyub saxlayır. Ona görədir ki, Rəşad Məcidin lirik qəhrəmanı da həmin işığın, milli-mənəvi varlığın real və təbii bir daşıyıcısıdır. Yol qırağında əlində çomağı ilə yurda keşik çəkən balaca çoban haqqındakı obrazlı düşüncələrinin ifadəsi və mövzunun ictimai mahiyyətinin orijinal poetik təqdimi ilə yalnız Rəşad Məcidə məxsus olan şeirin təbii doğuluşu baş vermişdir:

Balaca büstüdür ana torpağın,
Nəfəsi isidir ana torpağı.
Bir uşaq gözündən milyon göz baxır,
«Ordu» keşik çəkir yol qırağında.

Tərpənən qanımız, qeyrətimizdir,
Balaca boyuyla heyrətimizdir.
Mürgüsü dağılan millətimizdir.
Orda – keşik çəkir yol qırağında,
Yurda keşik çəkir yol qırağında.

«At, saz, qılınc», «Bir sona keçdi», «Yanmayan şeir», «Göy üzü», «Qəfil yağış», «Mən əlini buraxmazdım», «Bir kəlmə yalanım», «Kibrit qutusuna yazılan şeir», «Unuda bilməyəcəksən», «Ağ işıq» kimi şeirlərində Rəşad Məcidin poetik dünyasının incəlikləri və zən-ginliyi  bütün aydınlığı ilə görünür. Bu şeirlərdəki şeiriyyət baxımından tapılmış anlar, müşahidə edilmiş

məqamlar, istifadə olunan orijinal bədii təsvir və ifadə vasitələri, canlandırılan mənzərə, diqqət mərkəzinə çəkilən lövhə təkrarsızdır. Buna görədir ki, şeirlərində bədii mətndən hər hansı bir misranı, obrazlı düşün-cəni ayırıb seçmək çətin olur. Bu şeirlər tam mətni ilə, bütöv sistemi ilə birlikdə şeiriyyət anlayışına nəinki tam cavab verir, həm də yeni bir dəyər gətirir. Rəşad Məcidin şeirlərində dərin lirizm, obrazlı düşüncə, aydın möv-qe, bədii ümumiləşdirmələr bir-birini tamamlayır. «Qə-fil yağış» şeirinin bədii təsiri şeir boyu ifadə olunan, biri digərini tamamlayan, incə şair müşahidəsindən doğan gözəlliklərin poetik təqdimatında bütün imkanları ilə görünür:

Günəşi dövrəyə aldı buludlar,
Oyandı göylərdə bir qəfil yağış.
Səmada çaxnaşma saldı buludlar,
Ələndi torpağa nur naxış-naxış.

Çiçəklər başını qaldırıb baxdı,
Bulud da, Günəş də göydə qoşaydı.
Şəfəqlər yağışa qarışıb axdı,
Səma çilçıraqdı, yer tamaşaydı.

Bu qəfil yağışın istəyi nəymiş,
Duruluq parladı havada, yerdə.
Bəlkə gözəllərin həsrətindəymiş:
Qızlar çiçəklədi pəncərələrdə.

Həqiqətən də, «göylərdə oynayan qəfil bir yağış», buludu da, günəşi də səmada qoşa dayanan işıqlı-çiskinli mənzərə, pəncərələrdə çiçəkləyən qızların duruluq parlayan baxışları mükəmməl bir poetik tamaşadır. Təbiətin mövcud rənglərini görə bilmək, hər mə-qamın ayrıca poetik mənzərəsini yaratmaq və bütöv halda bir gözəllik çələngi kimi təqdim etmək sənət hadisəsidir. Rəşad Məcidin peyzaj nümunəsi olan şeirlərində poetik cazibədarlıqla yanaşı, həm də canlı, yaşayan ana təbiətin obrazı canlandırılır.

Bütövlükdə Rəşad Məcidin şeirlərində təkcə təbiətin deyil, milli-mənəvi dünyamızın daxili mahiyyəti, işıqları bütün təbiiliyi ilə sayrışır. Bu, Azərbaycan ədəbiyyatında zaman-zaman «Bakının sayrışan işıqlarından», «közərən ocaqlar»dan, yollara çıxan «işıq qatar-larından» sonra yaranmış yeni bir işıq dalğasıdır. Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Vaqif Bayatlı, Vaqif Bəhmənli, Elman Həbib, Rüstəm Behrudi və başqaları həmin yeni şeir axınına hərəsi bir hadisə olaraq gəlmişlər. Rəşad Məcidin şeirləri bu böyük dalğanın içərisində özünəməxsus bir poetik hadisədir. Rəşad Məcidin şeirləri – işıqlı dü-şüncələrin şeiriyyətidir. Onun şeirləri Günəş, işıq, Ay işığı, ümid, ulduz, ocaq, pərvanə, şəfəq, şam, nur, od, alov, köz, kibrit, çiçək və sair kimi işıqlı ifadələrin cazibəsi üstündə qurulmuşdur. Bu şeirlər dəmirçi kürəsi, qızmar günəşin altındakı torpaq kimi istidir. «Gül-çiçəklər yaraşıqdı, lalələr  xaldı eləcə», «Od-alov sazını ba-sıb döşünə, Kərəm qisasını aldı Ədalət», «Bir alovdu yana-yana, Axdı cana, keçdi qana. Kül eləyib dağı-daşı Selləndi Yanıq Kərəmi», «Gün işığı», «Dərədə çən, düzdə günəş», «Bir işıqdan keçdim, anam, Gözlərimi dörd elədi. Ürəyimi ipək kimi, Sözlərimi sərt elədi» misralarında işıq əsas mənanın mühüm daşıyıcısıdır. O, işığın da fərqli poetik mahiyyətini açır. Rəşad Məcidin dünyasında ay işığı – «çəməni bürüyən şehdir; bir ahıl saçında gümüşü zehdir»; dağlar – «ay işığında üz-gözü südə bulaşmış körpə kimidir». Müşahidələr göstərir ki, onun təqdimatında ağ işıq daha effektlidir. «O ağ işıq damla-damla hopub canıma, Sətir-sətir, misra-misra çıxır canımdan» deyən şairin şeirləri də sanki ağ işıq kimi həyata süzülür. Fikrimcə, Rəşad Məcidin yaradıcılığındakı ağ işıq həyatdakı bəyaz gözəlliyin və ağ günlərin rəmzidir.

İndi zülmət gecələrdə pərvanə kimi,
Varaqlara çırpınıram həyəcanımdan.
O ağ işıq nəfəs-nəfəs qalxır sinəmdən,

Sətir-sətir, misra-misra çıxır canımdan.

Rəşad Məcidin şeirləri işıqdan, istidən, oddan yoğrulmuşdur.

Boylanan sətirlər, kəlmələr isti,
Boylanır səmaya, baxır Günəşə.
Qayada zoğ atan körpə şitildi
Dikəlib asfaltı deşən bənövşə.
Kibrit qutusuna yazılan şeir.

Adama elə gəlir ki, bütövlükdə Rəşad Məcidin şeirləri kibrit qutusudur, nə vaxt kibriti çəksən, od verib yana bilər. Demək olar ki, onun əksər şeirlərində işıq-la, günəşlə, odla, aydınlıqla bağlı mətləblər, misralar, kəlmələr əsas fikrin daçıyıcısı kimi çıxış edir. Od-işıq Rəşad Məciddə həyatın mahiyyəti və daha işıqlı gələcək, mərdlik, bütövlük mənalarını daşıyır. Onun şeirlərində işıqlı, aydın bir mərdanəlik ifadə olunur. Rəşad Məcid qırmızı işığın qarşısında böyük məsuliyyətini şeirlə ifadə edərkən işığa aid düşüncələrini daha da zənginləşdirir. O, təkcə işıqforların qarşısında yox, geniş mənada həyatın səbir, dözüm, iradə tələb etdiyi bütün anlarda sınaqlardan çıxmağı bacarmağı vacib imtahan hesab edir. «O zaman lap hər addımda qoy sınasın dünya məni, qırmızı işıq önündə» kimi məsuliyyət ifadə edən misralar müəllifin də, lirik qəhrəmanın da özünə inamının ifadəsinə çevrilir:

Arzularım əyilməyə,
Sarsılmaya, duya məni.
O zaman lap hər addımda
Qoy sınasın dünya məni,
Qırmızı işıq önündə.

Müdriklik ölçülərində də Rəşad Məcid təbii bədii düşüncənin ən fəlsəfi və ümumiləşdirilmiş obrazlı örnəklərini təqdim edə bilir. Belə məqamlarda Rəşad Məcidin şeirlərində ifadə olunan müdriklik onun yaşının sədlərini aşır. Gənclik illərində yazdığı şeirlərindəki kamillik ömrünün yetkinlik dövrünü yaşayan təcrübəli bir insanın mütəfəkkir düşüncəsinin ümumiləşmiş poetik ifadəsi kimi səslənir:

Sonrakı təəssüf hədərdi, hədər –
Ağlayıb sızlama hər addımbaşı.
Qəlbin günahını yuyar bəlkə də,
Ağlın günahını yumaz göz yaşı.
Yaxud:

Bir kəlmə yalana qısılıb təkcə,
İki qəlb yükünü daşıya bilər.
Bir solğun xəyalın qoluna girib
Bir ömrü ümidlə yaşıya bilər.

Rəşad Məcidin şeirləri həyata lirik-romantik baxışın orijinal bədii ifadəsidir. Özü də hələ 1993-cü ildə yazmışdı ki, mənim üçün bədii yaradıcılıq baxımından ən ali məqam «buludların üstündə yeridiyim anlar ürəyimcə olan bir şeirin nöqtəsini qoymaqdır». «Buludların üstündə yeridiyi anlar»ı yaşamaq Rəşad Məcidin şeir yazmaq ovqatının, ilhamının miqyasını, mərtəbəsini təsəvvür etməyə imkan yaradır. «Buludların üstündə yeridiyi anlar»da yaranan poetik nümunələr heç şübhəsiz ki, birnəfəsə yazılmış şeirlərdir. Bu şeirlər sanki birbaşa bədahətən deyilmiş, sonradan yazıya köçürülmüşdür. Ona görədir ki, Rəşad Məcidin ən yaxşı şeirləri «bir dolu ürəyin püskürmə çağında», «bir qəfil hönkürtünü» sinədə boğmağın mümkün olmadığı anlarda

doğulmuşdur. «Göy üzü», «Qarşıdan bir sona keçdi», «Hələ ki vaxt var», «Ağ işıq», «Yollar» və sair kimi şeirlər sanki yazılmamışdır, dərin və incə yağış kimi yağmış, qövsi-quzeh kimi çıxmış, körpə uşaq kimi dünyaya gəlmişdir. Həyati müşahidələrinin ifadəsi olaraq yaranan bu şeirlər Rəşad Məcidin şairanə baxışlarının əks-sədasıdır. Həqiqətən də, yəqin ki, «Göy üzü» şeirində ifadə olunan hisləri yaşamaq   və kağıza köçürmək üçün səmaya və torpağa «buludların üstündə»n baxmaq anlarında «ürəyin püskürmə çağı»nın sətirlərini və qafiyələrini xüsusi olaraq dü-şün-məyə ehtiyac yaranmışdır. Bununla belə, Rəşad Məcid şeirlərində lirik-romantik düşüncəni həyati reallıqlarla üzvi surətdə bağlamağı bacarır. Beləliklə, o, yalnız bənzərsiz, təbii bir şeiriyyəti yox, həm də yeni bir mənanı, mətləbi ifadə etmiş olur. Bu baxımdan «Göy üzü» şeiri Rəşad Məcidin romantik-fəlsəfi düşün-cəsinin və gerçəkçi qavrayışının cazibədar mozaikasını təqdim edir. «Göy üzü» haqqında yazılan şeirdə yer üzünün dəyəri və dünyanı qorumağın məsuliyyəti daha çox ifadə olunmuşdur. Bu poetik nümunə poe-ziyamızdakı «Göy üzü daş saxlamaz» şeirinin motivlərindən fərqli bir baxış meydana qoyur. Şeirdəki «Göy üzünü qorumağın xətrinə göyün mavi çətirinə yığışıb» birləşmək ideyası poetik olduğu qədər də müdrik düşüncədir. Bundan başqa, fikrimizcə, mavi səmanı, kainatı, yer üzünü «göy xurcunda saxlayan» möhtəşəm bir ənginlik kimi mənalandırmaq Rəşad Məcidin bədii kəşfidir:

Bu dünyanın havasından, suyundan,
Torpağından, dənizindən, çayından,
Zirvəsindən, dərəsindən savayı
Bu dünyanı öz ovcunda saxlayan,
Kainatı göy xurcunda saxlayan,
Göy üzü var başımızın üstündə.

Gecələri ulduzları işarır,
Çəkib dartır ümidləri yanına.
Çox baxırıq gözlərimiz yaşarır
Yetəmmirik sirlərinin sonuna.
...İllərini işıq edib oğullar,
Özləri də o işıqdan keçiblər.
Göy üzünü qorumağın xətrinə
İndi durub çiyin-çiynə, qol-qola
Yığışıblar göyün mavi çətrinə
Göy üzünü qorumağın xətrinə.

Belə məqamlarda Rəşad Məcidin şeirləri dünya və insanlıq qarşısında mənəvi məsuliyyəti öz çiyinlərində daşıyan bəşəri poeziyanın yükünü daşıyır. «Göyün mavi çətrinə» yığışan işıqlardan keçmiş insanların «göy üzünü qorumaq» barədəki qayğılarının poetikləşdirilməsi geniş mənada kainatı yaşatmaqda İnsanı, Yer kürəsini cavabdeh saymaq deməkdir:

Bəlkə həmin işıqların əksidir,
Göy üzündə ulduz olur təzə-tər.
Bəlkə həmin ocaqlardı isidir,
Körpə dünya rahat yatır gecələr.

Göründüyü kimi, həyata gerçəkçi romantik baxış, işıqlı düşüncələr, nikbinlik və müdriklik Rəşad Məcidin lirikasının özünəməxsusluğunu müəyyən edir. Rəşad Məcidin lirikasında səmimiyyət, inam, nikbinlik, bü-tövlük və dərinlik vəhdət təşkil edir. Onun şəxsiyyət olaraq daşıdığı inamla şair kimi ifadə etdiyi inad biri digərini tamamlayır:

İnadım var – şimşəkləri yorası,
İnamım var – dumanları yarası.

Arzularım – kəhər atın yorğası.
Muradımı çatdıracaq mənzilə,
Nəğmələrim ucalacaq ən zilə.

Rəşad Məcid şeirinin qayəsində «Arazlaşan, Kürləşən Vətənin» bütövlüyü və qüdrəti, «At belində, dö-şün-də saz, əlində qılınc» nər oğulların daim ayıq-sayıq ölkənin keşiyini çəkməsinin müqəddəsliyi, obanın, elin tarixi yaddaşı olan Cıdır düzünün timsalında torpağımızın bölünməzliyinin qorunması ideyaları mü-səl-ləh əsgər qüruru ilə dayanır. Rəşad Məcidin və-tən--pərvərlik mövzusunda yazdığı şeirlər şair-vətəndaş mövqeyinin poetik ifadəsidir. O, ana Vətənlə özü arasında da, xalqı və ölkəsi müstəvisində də geniş mənada bütövlüyün tərənnümçüsüdür. Böyük ideal-lara həsr olunmuş Vətən şeirlərində həm də yüksək şeiriyyət, böyük bədiilik vardır.

…Dərəsi, təpəsi, düzü, dağıyla,
Köksümə, qəlbimə yerləşən Vətən.
Nə vaxtdır bölünən bölünməzliyi,
Bir namərd baxışlı göz deşən Vətən.

…Tarixi gizlənib qala başında,
Boylanır bu günə əli qaşında.
Bir vaxt var yığımı, var savaşında
Sorulmuş nar kimi büzüşən Vətən.

…Dikələn qayası, ucalan dağı
Əyilməz bürcüdü, yanan çırağı.
Yayılıb Kür boyu, Araz qırağı
Arazlaşan Vətən, Kürləşən Vətən.

Bu, Azərbaycan ədəbiyyatında böyük yer tutan və geniş ənənəsi olan Vətən şeirləri içərisində ideya məz-mununa görə də, bədii-sənətkarlıq xüsusiyyətlərinə əsasən də fərqli bir şeirdir. Rəşad Məcidin «Vətən» şeirində pafos yox, gerçəkliyin bədii ifadəsi birinci plan-dadır. O, ürəklə, səmimiyyətlə, təbii şəkildə tərənnüm etdiyi Vətənin özünəməxsus obrazını yaratmışdır. Beləliklə, hələ XX əsrin səksəninci illərində Rəşad Məcidin öz poetik üslubu, öz şeiri formalaşmışdır. Rə-şad Məcidin şeirlərində obrazlı işıqlı düşüncələr, həyata lirik-romantik və gerçəkçi baxış həm də epik təh-kiyə ahəngində ifadə olunur. Bu şeirlərin bir çoxunda zahirən görünməsə də, hiss olunacaq səviyyədə müəyyən süjet əlamətləri də müşahidə olunur. Bunlar aşkar nəzərə çarpan süjetli lirika nümunələri deyildir. Bu şeirlərdə dialoq da yoxdur. Rəşad Məcid şeirlərində dərin, zərif duyğularını, həyata və insana baxışlarını tərənnüm etmir, elə bil nağıl kimi danışır. Bu şeirlərin əksəriyyətinin mahiyyətində lirik-romantik dü-şüncə, təq-dimatında isə epik təhkiyə diqqəti cəlb edir:

Qan yaddaşım od ələyib duyğularıma,
Əfsanələr cavab tapıb sorğularıma.
Bir igid də tez-tez girir yuxularıma
At belində, döşündə saz, əlində qılınc.

Lirik-romantik düşüncənin epik notlarla təqdimi Rəşad Məcidin şeirlərinin daxili qatına süjet əlamətləri gətirir. O, təqdim etdiyi həyat anını bütün mahiyyəti ilə çatdırmaq üçün mövzuya bir neçə nöqtədən baxır. Və həmin baxış bucaqlarının əksəriyyətində Rəşad Məcid buludların üstündə addımlayırmış kimi yeri də, göyü də ayıq-sayıq və poetik şəkildə görür. Beləliklə, Rəşad Məcidin şeirlərində həyata, insana və dünyaya sanki göy qurşağının fonunda nəzər salınır. Bu şeirlər göy qurşağı rəngində qavranılan həyatın cazibədarlığının içərisindən seçilmiş, dəqiq müşahidə olunmuş poetik təəssüratlardır, lirik-romantik düşüncələrdir. Bu qədər dərin lirizmin

içərisində epik əlamətləri görmək çətindir. Lakin Rəşad Məcidin obrazlı və işıqlı düşün-cə-lərinin orijinal bədii ifadəsi olan şeirlərini yaşanmış həyat anının poetik formada təhkiyəsindən də ayrılıqda düşünmək olmur. Fikrimcə, lirik-romantik baxışla poetik təhkiyənin və süjet əlamətlərinin sintezi Rə-şad Məcid şeirinin fərdi özünəməxsusluğunu müəy-yən edir. Beləliklə, Rəşad Məcidin lirikasında lirik-romantik düşüncə ilə realist əlamətlər birləşir. Epik ciz-gilər onun romantik-poetik ovqatına realist notlar daxil edir. Bu xətt Rəşad Məcidin şeirlərində ildən-ilə dərinləşir və genişlənir. Bu isə Rəşad Məcidin şeir yaradıcılığında romantik-realist üslubun formalaşmasını şərtləndirir. Bənzərsiz lirik-romantik cazibədarlıq və üstəgəl, gerçəkçi realist baxış Rəşad Məcidin fərdi yaradıcılıq üslubunun düsturudur. Onun «Ay işığında», «Çay yanında», «Unuda bilməyəcəksən», «Mən əlini bu-raxmazdım», «Qalıb», «Qəfil yağış», «Qarşıdan bir sona keçdi», «Dəmiryolu kənarında bir kənd», «Yuxuda nə görüb bu qız» və sair şeirlərində dərin lirika ilə kiçik epik əlamətlərin mənalı sintezi romantik-realist tipli orijinal bir  yaradıcılıq üslubunu meydana çıxarmışdır. Bu da müşahidə olunur ki, şeirlərindəki lirizm Rəşad Məcidin romantik düşüncəsinin tükənməz enerjisi kimi bədiiliyi, obrazlılığı daim zənginləşdirir, epik notlar isə onun poetik fikirlərini həyata, gerçəkliyə daha da yaxınlaşdırır.  Ən yaxşı hallarda bu şeirlərdə romantik dü-şüncənin realist təqdimatı yüksək səviyyədə alınır. O, romantik ağırlıqlı realist şeirin ən yaxşı nümunələrini yaradır. Bu cəhətdən «Qarşıdan bir sona keçdi» şeiri Rəşad Məcidin lirikasındakı romantik poetik baxışın real epik təqdimatının özünəməxsusluğunu, süjet əlamətlərinin yerini və əhəmiyyətini bütün təbiiliyi ilə nümayiş etdirir. Bu şeir böyük bir şəhərdə qarşıdan sona kimi keçən gözəlliyə müxtəlif yönlərdən poetik baxışların tamaşasıdır, əhvalatlarıdır. Rəşad Məcid bütün şəhəri mat qoyan bu gözəlin obrazını «bir payız anına gəlmişdi bahar» təşbe-hi ilə canlandırmışdır. Sonra hər bənddə həmin «baharın» tamaşasına çıxan müxtəlif yaş qrupuna, ay-rı-ayrı peşəyə malik olan insanların heyrəti, həyəcanı, təbii hisləri şeirin müxtəlif bəndlərində oxucuya təqdim olunur. «Qarşıdan bir sona keçdi» şeirinin biri digərini tamamlayan ayrı-ayrı bəndləri gözəgörünməz bir süjetin əlamətlərini özündə cəmləşdirir.  Belə ki, hər bənd özündən əvvəlki bənddə ifadə olunan düşüncəni dərinləşdirir və sonrakı bəndlər üçün zə-min hazırlayır. «Qarşıdan bir sona keçdi» şeiri oxucuda həm təbii bir lirik ovqat yaradır, həm də aydın həyati təəssürat formalaşdıra bilir. «Qarşıdan bir sona keçdi» şeiri ilə Rəşad Məcid yeni dövr Azərbaycan şeirinin bənzərsiz bir poetik sonasını yaratmışdır:

Bir payız anına gəlmişdi bahar,
Küçələr, səkilər yırğalanırdı.
Bağlı pəncərələr, sakit eyvanlar,
Heyrətli gözlərlə sırğalanırdı –
Ağzını ayırıb baxırdı şəhər.
İşığa düşmüşdü bir oğlan gözü
Bilmir yanındakı nə söyləyirdi.
Qolundan yapışan dilavər qızın,
Barmağı böyrünü dürtmələyirdi,
Ağzını ayırıb baxırdı oğlan.

Çağrısı boş idi o tumsatanın,
Eh, indi o səsi eşidən hanı?
Xəbəri yox idi əsgər oğlanın,
Cibində qalmışdı tum stəkanı,
Ağzını ayırıb baxırdı şəhər.

Çəkdi bir şəhəri o gün çarmıxa,
O ya əfsanəydi, ya da bir tilsim.
Ağzını arayıb söz soruşmağa
Ağzını ayıra bilmədi heç kim.
Ağzını ayırıb baxırdı hamı.

«Qarşıdan bir sona keçdi» şeiri təkcə «payızda gə-lən bahar» cazibəsində təqdim olunan gözəl bir qızın yox, Azərbaycan poeziyasında real həyati çalarları olan epik təhkiyəli lirik-romantik şeirin də əfsanəsidir.
Rəşad Məcidin şeirlərinin ritmində və mahiyyə-tində özünəməxsus bir nağıl təhkiyəsi vardır. Onun şeirləri əksər hallarda nağıl, söhbət, zarafat, təəssürat şəklində təzahür edir. «Roman» liro-epik poemasının qəh-rə-ma-nı da əsəri «nağıl danışmaq» üstündə qurmuşdur. «Qırmızı işıq önündə» şeiri «bir ahıl sürücü ilə söhbət» kimi təqdim olunur. Rəşad Məcidin «21 ya-şımla söhbət», «Nağıl» adlandırılan şeirlərinin olma-sı nağılvariliyin onun lirikası üçün səciyyəvi olduğunu göstərir. Hətta bir çox şeirlərinin adı epik təhkiyə, danışıq kimi səslənir: «Çay yanında», «Ürəyim yol gedir», «Futbol oynadığım yadımdan çıxıb», «Mən əlini buraxmazdım», «O, bir əfsanə idi» və sair. Epik əlamətlər, na-ğılvarilik Rəşad Məcidin şeirlərinə təbiilik və həyatilik gətirir. Rəşad Mə-cidin şeirlərindəki nağılvarilik həm lirizmi zənginləş-dirir, həm də epik təhkiyənin poetik daşıyıcısına çev-rilir. Tək-cə nağılvarilik yox, ümu-miyyətlə, şifahi xalq ədə-biyyatı Rəşad Məcidin bədii yaradıcılığının, xüsusən də şeirinin əsas qaynaqlarından biridir. Onun dünyagörüşünün formalaşmasında da şifahi xalq ədəbiyyatı mühüm rol oyna-mışdır. «Hələ ki vaxt var» şeirində Rə-şad Məcid uşaqlıq illərinin nağıl-dastan dünyasının onun taleyindəki yerini, izini geniş ürəklə etiraf etmişdir:

Məni çağırdılar... çəkib nağıldan
Sehirli qarını çağırmadılar,
Qıratı, Düratı çağırmadılar.
O uzaq illərin işıqlığında
Çiçək arzularım boy atır hələ.
Ayrılıb ilahi uşaqlığımdan
O səsin ardınca gedirəm hələ.

Fikrimcə, Rəşad Məcidin yaradıcılığındakı millilik amili öz kökləri etibarilə real həyati qavrayışla yanaşı, həm də zəngin şifahi xalq ədəbiyyatı ənənələrinə bağlıdır. Şifahi xalq ədəbiyyatında istinad etdiyi nağıl dünyası ilə şeirlərindəki nağılvarilik onun yaradıcılığında bütöv bir poetik sistemin yaranması ilə nəticələnir. Nağılvari poetik təhkiyənin diqtə etdiyi lirizm Rəşad Məcidin şeirlərində həm həyata şairanə baxışın, həm də müdriklik və müasirliyin ifadəsinə çevrilir.
Rəşad Məcidin «Roman» adlandırdığı poeziya serialı onun yaradıcılığında şeiriyyətlə epik əlamətlərin sintezinin inkişafı və ümumiləşmiş yekunudur. Onun liro-epik şeirləri «Roman»a keçid üçün körpü funksiyası daşıyır. «Roman» başdan-başa lirik-epik xarakterə ma-lik orijinal əsərdir. Əlbəttə, Rəşad Məcid bu əsərini şərti olaraq «Roman» adlandırmışdır. Bu, çılğın məhəbbətlə sevən, qarşı tərəfdən anlaşılmazlıq və tərəddüdlər hiss edən, tamam cavab ala bilməyən, sevdası nakam sonluqla bitən bir gəncin düşüncələrinin poetik təqdimatından ibarət olan tale romanıdır. Ədəbiyyat mühitində, ziyalılar arasında «tale romanı», «ömür dastanı», «bir ömrün hekayəti», «tale dramı» ki-mi işlədilən sözlərdə də janr deyil, baş verən mətləbin xarakteri nəzərdə tutulur. Rəşad Məcidin «Roman»ı da bu mənada iki gən-cin aşiqanə tale romanıdır. Hətta bu əsərdə əks etdiri-lən mətləblərdən, iztirablardan, bəl-kə də, real olaraq roman janrında ayrıca bir əsər də yazmaq olar. Rəşad Məcidin əsərini şərti şəkildə «Ro-man» adlandırması yazdıqlarından daha çox bu mövzuda yaşadıqlarının miqyasını ifadə edir. Buna görə «Roman» ifadəsi əsərin janrını deyil, ilk növbədə, adı-nı, sonra isə mahiyyətini bildirir. Romana məxsus çoxplanlılıq, obrazların zənginliyi, hətta geniş həcm bu əsərdə nəzərdə tutulmayıb. Fik-rimizcə, Rəşad Məcidin «Roman» adlandırdı-ğı bu əsər janr baxımından liro-epik poemadır. Əsər li-rik şeirlərlə və epik təhkiyə ilə ifadə olunan hadisələrin nəzərəçarpacaq süjet əsasında poetikləşdirilməsi üzərində qurul-muşdur. Yara-dı-cılığının birinci dövrünə aid şeir-lərin-də olduğu kimi, 1996-cı ildə tamamlanmış «Roman»da da, əslində, süjet qabarıq şəkildə deyildir. İki gəncin macərasının ayrı-ayrı məqamlarını, təfərrüatlarını, düşüncələrini və

iztirablarını əks etdirən bu əsər-də şeirdən-şeirə keçid əhvali-ruhiyyənin, ovqatın də-yişməsini, münasibətlərin inkişafını əhatə edən mənəvi proseslərin inkişafını izləməyə imkan yaradır. Silsiləvari şeirlərdən əsərdəki əsas obrazın tərcümeyi-halını, xasiyyətini, aqibətini də müşahidə etmək olur. Poetik şəkildə ifadə olunan daxili monoloqlar əsasında yazılmasına baxmayaraq, «Roman»da süjetin bütün inkişaf mərhələlərini müəy-yən etmək mümkündür.
Fikrimizcə, «Tapdım» şeiri, ilk növbədə, «Roman»da proloq funksiyasını yerinə yetirir. Bu, bədii müqəddimədən əvvəl gələn, əsər boyu cərəyan edəcək hadisələri, çıxarılacaq nəticələri ümumiləşmiş şəkildə ifa-də edən dərin mənalı bir başlanğıcdır. «Tapdım» adı ilə təq-dim olunan proloq cəmisi üç bəndlik şeirdən ibarətdir. Əsərin əvvəlində «Tapdım» müəyyən dərəcədə həm də fəlsəfi mahiyyət daşıyan mükəmməl bir ümumiləşmiş şeir təəssüratı yaradır. Lakin «Roman»ın sonuna çatandan sonra əsas mahiyyəti daha aydın və dərindən başa düşmək üçün proloqu yenidən oxumağa ciddi bir ehtiyac yaranır. Bu mənada «Tapdım» həm də «Roman»ın epiloqunun da funksiyasını uğurla yerinə yetirir. Ayrılıqdan sonra bədbinləşən, ümidlərini itirmiş qəhrəmanın finaldakı «yenə mənasız oldu yaşamaq», «daha səhər oyanmağın, işə yollanmağın, daha gözləməyin, darıxmağın gözəlliyi yox», «yenə qarşı zülmət-qaranlıq, yenə soyuq», hətta «işığa, günəşə ümid yox» kimi sentimental və kədərli düşüncələri ilə «Roman» tamamlanmır. Bu məqamda «Tapdım» şeiri «Roman» liro-epik poemasının mənalı, düşündürücü və ümumiləşmiş finalı funksiyasını da yerinə yetirir. «Roman»dakı mənəvi cəhətdən təmiz insani keyfiy-yət-ləri, sevgisi, sədaqəti, vəfası, dözümü, inamı ilə səciyyələnən qəhrəmanın axırda nəzərə çarpan ümid-sizlik burulğanındakı anları ilə əsəri sona çatdırmaq olmazdı. Bu mənada əsərdə «Tapdım» proloqu ilə final da tapılmışdır. Adama elə gəlir ki, «Tapdım» şeiri «Roman»-dan əvvəl yox, sonra yazılmışdır. «Tapdım» şeiri həm «Roman»ın cəlbedici başlanğıcını və ümumiləşmiş mahiyyətini, həm də sonluğunu bədii əsər mənasında da, fəlsəfi mənada da çox dolğun şəkildə ifadə edir. Eyni zamanda «Roman»ın qəhrəmanının nəinki finaldakı ümidsizlik içində boğulduğunu ifadə edən məqamlarını, əksinə, «dəyişən halını», daha dəqiq və mər--danə simasını da «Tapdım» şeirindən tapmaq olur:

İlişib bir küncdə qalan fikrimin
Düşünüb-daşınıb sirrini tapdım.
Dəyişən halımın səbəbin gəzdim,
Yüz səbəb içindən birini tapdım.

Bildim bahar gəlib yenə payızda,
Duydum çiçək açdı cansız kağızda.
Çoxları üzərkən hələ dayazda,
Yaxşı ki, adlayıb dərini tapdım.

Şırıltı duyulur mürgülü qandan,
Ayılır yuxudan, açılır dondan.
Beş ildi xəbərim yoxuydu ondan,
İtmiş ürəyimin yerini tapdım.

«Roman» liro-epik poeması 56 adda şeir əsasında yaranıb. Rəşad Məcidin şeir yaradıcılığındakı «gözəgörünməz» süjetləri özündə daşıyan bəndlərin funksiyasını «Roman»da ayrı-ayrı şeirlər yerinə yetirir. Bu şeirlər, ilk növbədə, süjetin inkişafından doğan poetik düşüncələr və qənaətlərdir. Başlanğıc hissədəki «Gəl-dim» şeiri əsərin süjet xəttində bədii müqəddimənin girişi funksiyasını daşıyır. «Uşaq, uşaq..., balaca uşaq» şeiri «Roman»dakı obrazların ilkin təqdimatıdır. «Ro-man»ın qəhrəmanının «yoluna çiçəklər sərmək», «saçı-na çələnglər hörmək» istədiyi Uşaq ilə onun arasında həm «yaş adlı uçurum qılıncı durur», həm də yaşdan doğan dünyagörüş fərqi də vardır. Bundan sonra hadisələrin ilkin dolaşıqlıq mərhələsi başlanır. «Çərlədim» şeiri «yüz addımın qabağında bir addıma gücü çatmayan», «sözü kəlbətinlə çıxan» Uşaqdan yaranan ilk iztirabların ifadəsidir. Onu sanki iki dünya arasına salan «Quyu» şeiri ilə

ziddiyyətlərin daha da artmaqda da-vam etdiyi görünür. «Qurtul, görüm», «Qurtulmasan batma yasa», «Ağla» şeirləri sevgi iztirablarını dilləndirir. «Mən gəlib çatanda getmişdin artıq» şeirində tərəf- müqabilin obrazı «nərgiz topası» kimi təqdim olunur. «Son» şeirində iztirabların dərin həyəcanı döyünür. Am-ma «Yaxşı ki bu son olmadı» şeiri ilə hadisələr nikbin məcra alır, yeni nəfəs qazanır. «Bu həftə», «Mənim bəsimdir», «Qurban vermə gəl», «Öldürmək istədiyin hissin nəğməsi» şeirlərindən hər biri münasibətlərin inkişaf etməkdə olduğunu göstərir. «Əhvalat» şeiri – haşiyədir. «Roman»da janr baxımından əsl romanlarda olduğu kimi, bir neçə yerdə haşiyə xarakterli şeirlər vardır. Üç hissədən ibarət olan «Ovqat» şeiri də haşiyə funksiyasını yerinə yetirir. Haşiyələr əsərdəki əhvalatın, ovqatın həmin andakı mahiyyətinin açılmasına, aydınlaşmasına, gərginliyin azaldılmasına xidmət edir. «Qayıdır» şeirində vüsala çatmaq yox, hicranın çətinlikləri qarşısında qalan qəhrəmanın «çəkdiyi təlaş»ların yenidən qayıtdığı dilə gətirilir. Ümidqarışıq ilkin qənaət: «Hələ də uşaqsan.» Və birinci qəti addım: «Əlindəki öpüş yeri»:

Yaqut qaşlı üzük kimi,
Bahalı bilərzik kimi,
Göyərəcək, qızaracaq
Çapıq kimi, kəsik kimi
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri.

«Əlindəki öpüş yeri» həm də bu mövzuda yazılmış müstəqil bir şeirdir. Ümumiyyətlə, «Roman»dakı şeirlərin çoxu mətndən kənarda ayrıca şeir nümunəsi kimi qəbul oluna bilər. «Gəldim», «Ağla», «Sənə görədir», «Səndən bir söz çıxanacan», «Sənsiz», «Getdinsə», «Məni», «Saatım qurulub sənin vaxtına» və sair şeirlər Rəşad Məcidin lirikasının da, yeni Azərbaycan şeirinin də dəyərli nümunələri sayılmağa layiqdir. Eyni zamanda bu şeirlər «Roman»da süjetin inkişafını, tərəflərin əhvali-ruhiyyəsini, anların – həyatın, sevginin, iztirabların da mənasını açmağa, aydınlaşdırmağa, inkişaf etdirməyə xidmət edir. Azərbaycan ədəbiy-yatında poema yaradıcılığında lirik ricətlər, haşiyələr kimi şeirlərdən istifadə olunması ənənəsi zəngindir. Lakin özünəməxsus nazik bir süjetə malik olan poemanın, əsasən, biri digərinin davamı olan şeirlər üzərində qurulması nadir hadisədir. Rəşad Məcidin «Ro-man»ı ədəbiyyatımızda lirik şeirlərin aparıcılığı, ağırlığı əsasında yazılmış ilk liro-epik poemadır. Lirik şeirlərin çoxluğu liro-epik «Roman» poemasında lirikanı önə çəkməyi şərtləndirir. Bundan başqa, «Roman» özü mövzu etibarilə bütöv bir şeir təsiri bağışlayır. Başlanğıc dövrdəki şeirlərindəki aparıcı mövqeyə malik olan lirika ilə onu hərəkətə gətirən, təqdim edən epik əlamətlərin sintezi XXI əsrin astanasında yazılmış «Roman»da bütün imkanları, enerjisi, qüdrəti ilə meydandadır. Hələ XX əsrin səksəninci illərinin sonlarından sürətlə dəyişməyə, hətta dağılmağa başlayan və tamamilə təzə məcrada yenidən qurulan dünya və ölkə artıq şairlər üçün «əzəldən yaranan tamaşa» səviyyəsində xalis lirika nümunələri yaratmağa çağıra bilmirdi. Nəinki təcrübəli yazıçıların, cavan nəslin, o cümlədən həmin dövrdə lap gənc olan Rəşad Məcidin də gözünün qarşısında özünün yazdığı kimi, «harmoniya pozuldu, ölçülər itdi. ...Hesablanan ölçülər, planlar darmadağın dağıldı.» Gənc qələm sahibi həmin çətin günlərdə «içində nəyinsə dağıldığını» da duymuşdu. Beləliklə, dəyişən, yıxılan, dağılan və yenidən qurulan dünyanın XXI əsrin astanasındakı ritmini bütövlükdə ədəbiyyatda, xüsusən də şeirdə öz tempində ifadə etmək üçün yalnız tərənnüm nəinki qətiyyən kifayət etmirdi, hətta bəzən artıq görünürdü. Dağılan və yenidən qurulan dünya ilə həyatın şeiriy-yətini əks etdirmək ənənəsi mövzuların sırasından çıxmağa məcbur olmuşdu. Rəşad Məcid bütün bunları hələ səksəninci illərdəki yaradıcılığı zamanı hiss edərək yazmışdı ki, «sönür ekranlarda, gen kürsülərdə şeiri özlərindən tez qocalanlar... Elə bir yerdəcə sayır, sayırlar». Doğrudan da, XX əsrin axırlarındakı təzadlı və mürəkkəb dəyişikliklərlə ədəbiyyatın lirika səltənəti bitmişdi. «Candərdi alqışlar, yalan şöhrətlər, çiçək yağışları, gül yağışları, Salondan yollanan «bol səxavətlər» böyük sürətlə kəskin şəkildə dəyişən zamanın fövqündə çox solğun, lüzumsuz görünürdü. Rəşad Məcid hələ o zaman hiss etmişdi ki, artıq

«Nehrəsi çalxanır qoca zamanın». Çalxalanan Zamanın ritmini, ahəngini ədəbiy-yatda ifadə etmək üçün dəyirman daşının bərəkətini – fəlsəfəsini yox, hərəkətini ədəbiyyatın hərəkatına çevirməyə böyük ehtiyac yaranmışdı. Bu, bütövlükdə XX əsrin axırları Azərbaycan ədəbiyyatının yaşadığı pro-ses idi. Zaman ayrılıqda heç bir janrı ön sıraya çəkə bilmirdi. Həyatda, mübarizə yollarında, səngərlərdə olduğu kimi, ədəbiyyatda da janrların bir-birinə köməyi, yardımı, birgə iştirakı zəruri bir tələbat kimi meydana çıxmışdı. Rəşad Məcidin yaradıcılığında özünü büruzə verən lirika ilə epik əlamətlərin birliyi Zamanın tələbatından doğan, yeni ədə-biyyatın qarşısında duran mü-hüm vəzifələrdən biri idi. Bu mənada Rəşad Məcid bir yaradıcı insan olaraq ən yeni dövr Azərbaycan ədəbiyyatının, şeirinin üslubunda doğulmuşdur. «Roman» liro-epik poeması müs-təqillik dövrü Azərbaycan ədə-biy-ya-tının yeni tələbatının, müasir vəzifələrinin yeni üslubunun mükəmməl bir nümunəsidir. Bu, romanda lirik ədəbi növün qoşma, gəraylı, heca vəznli şeirin beşlik, altılıq, yeddilik poetik formaları, sərbəst vəznli şeirlər hadisələrin axarına, obrazların ovqatına uyğun olaraq «iştirak edir», ya da hadisələri və düşüncələri dərinləşdirir və inkişaf etdirirlər. Epik təhkiyədən də müxtəlif üsullarla istifadə həm «Roman»ın ifadə tərzini zənginləşdirir, həm də ayrılıqda müstəqil bədii nümunələr ki-mi səsləşən şeirləri bir-biri ilə əlaqələndirir və hərə-kətə gətirir. Göründüyü kimi, «Roman»da poetik janrlar və ifadə üsulları, necə deyərlər, dinc-yanaşı yaşamırlar, bir-birlərinin «taleyində» iştirak edirlər. Və hə-min bütövlük, harmoniya əsərin ideya-məzmununun da, bədii ifadəsinin də yüksək səviyyədə təqdimatını təmin edir.

«Roman»ın kulminasiya nöqtəsi hesab etdiyimiz «Səndən bir söz çıxanacan» şeiri həm, ümumən, Rəşad Məcid yaradıcılığının, həm də konkret olaraq bu epik xarakterli lirik-romantik poemanın ən səciyyəvi ideya və üslub imkanlarını nümayiş etdirir. «Roman»ın qəhrəmanı eşqinə – andına sadiqliyin son həddinə qədər dözüm və inam göstərir. Mənəvi iztirabların ən çətin anlarında «Cavan» adı ilə təqdim olunan naməlum oğlanın varlığı bəlli olanda özünüittiham kimi meydana çıxan daxili monoloq əsərdəki bütün gərginliyi qabarıq şəkildə ifadə edir:

Hər nə dedim, dümdüz dedim,
Gecə dedim, gündüz dedim.
Mən bir kitablıq söz dedim
Səndən bir söz çıxanacan.

...Ay düşüb, yerə enərdi,
Günəş bezərdi, sönərdi.
Daşlar da dil öyrənərdi
Səndən bir söz çıxanacan.

Çılğın lirik hislərin, emosional düşüncələrin epik təhkiyəvari təqdimatı «Səndən bir söz çıxanacan» şeirində gərgin vəziyyətləri və anları nümayiş etdirir. Əsasən, heca vəznində yazılmış şeirlərdən ibarət olan «Roman» liro-epik poemasında cəmi bir neçə məqamda, o cümlədən hadisələrin gərginliyinin zirvəyə çatdığı anlarda sərbəst şeir təhkiyəsinə keçid baş verir. Sanki ümidlər, xəyallar dağıldığı kimi, misraların hecaları da dağılır. «Səndən bir söz çıxanacan» şeirinin yekun hissəsində yenidən heca vəznli şeirin ahəngin-də konkret epik tərzdə, realist şəkildə təqdim edilən «nərgiz baxışlı qız» da, qəfildən peyda olan «bir Ca-van» da, cəhənnəmə çevrilmiş tale də ittiham olunur. Novellavari dəyişən vəziyyətlər sonrakı məqamlarda yenidən müəyyən ümidlər doğursa da, hadisələr düyün nöqtəsindən açılışa doğru dəyişməyə başlayır. «Roman»dakı düyünün açılması prosesinin təsviri zamanı mənəviyyatın dərinliklərinin deşilib-dağılması anlarının real təsviri müəllifin həyata, insana bələdliyini, dəqiq müşahidələrini üzə çıxarır. Əsərdəki süjetin bu mərhələsinə aid şeirlər dərin iztirabların və etirafların poetik bəyannaməsi kimi səslənir. Bu məqamlarda həm də «Roman»ın qəhrəmanı mənəvi ucalığının iztirablarını çəkməyə dəyər verən fədakar bir obraz kimi gürünür. O, hadisələrin ayrılığa doğru aparmasına baxmayaraq sevgisinə münasibətdə dönməzdir:

Səndən uzaqlarda on dəfə artıq
Çəkdim, o çəkdiyim dərdləri bir də.
Səndən ayrılıqda dünya qurtardı,
Yer tapa bilmədim özümə yerdə.
Fikrimdə gəzdirdim gülüşlərini,
Sənin hər kəlməndən bir Sən düzəltdim.
Sənin bir kəlmənə söykənib yatdım,
Başqa bir sözündən «Vətən» düzəltdim.

Ayrılıq və ondan sonrakı mənəvi iztirabların təsviri ilə «Roman» sona çatır. Lakin əsər tamamlansa da, «Roman»da təsvir olunan kiçik macəranın həyəcanları bitmir. Oxucudan ötrü düşünmək üçün bir romanlıq da təəssürat qalır. Bu mənada «Tapdım» proloqundakı «Beş ildi xəbərim yox idi ondan, İtmiş ürəyimin yerini tapdım» misraları ilə təkcə bir əsərin qəhrəmanının taleyində yox, bütövlükdə insanın mənəvi ucalığının işığında «Roman» davam edir. Ümumiyyətlə, «Roman» liro-epik poeması insanın mənəvi bütöv-lü-yünə inam haqqında dəyərli bir epitafiyadır. «Roman» – şeirlə yazılmış macəravari serialdır. Poema janrında yazılmış «Roman» mövzu və mahiyyət etibarilə insanın mənəvi bütövlüyünün və ucalığının romanıdır. «Roman» – Rə-şad Məcidin liro-epik şeirlərinin bütöv bir silsiləsidir. Nəhayət, «Roman» Rəşad Məcidin ədəbiyyatda, şeir-də bədii möhürüdür və özünütəsdiqidir. Ümumiy-yətlə, Rəşad Məcidi «Roman»dan doğulan şair kimi də, bədii obraz kimi də təsəvvür etmək olur. «Roman» liro-epik poeması əsərin müəllifinin də obrazını oxucuya təqdim edir. Fikrimizcə, «Roman» liro-epik poeması ilə Rəşad Məcidin bədii yaradıcılığının birinci dövrü tamamlanır. «Roman» – Rəşad Məcidin yaradıcılıq imkanlarını, mövzu dairəsini, obrazlı poetik dü-şüncəsinin özünəməxsusluqlarını, estetik idealını ümu-miləşmiş şəkildə təqdim edə bilir. Daxili monoloqlardan yaranmış orijinal bədii əsər kimi «Roman» Rəşad Məcidi Azərbaycan ədəbi mühitinin ön mövqeyinə çıxarır. Rəşad Məcidin romantik-realist üslubu da «Roman»la oturuşmuş bir sistem kimi möhkəmlənir. Rəşad Məcid müstəqillik dövrü Azərbaycan ro-man-tik-realist şeirinin tanınmış nümayəndəsi səviy--yə-sində qəbul olunur. Bütün bunlara görə «Roman» liro-epik poeması Rəşad Məcidin yaradıcılığının bö-yük bir dövrünün mükəmməl yekunu olmaqdan baş-qa, həm də yeni mərhələnin möhkəm təməli və etibarlı başlanğıcıdır.

* * *

Müşahidələr göstərir ki, Rəşad Məcid yaradıcılığı boyu həyatı həmişə «şairanə» yaşasa da, lirik düşüncələrini illərlə köksündə saxlayıb, «üşüyən qəlbinə isti» tək gələndə birdən «qəfil yağış» kimi yağdıran şairdir. Hətta bu da görünür ki, o, şeirlərini əvvəlcə özü üçün «əy-ninə oturan düz libası» olaraq deyib, yaxud yazıb ya-şayır, aradan illər keçəndən sonra ədəbiyyat mühitinə, oxucuya təqdim edir. Rəşad Məcidin 1987-ci ildə bitirdiyi şeir dəftərini nöqtəsinə-vergülünə toxunmadan yeddi ildən sonra, 1996-cı ildə tamamladığı «Ro-man» liro-epik poemasını 2004-cü ildə çap etdirməsi bu ümumiləşmiş nəticəni doğuran mülahizədir. Onun şeirləri sanki göy üzündə bulud kimi yığılıb, insanın, torpağın, cəmiyyətin zəruri ehtiyacına çevrildiyi vaxt-da şəfəqlər kimi «yağışa qarışıb axır». Bu lirika nümunələri yazıldığı vaxtın, hətta ondan sonra keçən illərin düşüncə səviyyəsini qabaqlayaraq, çap olunduğu, oxucuya çatdırıldığı ilin, anın şeiri kimi səslənir. Yaxud da çap olunduğu vaxtdan on illər keçsə də, onun şeirləri təzə-tər, yeni şeirlər kimi oxunur. Fikrimcə, bu, ilk növbədə, Rəşad Məcidin böyük istedadının, zamanı qabaqlamaq fəhminə, müasirlik gücünə malik olan dünyagörüşünün göstəricisidir. Çünki Rəşad Məcid hər hansı bir ötəri, keçici hisləri deyil, bütövlükdə insanı vəsf edir. Buna görədir ki, «Roman» poeması da elə bil ki, 1996-cı ilin yox, çap olunduğu 2004-cü ilin əsəridir. Hətta bir çox şeirləri və «Roman»ı ilk dəfə 2014-cü ildə çap edilsəydi, həmin ilin ədəbiyyatı kimi qəbul oluna bilərdi. Bu sözləri bir başqa yöndən Rəşad Məcidin 2014-cü ildə oxuculara çatdırdığı şeirlər silsiləsi haqqında da demək mümkündür. Yeni şeir silsiləsi onun yaradıcılığının ideya-sənətkarlıq baxı-mın-dan inkişafını göstərsə də, bu vaxta qədər yazdıqları kimi vaxta və zamana yox, insana və mənəviyyata həsr olunan poetik nümunələrdən ibarətdir. Müşahidələr göstərir ki, Rəşad

Məcidin 2014-cü ildə oxuculara təqdim etdiyi şeirlərin çoxu 2011-ci ildə qələmə alınmışdır. Lakin həmin silsilədə bu ilin şeirlərinin də olduğu hiss edilir. Beləliklə, Rəşad Məcidin yaradı-cılığında 2004–2010-cu illər yeni mərhələyə keçid üçün ciddi bir hazırlıq dövrü kimi diqqəti cəlb edir. Bu illərdə Rəşad Məcid daha çox publisistika ilə məşğul olmuşdur. Publisistika, qəzetçilik işi onu həyatın, cəmiyyətin daha da dərinliklərinə nəzər salması, mühiti və insanları bütün reallıqları ilə tanıya bilməsi üçün şərait yaratmışdır. Bundan başqa, 2004-cü ildə qırx yaşında Azərbaycan Yazıçılar Birliyinin katibi vəzifəsinə seçilməsi istər-istəməz təşkilati işlərə, ədəbi mühitin yenidən qurulması vəzifələrinə üstünlük verməsini tələb etmişdir. Lakin həmin illərdə mətbuatda heç bir şeir, yaxud hekayə çap etdirməməsi onun ümumiyyətlə ədə-bi fəaliyyətdən əl çəkməsi kimi yox, əksinə, daha cid-di yaradıcılıq mübarizəsinə başlamaq, dərindən dü-şünmək, özünü səfərbər etmək üçün müvəqqəti bir fasilə götürmək düşüncəsi olaraq görünür. 2009-cu ildə nəşr etdirdiyi «Əlvida və salam» kitabında toplanmış publisistik məqalələr, yol qeydləri və esselər Rə-şad Məcidin yaradıcılığında yeni mərhələyə keçidin məşqləridir. Azərbaycan Yazıçılar Birliyinin nəzdində yaratdığı Gənc Ədiblər Məktəbində yeni ədəbi nəslin böyük ədəbiyyata hazırlanması qayğıları ilə ciddi surətdə məşğul olması zərurəti onun özünü də bədii yaradıcılıq baxımından yenidən səfərbər etməyə sövq etmişdir. Fikrimizcə, Rəşad Məcidin yaradıcılığında 2011-ci ildən etibarən başlanan yeni dalğa həmin hazırlıqların, ideya-sənətkarlıq axtarışlarının, daxili-mənəvi səfərbərlik səylərinin qanunauyğun məntiqi davamıdır.
Rəşad Məcidin 2011-ci ildən sonrakı mərhələdə yaranan şeirlərini üç yerə ayırmaq lazımdır:
1.«Roman» liro-epik poeması ilə səsləşən yeni şeirlər;
2. «Dastan» qrupu şeirləri;
3. Lirikasında yeni mərhələ;
Müxtəlif mətbuat orqanlarında Rəşad Məcidin 2014-cü ildə oxuculara təqdim etdiyi yeni şeir silsiləsinin bir hissəsi ilk baxışda sanki onun «Roman»ının yazıldığı, yaxud çap olunduğu vaxt unudulub kitabına daxil edilməmiş parçalar təəssüratı yaradır. Başqa bir istiqamətdən baxsaq, yeni silsiləyə daxil olan «Sənsən», «Bəsdi», «Bəsdi nədir», «Əlac», «Çıxmışam», «Mə-ni anla», «Daha», «Mələyim, iblisim», «Sənə sarı», «Məni», «O» şeirləri sanki «Roman»a sonradan yazılmış əlavələr kimi görünür. Həmin şeirlərdən hər birini çox asanlıqla «Roman»ın kompozisiyasında münasib məqamlarda oturtmaq olar. Bu şeirləri ayrı-ayrı bölmələrə daxil etməklə «Roman»ı daha da qüvvətləndirmək mümkündür. Bununla belə, təzə şeir silsiləsində «Roman»a münasibətdə başqa bir meyil daha qabarıq şəkildə hiss olunur. Sanki bu şeirlər yeni bir «Roman»ın ilkin parçalarının əlyazmalarıdır. Bu şeirlərin əksəriy-yəti yeni bir süjet ətrafında birləşir. Şeirlərdən süjet xəttinin dərinləşdiyi və genişləndiyi müşahidə edilir. «Roman»dakı şeirlərin çoxu daha çox «Mən»ə – lirik qəhrəmana aiddir. Yeni silsilədə isə «O»ya ağırlıq verilib. Bu «O» «Roman»dakı Uşağa bənzəsə də, onun eynisi deyildir. Rəşad Məcid «O»nu «boynuna biçilən kəfəni», «dar ağacı», həm də «xilası», «mələyi və iblisi», lirik qəhrəmanı «gah göydə yaşadan, gah yerə çırpan» qüvvə kimi təqdim edir. «Roman»dakı Uşaqla müqayisədə «O» ilə münasibətlər xeyli dərəcədə aydındır. «O» – silsiləsi eşqinə vəfalı lirik qəhrəmanın əbədi sevdasının nəğməsidir. Yeni şeirlərdəki lirik qəhrəmanda «Ro-man»dakı ümidsizlik, sentimental əhvali-ruhiyyə nikbinlik və inam hisləri ilə əvəz olunmuşdur:

Bu əzabın zülmətindən
Dipdiri, oyaq çıxmışam.
Ürəyimdə dəli bir eşq,
Dilimdə «Allah» çıxmışam.
Üstümdə Tanrı nəfəsi,
Üzümdə sevda həvəsi
Dağıtmışam dar qəfəsi
Ölməmişəm, sağ çıxmışam.

Keçdim çətin mərhələdən,

İnildədi, əsdi bədən.
Bu on ballıq zəlzələdən
Bir boy qalxıb dağ çıxmışam.

2014-cü ildə təqdim edilən şeirlər həm sual ve-rən, həm də cavab tapa bilən, «əzabın zülmətindən dipdiri, oyaq çıxmış», «ruhuyla bir sirli aləmi» keçən, «Məni anla!» deyə çağıran, qarşısında duran məramın mahiyyətini dərk edən yetkin, qərarlı bir obrazın könül dastanıdır. Bu şeirlər «Roman»da əsərin lirik qəhrəmanına ona bağışlanan baxtın da, Tanrının verdiyi vaxtın da axıra çatmasından sonrakı mərhələnin geniş və dərin düşüncəsinin ədəbiyyatıdır. «Roman»da lirik-psixoloji vəziyyətlər, yeni şeir silsiləsində isə mövzunun ictimai məzmununun bədii dərki ön mövqedədir.
Bizə görə, 2014-cü ilin şeirlərində yeni mərhələnin ciddi bir yaradıcılıq ab-havası duyulmaqdadır. Fikrim-cə, «O» – şeir silsiləsi daha dərin həyat həqiqətlərini daha yüksək sənətkarlıqla ifadə etməklə təzə bir ro-man meydana qoymaq cəhdinin, niyyətinin poe-tik ifadəsidir. O – «Roman»dakı Uşağın davamının, «Mən» isə əsərin qəhrəmanının inkişafının fərqli əks-sədasıdır. Bu, bir-birinə üzvi surətdə bağlı olan, lakin hadisələrin inkişafından doğan təzə əsərdir. Yeni silsilənin lirik qəhrəmanı «ürəyinin yerini» beş ildən sonra tapan romantik bir gənc yox, artıq əlac haqqında düşünən, «ağrıların min iz yeri» yaddaşında sızlasa da, çarə axtaran, qərar qəbul edən təpərli, ürəkli bir cavandır:

O-dur sənə dərman, ilac,
Gördün ki, yox başqa əlac.
Əlindən tut, üstünə qaç,
Diri tərpən, di tez yeri.

Bu mənada 2014-cü ilin şeir silsiləsindəki «Tapardım» şeirində «Roman»dakı «Tapdım» proloqunda ifadə edilən, fikirləri «ilişib bir küncdə qalan», təsadüfi görüşü çılğıncasına qəbul edən obrazın deyil, «qəliz, mürəkkəb tapmacaların» cavabını tapmağa idrakı və dəyanəti ça-tan, özünə inanan düşüncə sahibi olan realist qəhrəmanın bədii surəti görünməkdədir. Fikrimizcə, «Tapardım» şeiri «Tapdım» proloqunda səslənən «yaxşı ki, adlayıb dərini tapdım» nidasının ar-dın-dan meydana çıxmış, daha da dərinliklərə işıq saçan yeni başlanğıcın paroludur. «Tapdım» şeirində «təzədən O-ya vurulmaq üçün», həyatı, mübarizəni yenidən başla-maqdan ötrü özünə münasib mövqe, bucaq axtaran, dərindən düşünüb-daşınan yeni obrazın əlamətləri işarır. Bu iddia poetik silsilədəki «Bəsdi nədir» şeirindən də açıq-aydın bilinir:

Heç nə sona yetən deyil,
Bu eşqdə qəfəs bilmərəm.
Bu ruhumda, bu halımda
Barmağımı kəs, bilmərəm.

Əzabı da şirin dadır,
Çoxdan sızıb qanımdadı.
Ruhu hər an yanımdadı
Ayrı səda, səs bilmərəm.
Mənəm işıq dəstələyən
Yüz-yüz nəğmə bəstələyən.
Kimdi orda «bəsdi» deyən,
Bəsdi nədi? Bəs bilmərəm.

Bundan sonrasını da, yəqin ki, tədqiqatçı yox, daha yaxşı şairin özü bilər. Sadəcə, biz 2014-cü ilin şeir silsiləsinin bətnində genişhəcmli yeni bir əsərin yatdığını görürük. Bu, «Roman» poeziya serialının davamı, ikinci hissəsi, yaxud fərqli bir yeni əsər, nə olursa-olsun, belə bir əsər

doğulmaqdadır. «O-silsiləsi» adlandırdığımız şeirlərin diqtə etdiyi notlar «Roman»a əlavədən çox, davam və inkişaf mənasında yeni əsərin fraqmentləri kimi diqqəti cəlb etməkdədir. Fikrimizcə, bu poetik silsilə müəllifin «Dastan» adlandırdığı əsərin ayrı-ayrı hissələrindən ibarət olan şeirləri əhatə edir. «Roman» kimi «Dastan» da şərti ad olub, oxucuya artıq Rəşad Məcidin yaradıcılığından bəlli olan lirik qəhrəmanın xeyli dərəcədə inkişaf edərək yetkinləşmiş obrazını təqdim edən fərqli bir əsərin mahiyyətini ifadə edir. Hadisələrin epik tərəfinin bir qədər də qüvvətlənməsi, qəhrəmanın hərəkət və davranışlarındakı ayıqlıq və qətiyyətin, çətin vəziyyətlərdən çıxmaq qabiliyyətinin nisbətən geniş təsviri «Roman»la müqayisədə yeni əsərin «Dastan» adlandırılmasını şərtləndirmişdir. Bu mənada «Dastan» əsəri «Roman» liro-epik poemasındakı hadisələrin davamı yox, həmin əsərlə səsləşən, lakin qəhrəmanı fərqli ampluada təqdim edən yeni romandır. Doğrudur, yeni silsilədə əhatə olunan şeirlər «Dastan»ın tam mətnini ifadə edəcək qədər deyildir. Lakin «O» – silsiləsi və həmin silsilə ilə səsləşən digər şeirlər «Dastan»ın ana xətlərini, əsas konturlarını təsəvvürə gətirməyə imkan yaradır. Fikrimizcə, «Dastan» Rəşad Məcidin 2014-cü ildə təqdim etdiyi şeirlərin hamısını yox, «O» silsiləsini və ona yaxın şeirləri əhatə edir.

«Roman»da olduğu kimi, 2014-cü ilin «Dastan» qrupuna aid olan poetik sovqatı da müəyyən süjet xətti ətrafında cəmləşən lirika nümunələri olmaqla bərabər, həm də hər biri ayrıca, müstəqil şeirlərdən ibarətdir. Silsiləyə daxil olan «Sənsən», «Mələyim, ib-li-sim», «Üzünə qurban» şeirlərində lirika o qədər dərindir ki, onları yalnız Rəşad Məcidin yaradıcılığına çox yaxından bə-ləd olanlar hər hansı bir süjetin tərkib hissəsi kimi görə bilərlər. Şeirlərdən süjet düzəltmək artıq Rəşad Məcidin şeir yaradıcılığının oturuşmuş bir sistemidir. Hər biri müstəqil poetik nümunə olan ayrı-ayrı şeirlər vasitəsilə geniş süjet xətti yaratmaq, kompozisiya qurmaq Azərbaycan ədəbiyyatında ilk dəfədir ki, Rəşad Məcidin yaradıcılığında bu qədər davamlı olaraq təzahür edir. İlk şeir dəftərində, «Roman» liro-epik poemasında nəzərə çarpan və şeirdən-şeirə inkişaf edən süjet xətti yaratmaq xüsusiyyətinin 2014-cü ilin «Das-tan» qrupu şeirlərində də açıq-aşkar görünməsi bu tip ifadə vasitəsinin Rəşad Məcidə məxsus fərdi üslubi keyfiyyət olduğunu tam təsdiqləyir. İnanırıq ki, Rəşad Məcidin «Dastan»ı onun «Roman»ı ilə qoşa dayana biləcək. Başqa bir cəhət isə Rəşad Məcidin şeirlərinin vaxta, zamana yox, əbədi qalan insana və mənəviy-yata ünvanlanmasıdır. Kitablarında ayrı-ayrı şeirlərinin, demək olar ki, heç birinin yazılma tarixlərinin göstərilməməsi, bəlkə də, təsadüfi olsa da, yaradıcılığındakı həmişə yeni və müasir səslənən poetik nümunələr yaratmaq sahəsindəki qanunauyğunluğun izahına, şərhinə imkan yaradır, əyanilik gətirir. Hətta onun şeir-lərinin tarixləri qeyd edilsə belə, bədii düşüncənin dərinliyi və müasirliyi baxımından həmin rəqəmi şərti şəkildə şeirin yazıya köçürülmə faktı kimi başa düşmək olar. Özünün də yazdığı kimi, şeirlərinin axırında istənilən vaxt «sıfırı bir, biri beş etmək», yəni təqdim olunan bədii nümunələri yazılma tarixindən asılı olmayaraq, ən son düşüncənin poetik ifadəsi kimi qəbul etmək mümkündür. Bu poetik nümunələrin əksəriyyəti Azərbaycan poeziyasında zamana görə dəyişməyib qala biləcək, yaşayacaq şeirlərdir. 2014-cü ilin şeir silsiləsi Rəşad Məcidin əlli yaşının, otuz illik bədii yaradıcılığının yekunundan çox yeni mərhələnin uğurlu, qətiyyətli addımlarıdır.

Qeyd edilməlidir ki, 2014-cü ilin şeir silsiləsində «Roman»a yaxın olmayan, «Dastan»dan xaric şeirlərdə də Rəşad Məcidin yaradıcılıq təkamülü aydın surətdə müşahidə olunur. Əvvəla, yeni mərhələdə şairin yaradıcılığında ictimai motivlər genişlənmişdir. Rəşad Məcid poeziyada mənəvi münasibətlərdən daha çox ictimai prosesləri mənalandırmağa çalışmışdır. O, artıq indiyə qədər «cavabını tapmadığı suallar»ı bədii yaradıcılığının əsas obyektinə çevirmişdir. Yeni mərhələnin şeirləri illərdən bəri onun daxilən «topalaşıb qurd kimi gəmirən», uzun vaxt ərzində «düşünməkdən yağmalandığı» məsələləri diqqət mərkəzinə çə-kir. «Göz yaşı» şeirində Rəşad Məcid ölkə səviyyəsində itki sayıla biləcək dəyərlərin ağısını oxuyur. O, artıq «ölkədə, dünyada nə yenilik var» sualını poetik baxımdan mə-nalandırmağı vacib sayır, «mənim danışmağa öz xəbərim var» deyərək dünyaya biganə qalmadan milli maraqlara cavab verən sualların ədəbiyyatını yaratmağa üstünlük verir. İndi Rəşad Məcid bütövlükdə bədii yaradıcılıqda, o cümlədən də şeirlərində daha çox yazıçı-vətəndaş kimi çıxış edir. Bir çox şeirləri müstəqillik dövrü Azərbaycan vətəndaşlıq poeziyasının layiqli poetik nümunələri sayıla bilər. «Uzağı bir ay»

şeirində «uşaqlıq evlərinin daş-daş sökülməsinə», «doğma şəhərlərin viranə qalmasına» biganəlik vətəndaşlıq mövqeyindən tənqid olunur. «Dik atılıram» şeiri ilə problemə yeni baxışdan yanaşan Rəşad Məcid, həmin özünəqapılmanın, laqeydliyin ictimai mahiy-yətini açmışdır:

Vurub, silkələyib oyatsalar da,
Lap belə yanımda top atsalar da,
Tüküm də tərpənmir, vecimə olmur! –
Nə şimşək çaxması, yağış səsindən,
Göylərin, yerlərin titrəməsindən,
Nə fişəng atəşi, tüfəng səsindən
Qapı tıqqıltısı, ya zəng səsindən
– Yox, oyanmıram!
Bircə həyəcanla dik atılıram
SMS-lərinin cingiltisindən.

Rəşad Məcidin 2011-ci ildə yazılmış «Xilaskarım» şeiri də sadəcə siqaret haqqında olmayıb, rəmzi mənada sədaqətli olmağa, insanın ünsiyyət ehtiyacına, mənəvi bütövlüyün zərurətinə həsr edilmiş təsirli poetik nümunədir. Sanki «Xilaskarım» şeirindən tənhalığın, laqeydliyin, ünsiyyətsizliyin tüstüsü çıxır. Rəşad Məcid, haqlı olaraq, bu fikirdədir ki, sədaqət və ünsiyyət, düşünmək və bölüşmək, bütövlük ən bö-yük kəşflərə də cığır aça bilir:

Sən olmasaydın,
Bəşər uşaqlıq çağında qalmışdı hələ!
Sənsən dünyanın ən böyük kəşfi,
Ən böyük kəşflərin cığır açanı!
Ən gözəl musiqinin,
Ən ilahi sözün qanad verəni!
Yarım gün
Ayrı düşəndə səndən
Gizildəyir damarlarım,
Çığırışır hüceyrələrim!
…Tələsir 3–5 saat sənsiz qalan
İnsanların ağı-qarası,
Qocası, cavanı…
Sənsən susduran acı söhbəti,
Durduran qəliz davanı.
…Bu şeirdi mənim sənə
Təşəkkürüm, sədaqətim!
Tütünüm, nikotinim,
Tüstüm, siqaretim!

Yeni mərhələyə aid şeirlərində Rəşad Məcidin sərbəst şeirə meyli artmışdır. Heç şübhəsiz, bu hal da bir çox məqamlarda şeirdə ictimai mətləbləri, konkret fikirləri ifadə etməyə olan daxili tələbatdan yaranır. «Xilaskarım» sərbəst şeirlə yazılmış təsirli bir oda təsiri bağışlayır. «Darıxanda», «Çəkmə əlini», «Qar kimisən», «Eynək»də sərbəst şeirin imkanları ilə həyat həqiqətlərinin, mənəvi münasibətlərin dərin mənaları ifadə olunmuşdur.Vəznindən və mövzusundan asılı olmayaraq, Rəşad Məcid bütün hallarda şeirlərində vətəndaşlıq duyğusunu özünəməxsus yüksək bədiiliklə ifadə etməyi zəruri hesab edir. Onun yeni mərhələyə aid əksər şeirləri ictimai motivlərin bədiiliklə sintezindən yaranmışdır. Bütövlükdə yeni şeir silsiləsinin ideya-sənətkarlıq yetkinliyi Rəşad Məcidin bundan sonra ədəbiyyatda daha dərin həqiqətləri daha yüksək poetik səviyyədə tərənnüm edəcəyinə böyük inam yaradır:

Hələ çoxdur səndən mənə qalanlar,
Hələ nələr yazmalıyam mən, nələr…
Ağrı dolu,  əzab dolu romanlar,
İnildəyən, sızıldayan nəğmələr.

Rəşad Məcidin yeni dövr yaradıcılığında əvvəlki odu, istini işıq, səhər anlayışları əvəz edir. O, həyata olduğu kimi, ədəbiyyata da dərindən və ömürlük bağlı olan əbədi sənət yolçusudur. Rəşad Məcidin tə-zə şeirləri hələ cəmi yarısı yaşanmış mənalı ömrünün böyük səhərlərinin aydınlığında «ağ kağıza kotan kimi şırım-şırım açır». Yeni şeir silsiləsində xüsusi yer tutan «Bayrağım» şeiri müstəqil dövlətinin bayrağına dərin sədaqətini ifadə edən şairin həm də millətinə və ölkəsinə xidmət edən sənətin, ədəbiyyatın bayrağını gələcəyə aparmaq andının dolğun poetik ifadəsidir. 2014-cü ilin şeirlərindəki dərin ictimai düşüncə, ciddi milli-mənəvi qavrayış və yetkin, sistemli yaradıcılıq imkanları göstərir ki, həyatın, insanın, mənəviyyatın daha çox dərinliklərini açmaq, «sirrini anlatmaq» artıq biryolluq Rəşad Məcidin müstəqillik qazanmış xalqı və ürəkdən bağlı olduğu böyük ədəbiyyat qarşısında qaçılmaz bir borcudur, şərəfli və məsuliyyətli vəzifəsidir.

* * *

Rəşad Məcid şeirinin estetik idealı kimi ifadə edilən ağ atlı oğlan ölkənin bütövlüyünün və xalqın milli-mənəvi varlığının etibarlı keşikçisidir. Bu ağ atlı oğlan – əslində, yurdun, torpağın sahibidir. «Köç yolunda at üstündə» doğulan, qəlbində bahar çağlayan ağ atlı oğlanın idealı isə «işləri qayadan-daşdan» keçən xalqına xoş günlər bəxş etməkdir. Rəşad Məcid «ümidi işıqlı», «yolları açıq» təsvir etdiyi ağ atlı oğlanında xalqın bütün gücünü cəmləşdirir:

Köç yolunda, at üstündə
Qəfil körpələr doğulub,
Hamıdan sağlam oldular,
İldırımla savaşdılar,
Küləklərlə vuruşdular,
Ağ atlı oğlan oldular!

Estetik idealını Rəşad Məcid hələ XX əsrin səksəninci illərində yazdığı şeirlərində ifadə etmişdi. O çətin, məsuliyyətli illərdə Rəşad Məcid fikirləşmişdi ki, gec-tez «bir oğlan gəzəcək yurd yerlərini, qəlbində, könlündə, köksündə bahar» və bununla da «saralan çə-mənlər yaşıllaşacaq». Fikrimcə, XXI əsrin astanasında yazılmış «Roman»ın, nəhayət, «adlayıb dərini ta-pan» qəhrəmanı da dəli-dolu, mərdanə və sədaqətli ağ atlı oğlanlardandır. Yeni təqdim olunan «Das-tan»-dakı ideya-mənəvi bütövlük ağ atlı oğlanın daha yetkin və kamil obrazını canlandırır. Rəşad Məcidin 2014-cü il şeir silsiləsi ilə gələn «Bayrağım» şeiri onun böyük ideallarının zirvəsidir. Rəşad Məcidin ağ atlı oğlanı indi artıq müstəqillik yollarında inamla irəliyə gedən Azərbaycanın dövlət bayrağının keşiyindədir:

Səni ən çətin
Günlərimdə qorudum.
Beynimə həkk edib,
Ürəyimə sarıdım.
Mahnımda,
Nəğməmdə gizlədim.
Aya baxıb xatırladım,
Ulduzunu sevdim.
Üç rənginə öyrəndim,
Hər üzünü sevdim.
Hücumdan, həmlədən qorudum,

Küləkdən, tufandan keçirdim.
Bir gün qaldırdım başımın üstünə
Saxladım,
Əymədim.

Bütövlükdə Rəşad Məcidin şeir yaradıcılığı torpaq qoxulu, Vətən ətirli poeziyadır.

* * *

Məlum olduğu kimi, bədii nəsr sahəsinə Rəşad Məcid az müraciət etmişdir. Hələlik onun bizə cəmi iki hekayəsi məlumdur: Məşhur «10 sentyabr» və «Cənnət dərəsi» hekayələri. Qeydlərindən aydın olur ki, «Tüstü» adlı bir hekayəsi isə hansı redaksiyadasa itib. Lakin bu qədər azsaylı hekayələr də Rəşad Məcidin nəsr imkanları haqqında fikir söyləməyə, söz deməyə şərait yaradır. Hər şeydən əvvəl, məşhur «10 sentyabr» hekayəsi haqqında. Fikrimcə, «10 sentyabr» hekayəsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatında hekayə janrının ən yaxşı nümunələrindən biridir. Bu, yeni tarixi mərhələdə kiçik hekayənin böyük nümunəsidir. «10 sentyabr» kiçik hekayəsində dövrün böyük mətləbləri öz əksini tapmışdır. Hekayədə böyük dövlətlər və kiçik xalqlar kimi ciddi bir problem sadə bir əhvalat əsasında həll edilmişdir. Rəşad Məcid xarici qonağın xarakterini müşahidə olunmuş həyati detallar vasitəsilə inandırıcı şəkildə canlandıra bilmişdir. Hekayədə kiçik cizgilərlə xarici vətəndaşın portreti də cızılmışdır:
«Gombul, balacaboy kişi. Kişinin ovurdları işləyir. Əslində... paxlavanı çeynəmir, bütöv-bütöv udurdu...
Bayaqkı gombul kişi onu görən kimi «pliz, pliz» de-yib qucağındakı qıvrımtüklü iti sığallaya-sığallaya dəhlizin əks tərəfinə keçdi... Kişinin getdiyi tərəfdən bayaqkı qadın çıxıb ona yaxınlaşdı... Alıb çantanı aç-dı... dollarları saydı. Əlindəki şax əsginaslara işarə edərək:
– Çim it alacaq.
Sonra pulları çantanın içinə qoyub əlini uzatdı:
– Sağ ol! Minnetdddar-am!»
Rəşad Məcidin portretin zahiri görkəmi ilə daxili alə-mi arasında yaratdığı uzlaşma oxucunun «xarici qo-naq» haqqında obyektiv nəticə çıxarmasına imkan yaradır.
«10 sentyabr» hekayəsindəki taksi sürücüsü Akif müasir mərhələdə Azərbaycan ədəbiyyatında kiçik ada-mın böyük obrazıdır. XX əsrin əvvəllərindəki «kiçik» adam obrazlarından fərqli olaraq, artıq müəyyən peşə sahibi olan, zavodda işləyib mükafatlar alan, dəyişən zəmanənin «taqəzası» ilə iş yeri bağlanan, çətinliklərlə üzləşən Akif halallığı, zəhmətkeşliyi, sədaqəti və səxavəti ilə səciyyələnən obrazdır. Taksi sürücüsü Akif cəmiyyətdə gedən ictimai-siyasi proseslərin yaratdığı böhranın doğurduğu kiçik adamın bütün taleyini daşıyır və psixologiyasını özündə əks etdirir. Akif keçid dövründə baş verən mənəvi aşınmaları adlayıb keçən, sıxıntılara düçar olsa da, ləyaqətini uca tutmağı bacaran azərbaycanlı obrazıdır. Cəmiyyətdə xaos, çaşqınlıq dövrü kimi səciyyələndirilən həmin mərhələnin adamlarının ədəbiyyatda daha çox mənəvi böhranından, aşınmasından yazmaq meylinin üstün olduğu vaxtda Rəşad Məcidin sabit mənəviyyata malik kiçik adamın böyük dəyərlərini təqdim etməsi ədəbi prosesin də axarına təsir edən əhəmiyyətli hadisədir. Bu mənada XXI əsrin əvvəllərində, 2003-cü ildə yazılmış «10 sentyabr» hekayəsi Azərbaycanın yeni dövr ədəbiyyatının ideya-mənəvi borcunun əks-sədası kimi mey-dana çıxmış əsərlərdən biridir. Bundan xeyli əv-vəl, hələ 1987-ci ildə qələmə alınmış «Cənnət dərəsi» hekayəsi Rəşad Məcidin bədii nəsr sahəsində ilk addımı olsa da, həm də «10 sentyabr» hekayəsi üçün məşq funksiyasını daşıyır. Təhkiyə və təsvirlərindəki doğmalıqdan başqa, vətənpərvərlik notları bu hekayələri yaxınlaşdırır. «Cənnət dərəsi»ndə ifadə olunan kəndə qayıdışa çağırış «10 sentyabr» hekayəsindəki mil-li-mənəvi dərketməyə qayıdışın start nöqtəsidir. Bütün bu cəhətlər Rəşad Məcidin bədii nəsri haqqında ümumiləşmiş bir təsəvvür formalaşdırır. Lirikasındakı gözəgörünməz daxili süjet əlamətləri, li-ro-epik poemasını «Roman» adlandırması və «Roman»dakı qeyri-adi kompozisiya yaratmaq istedadı Rəşad Məcidin nəsr sahəsindəki imkanlarının üfüqlərinə işıq salır. «10 sentyabr» hekayəsi ilə Rəşad Məcid həcm etibarilə kiçik bədii forma daxilində böyük və dərin ictimai mətləbləri ifadə etmək bacarığını nümayiş etdirir. Bu mənada ümumi yaradıcılığının fonunda nəzər salsaq, «10 sentyabr» hekayəsi

Rəşad Məcid nəsrinin «Roman»ıdır. Sabitləşmiş, inkişaf edən və dünya ilə üz-üzə olan yeni Azərbaycanda cəmiyyət həyatının epik mahiyyətinin gerçək romanı «10 sentyabr» hekayəsinin bətnində müşahidə olunur. Bu hekayənin on xarici dilə tərcümə edilərək bir kitabda çap edilməsi qlobal məkanda həm müasir Azərbaycan nəsrinin, həm də müstəqil Azərbaycanın yeni nəslinin indiki səviyyəsinin dünyaya təqdim edilməsi baxımından əhəmiyyətli hadisədir. «10 sentyabr» hekayəsi ilə Rəşad Məcid böyük ənənəsi olan Azərbaycan nəsrinə layiqli bir əlavə gətirə bilmişdir.

* * *

Hansı istiqamətdən baxmağımızdan asılı olmayaraq, Rəşad Məcid daha çox mətbuat aləmindəki geniş fəaliyyəti və publisistikası ilə görünür. Rəşad Məcidin publisistikası onun nəsri ilə jurnalistikası arasındakı xüsusi bir yaradıcılıq hadisəsidir. O, nasirlik xatirinə publisistikadan məşq kimi istifadə etmir. Publisistikası Rəşad Məcidin jurnalistikasının inkişafının daha yük-sək mərhələsinin, kamilləşmə çağının əks-sədasıdır. Günün nəbzindən doğan çoxsaylı məqalələr yazmaq meyli Rəşad Məcidin jurnalistika sahəsindəki fəaliy-yətində yoxdur. Jurnalistika fəaliyyəti baxımından Rə-şad Məcid daha çox naşirdir. Rəşad Məcidin Baş redaktoru olduğu «525-ci qəzet» müstəqillik dövrü Azərbaycan mətbuatının inkişafının mükəmməl bir göstəricisidir. «525-ci qəzet» Azərbaycanda ictimai-siyasi mətbuatla ədəbi mətbuatın hər ikisinin funksiyalarını birlikdə daşıyan və yüksək peşəkarlıqla inkişaf etdirən nadir qəzetçilik nümunəsidir. Azərbaycanda bu formatda qəzet azdır. Keçdiyi davamlı inkişaf yolunu nəzərə alaraq, «525-ci qəzet»in yeni jurnalistika məktəbi yaratması haqqında irəli sürülən fikirlərdə gerçəklik mübaliğədən qat-qat çoxdur. Çoxaspektli mətbuat orqanı olan «525-ci qəzet» Rəşad Məcidin Azərbaycan milli mətbuatının inkişafında tarixi xidmətidir. Bununla belə, Rəşad Məcid həm də özünəməxsus publisistikası olan qəzet adamıdır. Publisistikası konkret problemlər ətrafında araşdırmaların və mühakimələrin ifadəsi əsasında formalaşır. Publisistikasındakı analitik təhlil həyatı, prosesləri, insanları daha dərindən göstərməyə, obyektiv nəticələr çıxarmağa şərait yaradır. Ən yaxşı məqamlarda Rəşad Məcidin ayrı-ayrı publisistik məqalələri monoloq kimi səslənir. Publisist Rəşad Məcidin monoloqlarında cəmiyyət həyatının aydın nəbzi döyünür. Müxtəlif illərdə yazılmış «Yeni paytaxt ehtiyacı», «Səfərin təzəsi, dostun köhnəsi», «Əlvida və salam», «Ağ dənizin duzu» və sair kimi publisist məqalələri müasir cəmiyyətin doğurduğu konkret məsələlər ətrafında müşahidələr və mühakimələrdir. Publisistikasında Rəşad Məcidin bir ziyalı-vətəndaş olaraq aydın mövqeyi ifadə olunur. Publisist məqalələrindəki təmkinli və aydın mövqeyə malik Rəşad Məcidlə cəmiyyətdən, gündəlik həyatdan tanıdığımız Rəşad Məcid bir-birini tamamlayır. İctimai-siyasi və ədəbi-elmi mühiti tam olaraq birlikdə görməyi və dəyər-ləndirməyi bacarmaq, daim irəliyə doğru dərk-olunmuş obyektiv baxış Rəşad Məcidin jurnalistika fəa-liy-yətinin və publisistikasının mahiyyətini təşkil edir.

Ona görədir ki, Rəşad Məcidin siyasi publisistikasında da bədiilik var, dərin səmimiyyət ifadə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə 2013-cü ildə iki görüşdə – Milli Mətbuat günündə və dövlət başçımıza «Jurnalistlərin dostu» mükafatının təqdim olunması mərasimindəki çıxışları bir media təmsilçisindən çox yüksək ziyalı – vətəndaş düşüncəsinin təbii və səmimi ifadəsidir. Əgər müəllif «Dəlicəsinə» kitabına «Mətbuat tarixinə yazılacaq bö-yük hadisə» və «Dostluğun böyük nümunəsi» adı ilə daxil etdiyi həmin yazılarının ölkəmizin Prezidenti qar-şısındakı çıxışları olduğunu qeyd etməsəydi, bu mətnləri müraciət, xitab üstündə qələmə alınmış əhəmiyyətli publisistika nümunələri kimi qəbul edərdik. İndiki halda da həmin yazılar həm Rəşad Məcidin yetkin ictimai baxışlarını, həm də siyasi publisistikasının özünəməxsusluqlarını dolğun şəkildə ifadə edir. Bu yazılar əlamətdar tarixi günlərdəki aydın ziyalı dünyagörüşünü ifadə edən çıxışların mətni olmaqdan baş-qa, daha çox ölkənin inkişafı və gələcəyi haqqında si-yasi-publisistik düşüncələr səviyyəsində səslənən analitik baxışların mətbu əks-sədasıdır. Bu çıxışlar, eyni zamanda dövlət və mətbuat münasibətləri haqqında aydın təfəkkürlə deyilmiş ürək sözləridir. Hər iki çıxışda Rəşad Məcid publisistikasının xarakterinə uyğun olaraq həm də bir çox problemlərə toxunulmuş, cəmiyyəti düşündürən mətləblərə münasibət bildirilmişdir. «Jurnalistlərin dostu» mükafatının təqdim olunması mərasimindəki

çıxışda Rəşad Məcidin bir çox ictimai-siyasi məsələlərlə yanaşı, «dostluq nə-dir» sualı ətrafındakı düşüncələri də cəmiyyətşünaslıq görüşləri səviyyəsində ümumiləşir: «Dostluq barədə düşündüm, müdriklərin fikirlərini xatırladım ki, dost-luq nədir, necə olmalıdır? Düşündüm ki, dostluq insanın gözləmədiyi çətin bir məqamda hayına yetmək, qeybdən var olan kimi onun hansısa bir problemini həll etməkdir». Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cəmiyyət həyatının mü-hüm bir istiqamətinin inkişafı ilə bağlı həyata keçirdiyi islahatlar, bu sahədə çalışanların həyatının dəyişməsi yollarında atdığı böyük addımlar ölkə rəh-bərinin həm də mətbuat işçilərinə əsl dostluq münasibəti bəsləməsinin örnəyi kimi mənalandırılmışdır. Bu isə nəticə etibarilə dövlət başçısının bütövlükdə həm də öz xalqı-nın dostu olması haqqında ümumiləşmiş qənaətlərdir. Beləliklə, «dostluq nədir» sualına verilən cavabı da dərin mənəviyyat meyarları ilə siyasi faktorlar üzvi surətdə biri-digərini tamamlamışdır. Bu öz növbəsin-də Azərbaycan siyasi publisistikasının yeni keyfiyyəti kimi də təzahür edir.

Bu mənada «İdarəçilik Akademiyasında jurnalistika dərsi» məqaləsində «yaxşı nədir, pis nədir» sualına ver-diyi şərhlər həmin sualların cavabını almaqdan başqa, həm də Rəşad Məcidin mətbuata, publisistikaya, əslində, bütövlükdə həyata münasibətindəki sabit və aydın mövqeyi dolğun şəkildə əks etdirir: «Yaxşı nədir, pis nədir» sualının cavabına toxunmuşkən qeyd edim ki, əslində, istənilən məsələyə ən azı iki yanaşma var. Cəmiyyətdən özünü təcrid edən, ətrafında baş verənlərə biganə yanaşan insanlar, adətən, bu seçimdə daha asan olana – mənfi çalara, neqativə üstünlük verirlər. Yaşadığı topluma, onun problemlərinə laqeyd qala bilməyənlər, lokal yox, mümkün qədər qlobal görünən, ölkəsinin, Vətəninin işıqlı gələcəyini arzulayanlar isə mənfilikləri görüb qeyd etməklə yanaşı, cəmiyyətdəki müsbət tendensiyaları da qabartmağa, ətrafına pozitiv baxmağa çalışırlar».

Rəşad Məcidin «Dövlət İdarəçilik Akademiyasında növbəti dərs» məqaləsi də cəmiyyət və vətəndaş münasibətlərinin dərinliklərini açan əhəmiyyətli pub-lisistika nümunəsidir. Bu, Rəşad Məcidin silsilə şeirlər yazdığı kimi, həm də publisistika silsiləsi yaratmaq istedadının növbəti addımıdır.

«İdarəçilik Akademiyasında jurnalistika dərsi» məqaləsi müstəqil dövlətçilik təfəkkürünün işığında ziyalı-vətəndaş mövqeyinin parlaq publisistikasıdır. Bu məqalə indiki tarixi mərhələdə dövlət və mətbuat, ziyalı və cəmiyyət münasibətləri haqqında ümumiləşmiş yekun qənaətlərdir. Bütün bunlar Rəşad Məcidin yazıçı kimi də, «525-ci qəzet»in baş redaktoru kimi də, ziyalı olaraq da əməli və sözü ilə birlikdə reallığıdır.

Şeirin də, hekayənin də qiymətinin kəmiyyətdə yox, bədii dəyərdə, keyfiyyətdə olduğunu isbat edən Rəşad Məcidin publisist əsərləri də dövri mətbuatda təqdim olunan çoxsaylı yazılar arasında görünən və seçilən, oxunan və qalan publisistika nümunələridir. Bun-dan başqa, «525-ci qəzet» vasitəsilə Azərbaycan-da publisistikanın yeni nəslinin formalaşdırılmasına açdığı geniş meydan, verdiyi böyük dəstək də yaradıcı jurnalistikanın inkişafı yollarında izi qalacaq hadisədir.

* * *

Rəşad Məcid ədəbiyyat haqqında görüşlərini, ədəbi prosesin gedişatına dair baxışlarını da geniş ictimaiyyətə çatdırmağa önəm verir. Bu məqamda o, daha çox «yazıçı tənqidi»nin tanınmış nümayəndəsi və esselər müəllifi kimi diqqəti cəlb edir. Rəşad Məcidin «Doğma adamın «Köhnə və təzə Bakı» nağılı», «Hamıya çatası işıq», «Gördüyüm ilk diri şair», «A» romanı», «Şair və nasir Fəhmi», «İki 5», «Ləqəbi Ağsaqqal» məqalələri esse janrında yazılmış ədəbiyyata dair maraqlı yazıçı düşüncələridir. O, müasiri olduğu yazıçılardan, qələm əhlindən bəhs edəndə, qiymət verəndə ədalət hissini, obyektivliyi qoruyub saxlayır. İnandığı məsələlərdə yazıçıları müdafiə etməyi də özünə mənəvi borc sayır. Bir sıra yazılarında isə Rəşad Məcid özü də fərqində olmadan ədəbiyyatşünaslıq qabiliyyəti nümayiş etdirir. «Əsəd bəy və Nuridə xa-nım» adlı genişhəcmli məqaləsində o, haqqında mü-ba-hi-səli fikirlər mövcud olan məşhur «Əli və Nino» ro-ma-nı-nın müəllifi Qurban Səidin kimliyi məsələsini müəy-yən etmək üçün yazıçı-ədəbiyyatşünas mövqeyini meydana qoyur. Qurban Səid – Məhəmməd Əsəd bəy məsələsi

ətrafında irəli sürülmüş fərqli mü-la-hizələri diqqətlə təhlildən keçirərkən Rəşad Məcid yazıçıdan çox ədəbiyyatşünas səriştəsi göstərir. Onun Qurban Səidin Məhəmməd Əsəd bəyin gizli imzalarından biri olması haqqındakı qənaətləri illərdən bəri davam edən mübahisəli məsələnin obyektiv həllinə doğru atılmış əhəmiyyətli addımdır: «Fikrimcə, ötən əsrin sonlarında Yusif Vəzirin oğlanlarının təkidi və on-lara dəstək verən bəzi alimlərimizin yanlış mövqeyi Əsəd bəyin Azərbaycanda tanınmasına mane olub və bu böyük yazıçının hüquqlarının tapdanmasına gətirib çıxarıb. Yazıçılar Birliyi və Kinematoqrafçılar İttifaqı rəhbərliyinin Yusif Vəzir Çəmənzəminlinin oğlanlarıyla birlikdə (görünür, onların təkidi ilə) imzaladıqları «Əli və Nino»nun əsl müəllifinin Çəmənzəminli olması barədə «Azərbaycan mədəni icti-maiy-yətinə müraciəti» də yanlış addım olub. Şübhə yoxdur ki, Əsəd bəyin əsərləri ölkəmizdə vaxtında dərc olunsaydı, bəziləri bu yanlış mövqedən vaxtında geri çəkilərdilər. ...Yusif Vəzirin övladlarının və bəzi alim-lə-rimizin yersiz inadkarlığı həqiqətin bir müddət qaranlıq qalmasına səbəb olsa da, «sirrin» nə vaxtsa açılacağı aydın idi».
«On il əvvəlin toplusu» adlı özünün «Hələ ki vaxt var» kitabına yazdığı önsöz yazıçı tənqidindən çox, cəmiyyət və ədəbiyyat məsələləri haqqında ədəbi-fəlsəfi baxışlardan ibarətdir. Digər yazılarında da Rə-şad Məcid ədəbiyyatı cəmiyyətdə gedən proseslərlə vəhdətdə təhlil edir. Onun üçün ədəbiyyat və mətbuat Azərbaycan cəmiyyətinin üzvi tərkib hissəsidir, cəmiyyəti qabağa aparmaq üçün əsas vasitələrdən biridir. Bütövlükdə Rəşad Məcidin ədəbiyyat haqqında görüşləri müstəqil Azərbaycanın böyük ədəbiyyatının daha da inkişaf etdirilməsində üzərinə düşən missiyanın bu yönümdən ifadəsidir.
«10 il əvvəlin toplusu» həm də Rəşad Məcidin bir yazıçı şəxsiyyət kimi avtoportretidir. Bu essedə bədii yaradıcılığa yenicə başlayan gənc şair və zaman məsələsi notları vasitəsilə Rəşad Məcidin avtoportretinin əsas cizgiləri öz əksini tapmışdır: «İlk şeirimi haçan yazdığımı fikirləşəndə özümü yazağzı dördmərtəbəli binanın ikinci mərtəbəsində yerləşən evimizin dəmir çərçivəli pəncərəsindən baxan görürəm. O pəncərədən tumurcuqlayan ağaclar görünürdü, bir az aralıda qarlı dağlar görünürdü. Onda mənim – 8–9 yaşlı uşağın o darısqal evdən həyatə, genişliyə çıxmaq istəyim hədsiz idi. Yadımdadır, yaz haqqında, meşə, dağ haqqında olan ilk misralarımı da məhz onda qoşmuşdum.
…İlk şeirim 1981-ci ildə mərhum Xalq şairimiz Hü-seyn Arifin «Uğurlu yol»u ilə o vaxt məşhur olan «Azər--baycan gəncləri» qəzetində dərc olundu. Ondan sonra sənət adamlarıyla yaxınlaşmağa başladım.
…Müxtəlif mətbuat orqanlarında çıxış etdim. Özü-mü, gələcək həyatımı şeirdən, ədəbiyyatdan uzaq düşünmürdüm… Amma bizim bəxtimizə başqa bir həyat, dövr qismət oldu. Nəhəng bir dövlətin parçalanmasının şahidi olduq. Harmoniya pozuldu. …Hesablanan ölçülər, planlar dağılmağa başladı. Və ara-sıra nağıl kimi ağlımıza gətirdiyimiz bir xəyal gerçəkləşdi. Biz müstəqil Azərbaycan dövlətinin vətəndaşı olduq.
…Həyatımızda baş verən bir sıra faciəvi hadisələrdən sarsıldım. Sonra Xocalı hadisəsi. Şuşanın işğalı isə bütün mənəviyyatımızı alt-üst etdi.
Bu toplunun adı elə on il əvvəl fikirləşdiyim kimi «Hələ ki vaxt var» qaldı. Belə fikirləşirdim ki, mənim, yəqin ki, yeganə şeir toplum olacaq bu kitab bizim necə, nə ilə yaşadığımızı az da olsa, gələcəyə çatdıracaq. O şeirlərdəki arzularımızın gerçəkləşəcəyi, mən-cə, xülya deyil».
Dəyişən dünyanın və böyük ictimai-siyasi mühitin fonunda Rəşad Məcidin avtoportretini təqdim edən bu mənalı və düşündürücü essedə oxşar taleyə malik bütöv bir ədəbi nəslin avtoportreti canlandırılmışdır.
Azərbaycanda Rəşad Məcidin həyatı və yaradıcılığı haqqında görkəmli ədəbiyyat və elm xadimləri maraqlı yazılar yazmış, onun yaradıcılığına və dünyagörüşünə, çoxcəhətli fəaliyyətinə yüksək qiymət vermişlər. Bəxtiyar Vahabzadə, Anar, Elçin, Məmməd Araz, Hüseyn Abbaszadə, Şirməmməd Hüseynov, Elmira Axundova, Əflatun Amaşov, Ramiz Rövşən, Vaqif Yusifli, Cahangir Məmmədli, Aqil Abbas, Afaq Məsud, Bəsti Əlibəyli, Esmira Fuad və başqalarının məqalələrində, məruzələrində, məktublarında, rəylərində Rəşad Məcidin çoxcəhətli yaradıcılığı müxtəlif istiqamətlərdən təhlil edilib dəyərləndirilmişdir. Müəl-limlərinin və müasirlərinin Rəşad

Məcidin yaradıcılığı haqqındakı fikirləri onun böyük ədəbiyyatda və cəmiy-yətdə qazandığı mövqeyi daha əyani şəkildə təsəvvür etməyə imkan verir.

«Əzizim Rəşad! Mənə görə hekayənin («10 sentyabr» hekayəsinin – İ.H.) tapıntısı əliboş qalan sü-rü-cünün dostlarına boyun olduğu qonaqlığı verməsidir. Bax, bu yerdə sən məhz Azərbaycan xarakteri yaratmısan. Bu, yüz faiz bizə xas olan tipik hərəkətdir. Bir sözlə, hekayən müxtəlif fikirlərə və yozumlara əsas verirsə, deməli, doğrudan da, yaxşı əsər yazmısan».

**Anar,**
**Xalq yazıçısı**

«Rəşad istedadlı şairlərimizdən biridir və səhv etmirəmsə, bu hekayə («10 sentyabr» – İ.H.) onun ilk nəsr əsəridir. Mən bu hekayəni Rəşadı böyük nəsrə apara biləcək yolun uğurlu başlanğıcı hesab edirəm».

**Elçin,**
**Xalq yazıçısı**

«525-ci qəzet»in baş redaktoru Rəşad Məcidi gö-zəl şair kimi tanıyıram. Şeirlərini oxuyub yüksək qiymətləndirmişəm».

**Bəxtiyar Vahabzadə,**
**Xalq şairi**

«Belə oğullar lazımdı… Vətənpərvər, ziyalı, dövlətçiliyimizi sevən, dövlətçiliyimizi qorumaq üçün canından keçə bilən oğullar. Rəşad belə oğuldu».

**Məmməd Araz,**
**Xalq şairi**

«Artıq müəyyən vaxtdı ki, «525-ci qəzet» nəsə özüm də hiss etmədən, amma möhkəm şəkildə mənim gündəlik mütaliəmə daxil olub. ...təməlindən bu qəzet ictimai-siyasi nəşr kimi nəzərdə tutulsa da, onun ədəbi-publisist tərəfi xüsusilə maraqlıdı. ...Siyasiləşmiş jurnalistika nümayəndələrinin qənaətincə, ədəbiyyat oxucuları qəzetdən qaçırmalıymış. Amma ək-sinə alındı: demək olar ki, bütün səhifələri poeziya, nəsr və publisistikanın ixtiyarına verilmiş şənbə sayı ziyalı çevrəsində heç vaxt olmadığı qədər tələbatlıdı».

**Elmira Axundova,**
**yazıçı-publisist**

«Lap cavan vaxtından,… «525-ci qəzet»i yaradan Rəşad Məcid… onu bütün Azərbaycan ziyalılarının qəzetinə çevirə bildi… Bu gün müstəqil media sırasında «525-ci qəzet» ilk sırada durur.
…Rəşad Məcid bu günün ziyalı modelidir».

**Cahangir Məmmədli,**
**filologiya elmləri doktoru, professor**

«Aydınlıq. Sadəlik. Sadəlikdə ciddilik. Və realizm. Bu dörd ünsürün vəhdəti Rəşad Məcid nəsrinin qısa formulasıdır».

**Bəsti Əlibəyli**

«Rəşad Məcidin «10 sentyabr» hekayəsi məhz bu günün reallığını gözlərimiz qarşısında canlandırır. Hekayənin qəhrəmanı keçid dövrünün ağrı-acılarını öz taleyində yaşayan müasirimizdir.
…«10 sentyabr» hekayəsi təhkiyə tərzi etibarilə maraqlıdır, oxucunu ələ ala bilir, novellaçılıq üslubu ilə seçilir. Ancaq bu hekayənin ən önəmli cəhəti həqiqəti heç bir yalan demədən, ona heç bir boya vurmadan olduğu kimi təsvir etməkdir».

**Vaqif Yusifli,**
**filologiya üzrə elmlər doktoru**

«Rəşad! «10 sentyabr» hekayəni oxudum… Elə bir fəndlə bütün bunları demisən ki, atamın goru haqqı Dostoyevski belə deyə bilməzdi. …Var ol! Ə, sən yazıçıymışsan, xani xərab! Yaz belə şeyləri də!»

**Aqil Abbas**

Filologiya elmləri namizədi Yaşar Qasımbəylinin «İlk lirikanın cazibəsi» kitabı (2012) Rəşad Məcidə həsr olunmuş birinci elmi-tədqiqat əsəri kimi əhəmiyyətlidir. Türkiyədə 2014-cü ildə nəşr edilən «Qardaş qə-ləm-lər» jurnalında Rəşad Məcidin həyatı və yara-dıcılığı haqqında bir neçə məqalənin çap olunması mühüm hadisədir və onun ədəbi fəaliyyətinə olan marağın əhatə dairəsinin genişləndiyini göstərir. Bütün bunlarla bərabər, fikrimcə, Rəşad Məcidin yaradıcılığının bütün sahələrini əhatə edən və onun çoxcəhətli fəaliyyətinin özünəməxsusluqlarını açan ümumiləşdirici bir elmi əsərə ehtiyac vardır. Rəşad Məcidin zəngin və çoxcə-hətli yaradıcılığı Azərbaycanın müstəqillik dövrü poe-ziyası, nəsri və publisistikası haqqında geniş və dərin təhlillər aparmaq, ümumiləşdirilmiş nəticələr çıxarmaq üçün tam əsas verir.
Ümumiyyətlə, Rəşad Məcid bir ədəbi şəxsiyyət olaraq bütün yönləri ilə yaradıcı olan, axtarışlarının ardıcıllığı və bədii təfəkkürünün orijinallığı və genişliyi ilə fərqli görünən kamil və professional bir Azərbay-can ziyalısıdır. Müstəqillik dövrü Azərbaycan ziyalılığının fəal vətəndaşlıq mövqeyi, aydın milli düşüncəsi, açıq və yetkin yaradıcı təfəkkürü  Rəşad Məcidin simasında ümumiləşə bilir. Azərbaycan Yazıçılar Birliyinin katibi kimi də Rəşad Məcid böyük ədəbiyyatın və yeni yaradıcı nəslin inkişafına şərəflə və məsuliyyətlə xidmət edir. Azərbaycan Yazıçılar Birliyinin katibinin funksiyaları ilə «525-ci qəzet»in baş re-dak-torunun imkanlarının birlikdə yeni dövr milli ziyalılığının, xüsusən də gənc ədəbi nəslin inkişafına bütün genişliyi ilə açılması, istiqamətlənməsi müstəqil dövlətçiliyimizə xidmətin reallıqlarıdır. Bu mənada yazıb-yaratdığı əsər-lər, formalaşmasında rolu, zəhməti olan yeni yaradıcı ziyalı nəsil, təmkinli bir axarla davam edib zənginləşən işıqlı tərcümeyi-halı ömrün çağlayan dövrünün mənalı və əhəmiyyətli bir hesabatıdır. Şeirlə bədii yaradıcılığa başlayan və izlər salan, jurnalistika və publisistika ilə cəmiyyətin inkişafına məsuliyyətlə xidmət edən, nəsr-də öz möhürü olan Rəşad Məcidin çoxcəhətli ədəbi-təşkilati fəaliyyətinin sanballı hesabatı onun bundan son-rakı yaradıcı həyatının möhkəm təməlləri və mü-hüm hərəkətverici qüvvəsidir. Rəşad Məcid ölkəsinin və millətinin daha böyük inkişafı istiqamətində həyatının və yaradıcılığının müdriklik çağının möhtəşəm Romanına doğru (təkcə janr mənasında yox) təmkinlə və səmimiyyətlə yol getməkdədir. And kimi qürurla səslənən «Bayrağım» adlı şeirində yazdığı aşağıdakı misralar Rəşad Məcidin məqsədinin, məramının, mübarizəsinin güzgüsüdür:

Zaval yox indən belə.
Başımın üstündən
Qoymaram yerə.
Sənə təşnəyəm – acam –
Əlim-qolum yorulsa,

Dişimlə saxlayacam.
Gücü çatmaz
Daha nəsə tərpədə,
Kimsə əyə.
Dalğalan, əs,
Açıl yelkən kimi
Gedək gələcəyə!

Bu böyük qayə aydın, işıqlı və mənalı bir amalın poetik ifadəsi, gerçək bir vətəndaşlıq duyğusunun bədii əks-sədası, müəyyən olunmuş həyat yolunun mühüm bələdçisidir.

**İsa Həbibbəyli,**
**akademik**
**avqust-noyabr, 2014-cü il**

## Bayrağım

Səni ən çətin
günlərimdə qorudum,
beynimə həkk edib
ürəyimə sarıdım.
Mahnımda,
nəğməmdə gizlədim.
Aya baxıb xatırladım,
ulduzunu sevdim.
Üç rənginə öyrəndim,
hər üzünü sevdim.
Hücumdan, həmlədən qorudum,
küləkdən, tufandan keçirdim,
Bir gün qaldırdım başımın üstünə,
Saxladım,
əymədim.
Zaval yox indən belə,
başımın üstündən
qoymaram yerə.
Sənə təşnəyəm, acam –
əlim-qolum yorulsa,
dişimlə saxlayacam.
Gücü çatmaz
daha nəsə tərpədə,
kimsə əyə…
Dalğalan,
əs,
açıl yelkən kimi
gedək gələcəyə!

### Xilaskarım

Bu şeir 2011-ci il oktyabrın 5-də Ankarada «Riksos» otelində, gecəyarısı, Yəsəvi Universitetinin bloknotuna yazılıb. Bu şeirin ünvanının, həqiqətən, siqaret olduğuna indinin özündə də əmin

deyiləm. Amma siqaret bu və bundan sonrakı – artıq sayını da dəqiq bilmədiyim – şeirlərin yazılmasında mənə sadiq yoldaş olduğuna görə «Xilaskarım»ın ünvanını dəyişmədim.

Sən – dərdin qənimi!
Sən – qüssənin cəlladı!
Sən – ağrıların keyidicisi!
Sən gerçək – yalan,
artan, çoxalan,
yüzə, minə vurulan
bəd xəbərlərin qovucusu!
Valerianım!
Korvalolum!
Validolum!

Sən – ən kədərli anımın sirdaşı,
ən kefli halımın yoldaşı!
Sən olmasaydın,
canıma mikrobtək
düşən,
qanıma işləyən
bu fəlakət virusları,
bu ölüm epidemiyaları,
bu bəd xəbərlər
çoxdan yayılmışdı
beynimin hər küncünə,
ürəyimin içinə!
Sən saxladın onu damarlarımın divarlarında,
beynimin qapaqlarında!
Qoymadın yayılmağa!
Boğazımdakı qəhərdən qalxıb
beynimdə insulta,
ürəyimdə infarkta keçməyə qoymadın!

Sən, ən böyük rahatlığım!
Ona görə yeyirəm ki,
dadına dad artıracaq!
İçirəm ki, səni şirinləşdirəcək!
Ən uzun öpüşlərim
sənnəndir!
Dırnaqlarım dayanmır, sığallayır
tellərinin ucunu...
Sənə görə yeriyir,
sənə görə gəzirəm!

Səhər tezdən yanındayam –
bir qurtum su ilə,
bir qaşıq balla!
Axşam səninlə bağlanır göz qapaqlarım!
Xilaskarım!

Kimdi səni anlayan –
barmaqla sayılan azlar!

Çörəyi dizinin üstə olan
ətəyindən tutub qalxan
sonra səni söyən,
tapdalayan dayazlar,
anlamazlar!
Amma ən çətin anlarında
barmaqlarını aralayıb –
birin ver – deyərlər!

Üstünə yüyürür bəşər!
Səni göydələnlərdən çıxarıb
bomj kimi
qapı ağzına atırlar,
təyyarələrdən,
otellərdən qaçaq salırlar!
Səni hava limanlarında bir küncə sıxdılar,
Səni qatarlarda
ən kirli vaqonlarda qapatdılar!
Dözdün, dayandın!
Sakit baxdın!

Üstünə yüyürdü
Qanunlar, yasalar!
Orda onun, burda bunun bəyanatı!
Birinin gur,
birinin yumşaq səsi.
Bizdə də Qənirə xanımın qanun layihəsi!
Qapalı alanlar!
«No smokinq»lər,
«Ne kurit»lər,
«içiləməz»lər,
«çəkmək olmaz»lar!

Sən olmasaydın,
bəşər uşaqlıq çağında qalmışdı hələ!
Sənsən dünyanın ən böyük kəşfi,
ən böyük kəşflərin cığır açanı!
Ən gözəl musiqinin,
ən ilahi sözün qanad verəni!
Yarım gün
ayrı düşəndə səndən
gizildəyir damarlarım,
çığırışır hüceyrələrim!
Sakitliyim,
rahatlığım,
süstlüyüm!
həm də
Coşqum,
üsyanımsan!

Hava limanlarında
ziyarətə gələntək

sıxışdırıldığın
balaca otağa
tələsir
3–5 saat sənsiz qalan
insanların ağı-qarası,
qocası-cavanı...
Sənsən susduran acı söhbəti,
durduran qəliz davanı

Dünən on adama ağız açdım
qapısında «içiləməz» yazılan odamda
sənə bir tabaq tapılanacan!
İncimə, küsmə!
Bu şeirdi mənim sənə
təşəkkürüm, sədaqətim!
Tütünüm!
Nikotinim!
Tüstüm!
Siqaretim!

## Yazdırır

Olsun ki, şeiri Allah adama
Yaşadıb ömründə tufan yazdırır.
Birinə Məsnəvi, birinə Xəmsə,
Birinə sevgidən roman yazdırır.

Birinə yetmişə yaxınlaşanda
Bir ulduz yollayır ömrün qışında.
Qoyub cavabların axtarışında,
Eyləyib sunami, boran yazdırır.

Mənə də lütf edib öz kərəmini
Yenidən yolladı öz qələmini,
Yaşlı gözlərimin silib nəmini,
Oturdub diz üstə dastan yazdırır.

Tanıdım üzünü, duydum rəngini,
Hiss etdim göylərin bu ahəngini.
Ardarda düzülən söz çələngini –
Özüm yazmıram ki, yazan yazdırır.

**11.10.2011**

## On gün

Əzab verib düz on gün,
On gün də əvəz verir!
Hislərini yazmağa
İlahi nəfəs verir.

Yanına qaldırıbdı,
Uca buludlardasan!

Boylan, bir də bax indi,
Anla, bir gör hardasan?

Bu işığın içində,
Az zamanın var sənin!
Çox da yuxarı qalxma
Ruhlar aparar səni.

İlahi qüdrətini
Bax, göndərir yazmağa.
Cəmi onca günün var
Yüz on şeir yazmağa!

## İki il öncə

İlahi tərəfə yol alacağım,
Yuxuma gəlməzdi iki il öncə.
Onu ki Allahım bəxşiş eylədi,
Yaxına gəlməzdi iki il öncə.

Qarşımda yox idi belə ucalıq,
Durub gözləyirdim – gəlir qocalıq.
Çayından ayrılan bu qızıl balıq,
Arxına gəlməzdi iki il öncə.

Üzdüm tərs tərəfə, axına deyil,
Baxdım uzaqlara, yaxına deyil.
Gördüm ki, bu xına o xına deyil,
Bu xına gəlməzdi iki il öncə!

Ömrün hər məqamı olmur ki dərin,
Üzürəm içində neçə dərd-sərin,
Qarşıda yaşayıb-görəcəklərim
Ağlıma gəlməzdi iki il öncə.

## Yaxşı

Günlərdən bir adi gün idi,
sonra tarixə çevrildi.
Yaxşımı? Yaxşı!
Üstü torpaqlanmış köhnə duyğular
yenidən dirildi.
Yaxşımı? Yaxşı!

Sakit baxışlarda – tufan coşması,
Qəzəbli gözlərin salamlaşması,
Bu incə, bu dərin söz sataşması,
havayı deyildi.
Yaxşımı? Yaxşı!

Bu gizli çarpışma, bu səssiz döyüş,
Nə bir xoş təbəssüm, nə bir şux gülüş.

Sonra bilinəcək bu qısa görüş –
bir tufan, bir seldi.
Yaxşımı? Yaxşı!

## Dondum

Gördüm ürək yıxan baxışlarını,
Bu hay-küy içində, bu gur axında.
Tərpənə bilmədim, dinə bilmədim
Dondum bir otelin çıxacağında.

Niyə daşa döndüm, niyə buz oldum? –
Xəbəri olmadı solun, sağın da.
Yapışıb divara söykəli qaldım,
Dondum bir otelin çıxacağında.

Getdi məğrurluğum, itdi şuxluğum,
Ömrümün nəşəli, çılğın çağında.
Dəyişən havanın xoş mehi vurdu –
Dondum bir otelin çıxacağında.

Beləcə başladı dərd də, sevinc də,
Mənim bu qarışıq həyat bağımda.
Bir tilsimə düşdüm heyrət içində,
Dondum bir otelin çıxacağında.

## Gərək

Mən niyə gedirdim, niyə dönmədim,
Niyə qayıtmadım geriyə, Allah?
Bəlkə indi buna cavab verəsən,
Bəlkə cavabından kiriyəm, Allah!

Bəlkə də bu qədər arxayın olub
Mənə güvənməkdə səhv eləmişdin?
Sən məni bir otel həndəvərində,
Yenidən yaradıb məhv eləmişdin.

Gərək gözləyəydin sonacan məni,
Gərək buz donumu sən tez açaydın.
Gərək zamanında ardına düşüb,
Yüyürüb o tinə doğru qaçaydım.

Bəlkə dəyişərdi çərxi fələyin,
Bu qəfil əzabı çəkməzdim onda.
Sənin zərrə-zərrə yaratdığını,
On günün içində sökməzdim onda.

Bəlkə günahkardım, əvəz çıxırdın,
Həm kədər, həm sevinc bəxş eləyirdin.

Bəlkə də sən o gün həm şux, həm də ki
Kədərli bir nəğmə bəstələyirdin?

«Yazacaq» deyirdi dayanıb tində,
Sənsə yollarımı haçalamışdın.
Sən məni o tindən uzaqlaşdırıb,
Xoşbəxt günlərimi parçalamışdın.

Sən bilən ən doğru qərardı, Allah,
Sən verən qismətə şəkk eləməzlər.
Şükür verdiyinə, sevinclə dərdi
Bir yerdə yaratdın axıra qədər.

## Yaddaşımı sil

İlahi, sən mənim yaddaşımı sil,
İlahi, sən mənə bir sovqat eylə.
Bilgisayar kimi, telefon kimi
Beynimi təzələ, ya format eylə.

Yerit yaddaşıma antivirusu,
Qır bu qurd püskürən həşəratları.
Çıxar hamısını yaxşılı-pisli
Lap başdan, sıfırdan başlayım barı.

Bəndənə rəhm edib bir də düşünsən,
Yenidən yaratsan məni, ilahi!
Lütfünü yenə də əsirgəmə gəl,
Çıxar qabağıma onu, ilahi!

Yenə də Cənnəti Yerə gətirib,
Yenə də göylərdə yaşatsın məni!
Yenə də aldatsın, yenə də atsın,
Yenə əzab versin, ağlatsın məni.

Bircə taleyimi başdan yazanda
Məni onsuzluğa düçar etmə sən!
Məni susuz dodaq, çiçəksiz bahar,
Məni kilidi yox açar etmə sən!

## Kimsən?

Sən kimsən, hardan gəlmisən,
İblismisən, mələkmisən?
Dediyin nə, etdiyin nə,
Doğrumusan, kələkmisən?

Bu gəlişin, bu gülüşün,
Bu öpüşün mənimdimi?
Qara gözün, uzun saçın,
Bu ağ dişin mənimdimi?

Kim sənə şübhə eləyər,
Kim sənə yanakı baxar?
Bu duruluq, bu saflığa,
Kim səhv edib qara yaxar?

Bircə sənin hər sirrini,
Hər sehrini bilən mənəm.
Sevə-sevə qucağında
Qəzəbindən ölən mənəm!

**Təkcə sözlərindən...**

Hələ sevgiylə baxan gözünü,
hələ işıqla dolu üzünü,
hələ sevincdən açılan qollarını,
hələ yellənən qapqara saçlarını,
hələ göz qamaşdıran
ağappaq dişlərini,
hələ titrədən varlığını,
jestlərini demirəm.
Təkcə sözlərindən
bayılmaq olar!

**Gedib daşa
dəyən SMS-lərim...**

Belə olmalıymış, yəqin ki, belə,
Gücüm yox bu çarxı geri döndərim.
Sənə hislərimi çatdırammadı
Gedib daşa dəyən SMS-lərim.

Soyuq sözlərinlə qayıtmasaydı,
Gülsəydi üzümə yeni səhərim.
İndi heç bu qədər əzab verməzdi
Gedib daşa dəyən SMS-lərim!

Zamanı dəyişər, yolu göstərər,
İçimdə qalmazdı bunca qəhərim.
Bəlkə də, bir başqa tale cızardı
Gedib daşa dəyən SMS-lərim.

Altını çəkirəm soyuqluğunun,
Sənin hallarından yoxdu xəbərim.
İndi sənidəmi yandırır görən
Gedib daşa dəyən SMS-lərim?

Gəl bunu yenə də taleyə yazaq,
Biz çəkə bilmərik belə qədəri.
Hüznlə, kədərlə qayıdıb anaq,
Gedib daşa dəyən SMS-ləri...

**Mümkünsüzlük**

Səni qram-qram yeyəcək bu hiss,
Səni zərrə-zərrə məhv eləyəcək.
Səni yaşamağa qoymayacaq o,
Yaxandan yapışıb silkələyəcək.

Ən xoşbəxt anında birdən görünər,
Tüstünü təpəndən çıxarar qəfil.
Coşqulu nitqində kəkələyərsən,
Sözlərin dilində burxular qəfil.

Bəlkə,  vodka ilə, ya şərab ilə
Bir günlük, on günlük keyidərsən də.
Adamlar içində gülüb-danışıb,
Zarafat içində əridərsən də.

Elə bilərsən ki, unutdun daha,
Daha üzməyəcək səni o ağrı.
Qəfil görərsən ki, dayanıb tində,
O tanış küçədən səni çağırır.

Heç qaça bilməzsən onun əlindən,
Bu doğma şəhərdən getsən də belə.
Bütün beynindəki xatirələri
Təzə sevgilərlə ütsən də belə.

Ölüm yatağında son damla yaşla
Süzülüb cismindən getməyənədək.
Bu hiss qram-qram yeyəcək səni,
Səni zərrə-zərrə məhv eləyəcək.

## Söz oyunu

Başlayanda macəradı,
Dəcəllikdi, zarafatdı.
Bir də gördün ciddiləşdi,
Yaxın gəldi addım-addım –
          söz oyunu.

Söz-sözə söykək olanda,
Ürəklər kövrək olanda
Ağlı başdan çıxaracaq,
Düşünmə ki, bir yalandı
          söz oyunu.

Qaydası yox, düsturu yox,
Yüz yerə aparar səni.
Orbitindən aralayıb,
Oxundan qoparar səni
          söz oyunu.

Kimində qulaqda bitər,

Kimində yataqda bitər.
Çox dalsan dərinliyinə
Bu qara torpaqda bitər
söz oyunu.

## Yazmağa nə var ki...

O sənə göylərdən gələn ruh kimi
İşıq bağışlayıb, nur bağışlayıb.
Soyuq vücuduna təlaş gətirib,
Sönən gözlərinə qor bağışlayıb.

Görmədin onuntək sirri-xudanı,
Adlayıb bu ahıl yaşına gəlib.
Gör neçə röyanı gerçəkləşdirib,
Yuxuna gələnlər başına gəlib.

Ömür varağını qatlayan zaman
Saxlayıb, bir təzə həyat yaşadıb.
Sənə duymadığın Cənnət qoxusu,
Sənə bilmədiyin bir dad yaşadıb –
Yazmağa nə var ki, sənin halını.

Sən mənim halımı görəsən gərək,
Görən çəkdiyimə dözə bilərsən?
Mənim boğazıma çıxan dənizin
Ən dayaz yerində üzə bilərsən?

Bu cızdağı çıxan xatirələri
Söyləsəm bir sapa düzə bilərsən?
Sənə zülm verən, gözdağı verən
Qaynar cəhənnəmə bir də gələrsən?
Yazmağa nə var ki, sənin halını,
Sən mənim halımı yaza bilərsən?

## Getmək

Orda dayanmağın nəyinə gərək,
Burda oturmağın nə mənası var?
Gözünü zilləyib uzaq nöqtəyə,
Heykəltək durmağın nə mənası var?

Tapıb bir cavabı sevinən kimi
Yüz-yüz təzə sual yaylıq yelləyir.
Hər yüzün altında min biri yatır
Dolu döyəcləyir, leysan selləyir.

Getmək! – tək xilasın, tək yolun budur,
Getmək bir növbəti yalana kimi.
Yenə «göydən gəldim» söyləyən kəsi

Bir qapı dalında bulana kimi.

## Atmaram səni

Mən heç çürük dişimi çəkdirmirəm,
Səni hara atıram?
**Q.Ağsəs**

Yolumun üstündə hər gün gözləyən
Günəşim, ulduzum, ayım olsa da,
Mənə lütf eləyib, rəhm göstərən
Tanrıdan təzə bir payım olsa da –
atmaram səni!

Qızıl taxt quralar buludlar üstə,
İstə, qışda günəş, yayda qar istə.
Desələr qəlbində hər nə var istə –
atmaram səni!

Yol getdim Hicridən Milada kimi,
Əzildim, sağ çıxdım, duydun səsimi.
Qırram hər cadunu, çətin tilsimi –
atmaram səni!

Yenə zülm etsən də,
Yox olub itsən də,
Sən atıb getsən də,
Atmaram səni!

## Söz

Heç onu bu qədər günahkar, aciz,
İşıqsız görmədim, saxta görmədim.
Dənizə atılan daştək mənasız,
Bu qədər təsirsiz vaxtda görmədim.

«Azərcell»in şablon təbrikləritək
Hamı yollayacaq – yiyəsi yoxdu.
Ən isti kəlmə də çox işlənibsə,
Kəsəri qalmayıb, tiyəsi yoxdu.

Sən sözü dəyərdən elə saldın ki,
Nə desən yalandı sən mənə indi!
Qımışıb baxıram dünən dediyin –
Gözümü yaşardan kəlmənə indi.

## Çarə

Bunun bircə çarəsi var –

Sən bu yolu qısalt, getsin!
Apendisidin, ödün kimi
Çıxart getsin, kəs at getsin!

Üzündəki ziyil  kimi
Kislatanı tök, yandırsın.
Hər gün əzab verməkdənsə,
Bircə dəfə bərk yandırsın.

Aman Allah, bu nə çarə,
Bu nə əlac? – sızıldadım.
İcazə ver bu ağrıdan
Uzaqlaşım addım-addım.

## Eyniyik

Yerinə olsaydım bəlkə özüm də,
Atardım atdığın o addımları.
Keçərdim keçilməz qadağaları,
Sevərdim sevdiyin o adamları.

Qoparıb göydəki ulduzları da,
Onların başına səpələyərdim.
Bir isti kəlməylə, işıqlı sözlə
Məhəbbət, səadət bəxş eləyərdim.

Nə qədər eynidi addımlarımız,
Bəlkə günəş mənəm, bəlkə kölgə sən?
Kişi görkəmində sənəm bəlkə mən,
Cildini dəyişmiş mənsən bəlkə sən?

## Cavabını tapmadığım suallar

Zamanında döyülmədi dəmirin,
Hələ çox su aparacaq xəmirin.
Topalaşıb məni qurdtək gəmirir –
Cavabını tapmadığım suallar.

Biri sönmür, mayak kimi hey yanır,
Üçü burda, beşi orda oyanır.
Gah divandan, gah mətbəxdən boylanır:
Cavabını tapmadığım suallar.

Düşünməkdən yağmalandım, talandım
Bəlkə elə uydurmadı, yalandı?
Belə getsə axirətə qalandı –
Cavabını tapmadığım suallar.

## Getdin

Bütün keçənləri alt-üst elədin,
Bir ümid qalmadı gələcəyə də.

İndi tapınmağa nə kitab, nə din,
Hardasa bir işıq axtarmaq hədər.

Yaxşı nə vardısa, səndə göründü,
Huri də, mələk də sən oldun ancaq.
Bürüdün ömrümü sehrlə, sirlə,
Dörd yanımda təkcə sən oldun ancaq.

Sən məni təklədin, hər kəsdən etdin,
Açdın adamlara savaş dünyada.
Axırda özün də qeyb olub getdin,
Yalqız ulayıram bu boş dünyada.

## Nə biləydin

Tanrı sənə həmin şənbə, həmin gün
İki üzlü tale, qismət yazırdı.
Öz əlinlə beşiyini yellədib,
Öz əlinlə məzarını qazırdı.

Nə xəbərin olacaqdan, olandan,
Açıq qollar nə bilirdin nə deyir?
Nə biləydin göydən gələn mələk var,
Nə biləydin indi kimi izləyir?

Heyran gözlər nə şövq ilə baxışıb,
Nə biləydin nə xəyallar uydurur?
Kimin tale gülümsəyir üzünə,
Kimə görən yaşıl bahar duydurur?

## Neynirdin

Əgər bir nağıl vardısa,
Təzə nağılı neynirdin?
Söz-söz girib ürəyimə,
Alıb ağılı, neynirdin?

O qanadlı kəlmələrin,
Sevgi adlı kəlmələrin,
O xoş, dadlı kəlmələrin
Buysa axırı, neynirdin?

Qurdun pillə-pillə məni,
Ovundurdun dillə məni,
Sökdün qüllə-qüllə məni
Dünyam dağıldı, neynirdin?

## Aldatdın məni

De, mən sənə neyləmişdim? –
Balacam, aldatdın məni.
De, haçan düzünü dedin,

De, haçan aldatdın məni?

Mən oldum bir dəli aşiq,
Ruhum ruhuna sarmaşıq.
Bədəndə od, gözdə işıq,
Dildə «can» aldatdın məni.

Nə dur dedin, dayan dedin,
Nə yuxudan oyan dedin,
Sonacan yüz yalan dedin,
Sonacan aldatdın məni.

## Sənə sarı

Sənə sarı əl yellədim,
Gülüşlərimi yolladım,
Son qərarımı qolladım –
Mən sənə baxdım, mən sənə.

Barmaqlarım döyəclədi
Telefonun düymələrin.
Dalınca boylanıb baxdım
Uçub gedən kəlmələrin, –
Mən sənə yazdım, mən sənə.

O arxayın baxışlara
Meyl etmədim, vəd vermədim.
Heç kimsəyə hədd vermədim,
Mən səni tutdum, mən səni.

## Bir azdan...

Bir azdan göydə olacaqsan,
Buludlardan yuxarıda,
Ulduzlara yaxın,
Orda rahat olur
            düşünmək,
            qərar vermək!
Sən – göylərin hədiyyəsi,
            Allahın bəxşişi,
On gün əvvəlki səsim
Yəqin oralarda
10 min metr yuxarıda dolaşır.

Bir az dinşə,
            sızıltılarımı
            eşidəcəksən.

## Bura ki...

Sən indi uçursan,
Sən indi gedirsən,

Sən indi göydəsən...
Yadıma düşür sözlərin.
– Gedək?
– Uçaq?
Kosmosa.
Ulduzlara sarı.

Bədənində buludların yumşaqlığı,
Əl atıb
bir ovuc Günəş götürüb
yudum üzümü.

İlahi! Bura necə gözəldi,
          nə rahatdı!
Bu nə gözəl səyahətdi,
Bura ki lap cənnətdi!

## **Səbİr**

O yerə ki, qaldırdın,
O şövqü ki, yaşatdın,
O zövqü ki, bəxş edib
Gözlərimi yaşartdın.

Titrədib bədənimi,
Hislərimi oyatdın.
Vücudumda paslanan
Ruhumu ki ayıltdın.

Sənə bir neçə ömrü
Həsr etməyə dəyərdi.
Min il də, milyon il də
Səbir etməyə dəyərdi.

## **Bir də**

Birdən nur içində,
            birdən kölgətək
Görünür gözümə
            görkəmin sənin!
Gah işıq olursan,
            gah qaralırsan,
Gah sevincin xoşdur,
            gah qəmin sənin.

İstidən soyuğa, zülmətdən nura,
Əzabdan sevincə adlatdın məni.
Sən əks qütblərin qovuşağında
İsitdin, üşütdün, ağlatdın məni!

Mən ki bu haləti, bu halı keçdim,
Nə zülm çəksəm də, ölmərəm daha.

Bu qədər dərd, əzab şərabı içdim,
Bir də hüzuruna gəlmərəm daha!

## Darıxanda

Mən sakit darıxmıram,
Adam kimi darıxmıram,
Hüceyrələrim
ağzını açıb çığırır.
Damarlarım
qanımdakı aclığı
bütün vücuduma yayır.
Beynim qollarımda
döyünür –
ilikləriməcən darıxıram.

Əllərim, barmaqlarım
uzanır, uzanır,
girir torpağın
altına,
Mən sənsiz darıxanda
Min il əvvəlki
sümüklərim
sızıldayır.

## Yanaşı getmək

Səninlə yanaşı yerimək,
Yanaşı oturmaq,
Su içmək!
Və baxmaq gözlərinin
dərinliyinə.
Sonra addımlayıb
keçmək sərhədi.
Sonra təyyarəyə minmək,
Sonra çiyninə toxunub
titrəmək, əsmək.
Göyün onuncu qatında
                dua etmək:
– İlahi, sən bu titrəyişi
məndən alma!

## O səsin

Çəkilmir o səsin qulaqlarımdan,
Od kimi nəfəsin yanaqlarımdan!
Ağlımı başımdan çıxarıb alan
Məni tamam dəli eləyən səsin
Zarıyan, sızlayan, düşüb-qırılan,
Ah-nalə fışqıran, lələyən səsin.

O səsi canımda, beynimdə tutub
Ardınca yeridim mən addım-addım.
O səsin çıxardı məni bu haldan,
Yoxsa yarı yolda azıb qalardım.
Hayqıran, çığıran, «Sən» deyən Səsin
Yadımdan çıxmayan –
                    inləyən Səsin!

## Mələyim...
## iblisim...

Hamıdan çətinsən, hamıdan asan,
Əzabın məşəqqət, sevincin dərman.
Gah həyat verirsən, gah qətlə fərman,
Əzizim, ən yaxşım, ən pisim mənim.

Gah geniş çəmənsən, gah qara zindan,
Gah qatil olursan, gah da ki qurban.
Gah göydə yaşadan, gah yerə çırpan,
Ruhum, azadlığım, məhbəsim mənim.

Gördüm gecəsini, gündüzünü də,
Yaxşının, yamanın hər üzünü də.
Axır bircə dəfə gəl düzünü de,
Allahım, mələyim, iblisim mənim.

## Sıradan birisi

Ağrılar, acılar selində idim,
Gözlərim danışan dilində idi,
Taleyim tək sənin əlində idi,
Sıradan birisi etmədin məni.

Gördün o darıxan lal baxışları,
Hiss etdin gözlərdən axan yaşları,
Duydun səssiz, fağır yalvarışları
Sıradan birisi etmədin məni.

Tükdən asılmışdı bu ruhsuz bədən,
Dağlar titrəyirdi dərdi-sərimdən.
Yapışdın o anda biləklərimdən
Sıradan birisi etmədin məni.

## Görmədim

«Sən də artıq hər kəs gibisin»
**Nazim Hikmət**

Töküldü üstümə
          əzablar, ağrılar.
Qəlbim, əsəbim

cövlan elədi,
Hirsim biləklərimə
sıxılıb
meydan oxudu –
Səni hər kəs kimi görmədim yenə.

Gözümə yazılsa da,
acı səhnələr,
Ruhumu titrətsə də,
oxşar kəlmələr,
Əzsə də məni gördüklərim,
Üzsə də məni bildiklərim,
Dönmədim, sönmədim,
dinmədim –
Səni hər kəs kimi
görmədim yenə.

Uçurdun öz əlinlə
qurduğun xanimanı,
Viran qoydun, dağıtdın
işıqlı kəhkəşanı,
Çırpdın üzümə
bütün yaşananları,
Diyirlənib hərəsi bir yana dağıldı
ən ülvi xatirələr –
Yenə dözdüm,
Səni hər kəs kimi
görmədim yenə.

## Eynək

Qocalığın qaranquşu,
Gözümə işıq gətirənim.
Heç sevmədim amma səni –
Ömrümün ikinci
hissəsinin
gəldiyini
xəbər verdiyindən,
kədər verdiyindən!

İlk dəfə sevdim –
oxumayanda da
çıxarmadım gözümdən –
Elə bil məni əzizləyirdin,
Göz yaşlarımı
gizləyirdin.

## Sadəcə

Sadəcə, səni xəyalıma gətirmək,
Sadəcə, barmaqlarımı
daraq kimi

saçlarına keçirmək,
          tellərinin arasından
süzülən dərin
gözlərinə baxmaq,
yanağındakı xalından
          öpmək bəsdi ki,
tir-tir titrəyim,
əsim-əsim əsim!

**Sənin sirrin**

Dünyanın ən gözəl şairi sənsən,
Dünyanın ən gözəl şeiri sənindi!
Qəlbindən boylanıb, qol açıb gələn
Sözlərin işıqdı, Ruhun dərindi!

Gerçəyə çevirdin çox xəyalları,
Zamanın ən böyük heyrəti sənsən!
Mələk də etməzdi sən edənləri,
Xilqətin ən böyük cürəti sənsən!

Bir baxış, bir kəlmə, bir addım ilə
Dünyanın çərxini dəyişdirənsən!
Ruhunla, ağlınla , məhəbbətinlə
Ən dəli aşiqi yetişdirənsən!

İndi səndən özgə nə var dünyada?
Heç nə verə bilməz yerini sənin.
O qədər sehrli müəmmasan ki,
Heç kim bilə bilməz sirrini sənin.

**19 fevral**

Qamaşdı gözləri rastlaşanların,
Teatr tərəfə nur kimi gəldi.
Sildi yazılanı, keçdi hasarı,
Sındırdı hər cürə tilsimi, gəldi.

Gücü var, xoşbəxtlik ondan yan keçə?
Hiss etdi, duydusa, an onunkudu!
Min qoşun yığıla, yüz karvan keçə –
Məğrur sərkərdədi – can onunkudu!

Yüz qapı dalından, qala küncündən
Qoparıb apardı halal ovunu!
Dastana çevirdi, yazıya aldı
Şahidlər sayrışan od-alovunu.

Tavada qızartdı, şəraba qatdı
Ovunu «Beş qazan» restoranında.
İncə barmağıyla Ruhun oyatdı,
Gizilti duyuldu axan qanında.

Sonra yağmur yağdı fevral qarıyla,
Onu qucağına qonaq eylədi.
Yolboyu alışan dodaqlarıyla,
Ovunu ruhuna calaq eylədi.

## Calaq

Çox illər gözlədim mən bu calağı,
Bu isti nəfəsi çox arzuladım.
Titrəyən bədəni, incə barmağı,
Əsən dodağında gəldi muradım.

Qanımı oyadan öpüşlərində
Ruhuma calanan ruhunu gördüm.
İstilik, od-alov qalxdı dərindən,
Gerçəyə çevrilən yuxumu gördüm.

Əynimin ölçüsü, oxşarım, eynim,
Ən uyğun, ən rahat calağım mənim.
Bu ağac hələ çox bar gətirəcək,
Bardan əyiləcək budağım mənim.

Mənə vücudunla, ruhun, qanınla,
Dırnaqdan saçacan tuş gələnimsən!
Ömrün payızında həyəcanınla
Təzə bahar kimi xoş gələnimsən!

## Unutmadım

Şənimə sağlıqlar içiləndə də,
Boyuma təriflər biçiləndə də,
Ən qəmli anımda, dərdli anımda,
Ən xoşbəxt anımda, xoş zamanımda,
Yanımda gözəllər qımışanda da,
Dostlar bəlağətlə danışanda da –
səni unutmadım.

Qohumlar başıma yığışanda da,
Uşaqlar ucadan danışanda da,
Nəyinsə təcili barışığında
Evdarlıq, məişət qarışığında,
Ən hirsli çağımda,
dərdli çağımda
Dərdlər, problemlər
qoparağında –
unutmadım.

## Çıxırsan...

Çıxırsan yavaş-yavaş,
Vətənimdən çıxırsan!

Beynimdən aralanıb,
Bədənimdən çıxırsan.

Məğlub ordu kimisən,
Sınıq-salxaq çıxırsan.
Ərazimdən astaca,
Yorğun, axsaq çıxırsan.

Geri dönür nəfəsim,
Sifətim işıqlanır!
Cadudan ayılmışam,
Gözümün dibi yanır!

Nə yaxşı ki, çıxartdın
Bu tilsimdən, ilahi!
Mənə sakit həyat ver,
Rahat bədən, ilahi!

## Daşıya bilmərəm

Birdən anladım ki, gücüm qalmayıb,
Bu dərdə, ələmə dözməyəcəyəm,
Bu qədər əzaba, bu qədər zülmə,
Bu qədər sitəmə dözməyəcəyəm.

Təzədən yolunda dayanıb, durub
Güdəsi deyiləm hər addımını.
Tanışına deyib, dostundan sorub
Güdəsi deyiləm hər addımını.

Etibar itəndə, inam bitəndə,
Ehtiras azalır, məhəbbət solur.
Bütün sevgilərin sonu, axırı
Heyif ki, beləcə kədərli olur.

Yaşaya bilmərəm mən indən belə
Qəlbimin bu sonsuz təlaşlarıyla.
Daşıya bilmərəm bir ömür səni
Bu qədər ağrıyla, göz yaşlarıyla.

## Bilə-bilə ki...

Sən bilə-bilə ki, burda ölürəm,
Sən bilə-bilə ki, cızdağım çıxır,
Bir kəlmə yazmırsan, bir söz demirsən,
Qıvrılıb sinəmdən min ahım çıxır.

Yolun ortasında tək qoyursansa,
Vecə almırsansa ərzi-halımı.
Duya bilmirsənsə əzablarımı,
Heçə sayırsansa bu əhvalımı...

Demək söz oyunun, ulduz nağılın
Beləcə qurtardı, burdaca bitdi.
Beynimdən ən gözəl xatirələrim,
Ən gözəl anlarım silindi getdi!

**Uzağı bir ay**

Unuda bilmirəm: uşaqkən qumdan
Qurduğum qalanı sular apardı.
O itki heç zaman çıxmır yadımdan –
Çığırdım, qışqırdım, şivən qopardım.

Mənim çox qalama o vaxtdan bəri
İldırım şaxıyıb, dolu tökülüb.
Doğma şəhərlərim viranə qalıb,
Uşaqlıq evlərim daş-daş sökülüb.

İndi nə sarsılıb, nə də yanaram
Taleyin bu yeni, sərt sınağına.
Uzağı bircə ay qubarlanaram
Qurduğun qalanın uçulmağına.

**Bilsəydim**

Bilməzdim bu qədər ağrı verəcək,
Hər təzə misrası üzəcək məni,
Yolumu daşlığa sarı döndərib
Bu qədər incidib əzəcək məni...
Bilsəydim, yazmazdım bu şeirləri.

Mən dedim, yazdıqca unutduracaq
Köhnə ağrıları, əski dərdləri.
Bağrımın başında qalayıb ocaq
Yenidən yaşatdı məşəqqətləri...
Bilsəydim, yazmazdım bu şeirləri.

Ağrılar, əzablar ac quzğun kimi,
Boynuma uzatdı caynaqlarını.
Vurduğun yaralar sağalmamışkən
Yenidən qopardı qaysaqlarını...
Bilsəydim, yazmazdım bu şeirləri.

**Xatirələri**

Qoparıb, yerində qanqallar əkdin,
Baxmadın hansı gül, hansı çiçəkdi.
Benzini çiləyib, kibriti çəkdin,
Belə yaşadarlar xatirələri?

Alışdı tonqalda gözəl anlarım,
Ən doğma, ən əziz həyəcanlarım.

Karıxdı karvanım, durdu qatarım,
Belə yaşadarlar xatirələri?

Uçurub dağıtdın, taran eylədin,
Fırtına qopardın, boran eylədin,
Özün öz əlinlə viran eylədin,
Belə yaşadarlar xatirələri?

## Etiraf

Təzə ət qoxusu
duyan it
necə ki, zəncir çeynəyib dartınır,
Siçan pendir iyinə
necə ki, gözüyumulu atılır,
Xəstə narkoman gecəyarısı
özünü aptekin qapılarına
çırpıb qışqırır.

Bax, elə olursan
sevgi qoxusu,
sevgi havası hiss eləyəndə!

## Kor

Arıya tüstü verib
yeşikdən şanını, balını
necə çıxarırlarsa,
Mənim də
səadətimi eləcə
yoxa çıxardın.
Sən – tüstüm!
Sən – şanım!
Sən – balım!

## İnanım, inanmayım?

Deyirsən, birdənəmsən,
Səndən yoxdu deyirsən.
Sözlərini başıma
Nurtək səpələyirsən.
Bilmirəm ki, nə deyim,
İnanım, inanmayım?

«Sən alisən, layiqsən»,
«Sənsən uca» – deyirsən.
Elə qəlbdən, ürəkdən
uça-uça deyirsən,
Bilmirəm ki, nə deyim,
İnanım, inanmayım?

Deyirsən: «İşığınla

Günəşi çaşdıransan,
dəlisov istəyinlə
çayları daşdıransan».
Bilmirəm ki, nə deyim,
İnanım, inanmayım?

Deyirsən ki: «Sən mənə
Allahın bəxşişisən,
Taleyimin ən savab,
Ən müqəddəs işisən».
Bilmirəm ki, nə deyim,
İnanım, inanmayım?

Mən sözün köləsiyəm,
Sözünün ağası ol.
Yalan dedin, düz dedin –
Hər şey üçün çox sağ ol!
Daha nə fərqi var ki,
İnanım, inanmayım?

## Çiyələk şirəm

Dodaqlarının barı, bəhəri –
Ən dadlı məhsulum,
Dirilik suyum,
Damarlarımı titrədən,
qanımı duruldan
İksirim!
Sirrim!
Sehrim!
Hüceyrələrim ağzını açıb
    sənin yolunu gözləyir.
Beynimin sinirləri
    sənin rahatlığında
    üzməkçün ölür!
Gözlərimə işıq gəlir,
Ruhum dərinliklərdən
    dikəlir!
Xoşbəxtlikdən
    tərpənə bilmirəm!
Dadım, tamım, əlacım!
    Çiyələk şirəm!

## Hələ də

Sözlərin heyrətdən gözü bərəlib,
Hislərin karıxıb, haçalanıbdı!
Döyükən baxışlar didərgin düşüb
Ürəyin yüz yerə parçalanıbdı –
Hələ də anlaya bilmirəm səni!

Birinin ulduzu, birinin ruhu

Birinə «Allahın bəxşişi» oldun!
Milyon il dövr edən bu kainatın
Ən qəliz, mürəkkəb, tərs işi oldun –
Hələ də anlaya bilmirəm səni.

Verdiyin əzabın, məşəqqətinlə
Qırılmış qəlbimdə çatlaq kimisən –
Səni bu səbrimlə böyüdəcəyəm,
Yaddaşımda yenə uşaq kimisən! –
Hələ də anlaya bilmirəm səni!

## Daha

Daha səni üzməyəcəm,
Üstündə əsəcəm sənin.
Ən gözəl gülləri yığıb,
Telinə düzəcəm sənin.

Sənə həzin bəstələri,
Nəğmələri yollayacam.
İsti, kövrək cümlələri,
Kəlmələri yollayacam.

Gülüşümlə həyatını
İsidəcəm şüa kimi.
Nəfəsimi kürəyində
Duyacaqsan dua kimi.

Daha yaşarmasın gözlər,
Əzizim, möhtacam sənə.
Ruhunu oxşayan sözlər,
Şeirlər yazacam sənə.

## Vitrindəki mələyim

Səmadan bu an gəlib,
Uçan boşqabnan gəlib.
Gözünə qurban!
Gəlib
vitrindəki mələyim.

Oldum ruhuna təslim,
O möcüzə, o tilsim.
Hüzuruna tələsim
Vitrindəki mələyin.

Qışda bahar kimidi,
Təzə nübar kimidi,
Ağappaq qar kimidi,
Vitrindəki mələyim.

Gələcəyin qadını,

Sovqat etdi dadını.
Unutdurdu adımı
Vitrindəki mələyim.

## Gülüşün

Mənim bütün ovqatım
Gəlişinə bağlıdı.
Uzaqdan şəfəq saçan
Gülüşünə bağlıdı.

Gülüşün rahatlığım,
İşığımdı, nurumdu.
Gələcəyə uzanan
Sonsuz arzularımdı.

Ən qatı qaranlığım
Gülüşünlə yox olar.
Məni gülərək oyat,
Gülə-gülə yuxulat.

## İki ay

Nə gözəl olardı, iki ay qabaq
Yapışıb əlimdən risk eləyəydin.
Dartıb o otelin çıxacağından,
«Dağlar aşmalıyıq, gedək» deyəydin.

İki ay gecikdim. Bir də gördüm ki,
Otel teatrla dəyişib yerin.
Bu dəfə tərəddüd, şübhə olmadı,
Verdi qərarını qara gözlərin.

Qayıdıb təzədən salanda yada,
Sanki aramızda iti çay axır.
Səni qınamıram, bu dünyaya da
Gecikib gəlmişdin iki ay axı.

## Əsəb dərmanı

İldırım tək gedirdin,
Qəfildən qucaqladı.
Dayanası deyildin,
Səni yaman haqladı.

Ləngidi yerişlərin,
Addımların laxladı.
Zamanı yavaşıtdı,
Vaxtı tutub saxladı.

Bildin, bütün günahlar

İti qaçan vaxtdadı.
Əlacın kimyəvidi,
Sakit halın saxtadı.

## Daha

Daha indən belə əlimdə deyil,
Səni indən belə qısqanacağam.
Bir iti kəlməyə, ağıllı sözə,
Hətta daş heykələ qısqanacağam.

Hərdən sakit olub, hərdən coşacam,
Hərdən döyüşəcəm, bərk savaşacam.
Hərdən qəzəbimdən coşub-daşacam,
Hərdən gülə-gülə qısqanacağam.

Geriyə dönəcəm getdiyim yolu,
Baxacam ardınca  şübhəylə dolu.
Sənə bilə-bilə laqeyd olub,
Səni bilə-bilə qısqanacağam.

## Üzeyir bəyin heykəlinə

Gəlir heykəlinin önünə hər gün,
Səhər açılanda, Günəş çıxanda.
Adının yanına «bəy» sözü yazır,
Gözünü gözündən çəkmir bir an da.

Toxunur heykələ, əsir bədəni,
Titrək vücuduyla alovlanır o.
Tərtəmiz qəlbiylə çox sevir səni,
Gizlədə bilmir ki, həyəcanı o.

O səni görsəydi, bütün ömrünü
Sədəqə verərdi, qurban edərdi.
Qalsaydın 120 yaşında belə,
O səni düz yüz yaş cavan edərdi.

## Mələk

Göydən hansı endi: təyyarə, yoxsa
Hava limanında gözləyən mələk?
Hifz edib qoruyan, sevinc bəxş edən,
Məni addım-addım izləyən mələk.

Dəli arzusuyla, cəsarətiylə,
Qatı cəngəllikdən yol eləyəndi.
Sərhədsiz eşqiylə, məhəbbətiylə
Adamı özünə qul eləyəndi.

Yerdə doğulanın çatmaz cürəti,

Adamı belə tez qaldırsın göyə.
İşıq sürətidi onun sürəti,
Bir anda çatdırır ən yüksəkliyə.

## Əlac

İçəridən əyildinsə
Ha dik dayan, ha düz yeri.
Görək necə keçəcəksən
Ömründəki qəliz yeri?

Dərd gələcək qucaq-qucaq,
Yandıracaq ocaq-ocaq.
Yaddaşında sızlayacaq
Ağrılardan min iz yeri.

Odur sənə dərman-ilac,
Gördün ki, yox başqa əlac,
Əlindən tut, üstünə qaç,
Diri  tərpən, di tez yeri.

## O

Baxma ki, sakit dayanıb,
Qəfildən götürər səni!
Qoparıb dostdan, tanışdan
Evindən itirər səni.

Qaldırıb göyün qatına,
Mindirər şahlıq atına.
Dad gətirib həyatına,
Cənnətə yetirər səni.

Əlində yarağın qalmaz,
Dəftərin, varağın qalmaz,
Heç nəyə marağın qalmaz,
İşini bitirər sənin.

Quruyarsan bulaq kimi,
Bezər, doyar uşaq kimi,
Bir qırıq oyuncaq kimi
Qaytarıb gətirər səni!

## Məni

Özüm də bilmirəm, görəsən, nədi
Bu qədər əzabdan qoruyan məni?
Necə adlamışam bu qədər səddi,
Niyə aparmadı bu tufan məni?

Hərdən mat qalıram sağ qaldığıma,

Bu acı mərəzdən sağaldığıma.
Min cür şübhə, güman gəlir ağlıma,
Bəlkə, hifz eləyib Yaradan məni?!

Bir sözü qatildi, bir sözü qurban,
Özü həm dərd verdi, həm də ki dərman.
Özü xilas etdi öz azarından,
Allahın bəxşişi – o adam məni!

**Xarıbülbül**

Səninlə bağlıdır həyəcanlarım,
Ən rahat anlarım, xoşbəxt anlarım.
Sənin nəğmən ilə qanad açmışam,
Cənnətə düşmüşəm, göyə uçmuşam.
Səninlə bağlıdır göz yaşlarım da,
Dəli gülüşlərim, savaşlarım da.

Yenə köməyim ol, bu çətin anda,
Tapım o gördüyüm axarı, bülbül.
Qaytar o əvvəlki səadətimi,
Qaytar bəxş etdiyin baharı, bülbül.
Gəzim qarış-qarış, addımbaaddım,
O gözəl, o əziz diyarı, bülbül.
Yenə səsin gəlsin, qoy qanadlanım,
Qalxım nəfəsinlə yuxarı, bülbül –
          Xarıbülbül!

**BİR DƏ GƏLMƏYƏCƏK...**

Elə möcüzələr yaratmısan ki,
Elə dəqiqələr yaşatmısan ki,
Olmayıb heç onun yüzdə biri də
Nə mənim dünyamda,
                    nə bu dünyada.

Sən elə telləri qırıb getmisən,
Sən elə yaralar vurub getmisən,
Təpəri yoxdu ki, dözüb dayansın,
Nə mənim dünyamın,
                    nə bu dünyanın.

Qəfil gəlişinlə suç eləmisən
Sənsiz keçən ömrü puç eləmisən
Vurmayıb heç zaman belə qar-yagış
nə mənim dünyamı,
                    nə bu dünyanı

Bilmədim iblissən, ya mələk, Qadın,
Ətri, gözəlliyi çiyələk Qadın.
Bir də gəlməyəcək sənintək Qadın

Nə mənim dünyama,
nə bu dünyaya.

## Aparıb

Mənim uca qalamı,
Vurub boran, aparıb.
Daş üstdə daş qoymayıb,
Edib talan, aparıb.

Qəlbinin təpəriylə,
Beyninin bəhəriylə,
Özü öz əlləriylə
Tikib-quran aparıb.

Gözümdən yaş axıdıb,
Qəm nəğməsi oxudub,
Ya sunami dağıdıb,
Ya da tufan aparıb.

## Saxla

Gözlə, hamı yığışsın,
Qurbanı kəsdir, saxla.
Səadət qazanında,
Payları isti saxla.

Topala heyranları,
Düzləri, yalanları.
Az sına qurbanları,
Qurtar bu testi, saxla.

Üzünü işıq elə,
Dərddən bir qaşıq elə,
Bir az qarışıq elə,
Mən doydum, bəsdi, saxla.

## Mənim qalam

Günlərdən mənə
ən əzizlərini seçəcəm,
Sözlərdən ayırmaq çətin olsa da,
dartıb ən dərinlərdən
istisini, durusunu götürəcəm.
Uçulmuş qalamın xarabalığını
Silib-süpürüb, yenisini quracam.
Bir az mənimki olan
gözlərinin işığından,
bədəninin istisindən,
həyəcanın ən təbiisindən

qatacam günlərimə,
sözlərinlə bəzəyəcəm!
Bəlkə balaca olacaq,
amma mənim qalam olacaq!

### Çəkmə əlini

Necə ki,
acımasız, mayasız
kündə küt gedir, təndirdə durmur,
tökülür köz üstə,
            qapqara qazmağa dönür,
Mən də eləyəm indi –
Sənsiz, sevgisiz!
Çəkmə əlini!
Sonra bu əzabların üstündə
cızdağı çıxan yanmış qırıntılarımdan
adam düzəltmək çətin olacaq.
Çəkmə əlini!

### Günəşim

Bir zaman başımın üstündə yanan
İki günəşimlə nə rahat idim.
Vücudum məst idi istiliyindən,
Dincliyim gəlmişdi, farağat idim.

Yuyurdum üzümü şüalarıyla,
Gözümdə işıqdı,
sifətimdə nur.
Udurdum, dadırdım hərarətini,
Qanımda alovdu,
bədənimdə qor.

Biləndə donmuşam bu həqiqəti,
Duyduğum gerçəklər odtək yandırıb;
Mənim günəşlərim məndən xəlvəti
Özgə planeti işıqlandırıb.

### Sərvət kimi

Sənin sevincindən necə əsirəm,
Nə xoşbəxt oluram gülüşlərindən.
Gözlərim yaşarır, çox tələsirəm
Uyum, havalanım öpüşlərindən.

Səni sərvət kimi, xəzinə kimi
Tapmışam, saxlayıb gizlətməmişəm.
Qəlbimə gələnlər gözümdən baxıb,
Dilimdə sözümü gözlətməmişəm.

Sənə sevinc payı, sənə məhəbbət,

Sənə səadətdən qala quracam.
Sənin gülüşünün, səadətinin
Hər an keşiyində sayıq duracam.

## Səbəb

Bir ay öncə,
ilyarımda ilk kərə
səni iki saat
beynimdən çıxarmışdım –
futbola baxmışdım!
Sonra özüm də
məəttəl qalmışdım.
İndi onun cəzasın çəkirəm!
Ağır işə düşmüşəm!
Son 15 gündə 360 saat
Sərasər səni düşünmüşəm!

## Bu qədər

Bu qədər evə qapılıb,
Bu qədər otağa girmə.
Bu qədər qələmi didib,
Bu qədər varağa girmə.

Azaltmaz ki dərd-sərini,
Ovutmaz ki kədərini.
Tapmazsan heç bənzərini,
Bir təzə yatağa girmə.

Demə ki, unutmaq asan,
Xoş sözləri olsun həyan!
Kitabda, sərgidə dayan
Ta o yan qadağa – girmə!

## Dəliyə dönürəm

Dəliyə dönürəm sən yazmayanda,
Az qala başımı daşa vururam.
O saat aranı dağa qatıram,
Yüz qəliz macəra, plan qururam.

Atdığım dərmana-filana baxmır,
Başlayır beynimin döyüntüləri.
Ürəyim az qala yerindən çıxır,
Elə bil dadıram acı zəhəri,
Dəliyə dönürəm sən yazmayanda.

## Anlaya bilmirəm

Bir dəfə yalançı gülüş görmədim,
Bir dəfə bir soyuq öpüş görmədim,
Bir dəfə candərdi görüş görmədim,
Onunçün anlaya bilmirəm səni.

Görsəydim onları
Bir qalın kəndirə çevirib çoxdan
Dartınıb çıxmışdım, mən bu quyudan.
Görmədim...
Onunçün anlaya bilmirəm səni.

## Gəl

Nəyə lazım artıq zəhmət, əziyyət? –
Orda onu, burda məni tovla gəl.
Adımızı eyni yerdə qeyd elə,
İkimizə eyni mesaj yolla gəl.

Fikir vermə, zarafatdı sözlərim,
Yenə gülsün, işıq saçsın gözlərin!
Qayıt yenə əvvəlkitək şipşirin,
Dillərində bir şan təmiz balla gəl.

Olan oldu, keçən keçdi, qəzaydı,
Tanrı gərək elə belə yazaydı.
İndi daha beyin açıq, göz aydın,
Geri boylan, vallah qayıt, vallah, gəl.

## Eyləyir

Zəhləni tökürəm, əlimdə deyil,
Sözlərim halımı bəyan eyləyir.
Beynimin içində oyaq fikirlər,
Pıqhapıq qaynayır, üsyan eyləyir.

Haçansa gördüyüm bir yalan, kələk,
Yaddaşımı edir hey ələk-vələk.
Bəzən fağırlaşır sakit quzutək,
Bəzən də oyanıb vulkan eyləyir.

Hərdən rahat olur, hərdən qovur da,
Bəzən aman vermir bircə hovur da.
Mən bir bələdçiyəm bu vurhavurda,
Neyniyir bu bədən, bu can eyləyir.

## Xoşuma gəlir

Bir az gec duyduğun zarafatlarım
Yadıma düşəndə gülürəm indi.
Dönür sevinclərim, göz yaşlarımı
Sevinə-sevinə silirəm indi.

Heyrətlə baxmağın xoşuma gəlir,
Könlümü yıxmağın xoşuma gəlir.
Sənlə birgə çağım xoşuma gəlir,
Deyəsən, özümə gəlirəm indi.

Uzağa gedəndə lap sərt oluram,
Bir acı sözündən tez pərt oluram,
Yarıcan oluram, şikəst oluram,
Sənsiz yaşayamam – bilirəm indi.

## Belə

Bu ölüm mələyi yadıma gəlmir,
Oxşarı, örnəyi yadıma gəlmir.
Bu qədər çəkməyi yadıma gəlmir,
Belə mat qalmadım mən ömrüm boyu.

Dərddən qəlbim qubar – öyrəncəliydim,
Hər cür iztiraba öyrəncəliydim.
Ən ağır əzaba öyrəncəliydim,
Belə mat qalmadım mən ömrüm boyu.

Tanrı qismətitək gələn azarı
Duyurdum, bilirdim olacaqları.
Ancaq gözləmirdim belə qubarı,
Belə mat qalmadım mən ömrüm boyu.

## Bilinmir

İndiki əhvalım dünənki deyil,
Sabah olmayacaq bugünkü halım.
O rahat həyatım həmənki deyil,
Hər gün bir ovqata düşür əhvalım.

Gah ulduz olmusan, gah su pərisi,
Gah işıq yaymısan, gah daş atmısan.
Dərdi də vermisən, səadəti də,
Həm bahar, həm də ki qış yaşatmısan.

Özün də min haldan hala düşmüsən,
Sevincdən uçmusan, dərddə bişmisən.
Dünyanın gərdişin qarışdırmısan
Düz yolun, vərdişin qarışdırmısan.
Bilinmir kim udub, kim itiribdi,
Kim kimin ömrünü dəyişdiribdi?..

## Yaza-yaza

Əzabın, sitəmin içində azdım,
Gah kəfən geyindim, gah qəbir qazdım.
Bilsəydim, əvvəldən heç başlamazdım,
Öldüm yaza-yaza bu şeirləri.

Daşıdım əlimlə baş daşlarımı,
Başladım yenidən savaşlarımı.
Hər gün neçə dəfə göz yaşlarımı,
Sildim yaza-yaza bu şeirləri.

Günəşim yox olar, işığım sönər,
Hər sözün kədərə, qəhərə dönər.
Sənsiz yaşamağım zəhərə dönər,
Bildim yaza-yaza bu şeirləri.

## Üzünə qurban

Ötən hər sirli gecənə,
Gələn gündüzünə qurban.
Kədərlənən baxışına,
Gülən gül üzünə qurban.

Əsən qara tellərinə,
Nur yayan ağ əllərinə.
Doğru deyən dillərinə,
Hər yalan sözünə qurban.

Gah müdriksən, gah uşaqsan,
Həm günahkar, həm də haqsan.
Ayrılmaram hardan baxsam,
Qurban, hər üzünə qurban!

## Böyüdünmü...

Mənim yaşım yüzə çatdı,
Körpəm, bəs sən böyüdünmü?
Bu kədərdən, bu əzabdan,
Dərddən-qəmdən böyüdünmü?

İçindən keçən sızıltı
Günlərini ay etdimi?
Dəstə-dəstə yağan yağış
Bulağını çay etdimi?

Bu ağrını ki adladıq,
Sən bu işə asan demə.
Yaşın neçə olar indi? –
Gəl bu dəfə yalan demə,
Körpəm, heç sən böyüdünmü?

## İşıq görünür

Bu köhnə dünyada təzə qəm gördüm,
Keçdim ən keçilməz toranlığından.
Min sitəm daşıdım, yüz əzab dərdim,
Sıyrıldım bu yolun qaranlığından –

Tunelin sonunda işıq görünür.

Seyrəlir beynimdə ağrı yerləri,
Köhnə dərdlərimdən qoparır məni.
Hansı planetə, hansı zamana,
Bilmirəm heç hara aparır məni –
Tunelin sonunda işıq görünür.

Bilirəm, bu əzab bir gün bitəcək,
Bilirəm, yaddaşı təmiz çıxacam.
Bir onu bilmirəm, bu doğanaqdan
Səninlə çıxacam, sənsiz çıxacam? –
Tunelin sonunda işıq görünür.

## Həmişə...

Sən məndən həmişə sirr saxlayacaq,
Həmişə nəyisə gizlədəcəksən.
Dilimə gəlməyən suallarımı
Baxıb gözlərimdən hiss edəcəksən.

Həmişə şübhələr didəcək məni,
Həmişə təlaşda yaşayacaqsan.
Cavabsız suallar güdəcək məni,
Sən günah səbəti daşıyacaqsan.

Bir gün bu halımız əzəcək bizi,
Bir gün bezəcəyik, yorulacağıq.
Bir gün çatacağıq yolayrıcına,
Hərəmiz bir yana burulacağıq.

Bir də görəcəyəm, dayanıb zaman,
Bir də görəcəksən, tənhasan, təksən.
Sən məndən həmişə sirr saxlayacaq,
Həmişə nəyisə gizlədəcəksən.

## Öz-özümlə...

Adam bir adam gəzir,
Dərdini danışmağa.
Kədərini bölüşüb,
Ürəyini açmağa.

Amma mən çəkdiyimi
Kimə desəm, əriyər.
Suallar qoşun çəkib,
Düz üstünə yürüyər.

Çəkdiyim əzabları
Düşünüb havalanar.
Ya sözlərimi yalan,
Ya məni dəli sanar.

Ən yaxşısı odur ki,
Öz içimdə alışım.
Öz-özümlə bölüşüm,
Öz-özümlə danışım.

## Gəldinmi?

Soruşum, kefin necədi,
Sən o diyara gəldinmi?
Mən səfərdə qərar verdim,
Sən də izhara gəldinmi?

Çalxalayıb göyü-yeri,
Silkələyib dərdi, səri,
Ələyib düşüncələri
Tapıb bir çarə, gəldinmi?

Duydunmu heç ahlarımı?
Bildinmi günahlarını?
Qurdunmu sabahlarını,
Körpəm, qərara gəldinmi?

* * *

Beynimdə qaynaşan dərd ulduzları,
Sönür yavaş-yavaş, itir gözümdən.
Qaysağı quruyan əzab yerləri
Sağalır deyəsən, dirilir bədən.

Amma bir yaranın üstü açıqdı,
Amma ki bir ulduz göydədir hələ.
Tək biri mayaktək sönmür nə vaxtdı,
Tək biri iynətək göynədir hələ.

Görünür, ömrümün axırınacan,
O işıq qaralıb sozalmayacaq.
İynətək deşəcək məni o ağrı
Heç zaman, heç zaman azalmayacaq.

Bəlkə rəhm edəsən, nəsə deyəsən,
Bəlkə, inandırar bir yalan məni.
Sonuncu ağrını kütləşdirəsən,
Qoparıb əlindən alasan məni.

## Bilmədim

Bilmədim bu şeirlərlə
Mən nələri əfv elədim.
Ya bir təzə sevgi tapdım,
Ya ağlayıb dəfn elədim?

Bəlkə, bir qəlb yaraladım,

Ağrıları sıraladım,
Bəlkə, nahaq qaraladım,
Bəlkə, böyük səhv elədim?

Dedim doğru-yalanı da,
Olmayanı, olanı da,
Bəlkə, olub qalanı da
Yerə çırpıb məhv elədim?

Qoy yolunda talan olum,
Sərxoş olum, viran olum,
Elə bilmə, qurban olum,
Elə bilmə kef elədim.

## Bitirdim

Gəlib çatdım dastanın
Son sözünə, bitirdim.
Qoymadım ki, əzabım
Vaxtsız sönə, bitirdim.

Gözümdən yaş axıtdı,
Əzab ağı oxutdu.
İçimi dərd dağıtdı,
Dözdüm yenə, bitirdim.

Nə etdim ki, öyünəm –
Zorla çatdım son günə.
Düşünmüşdüm on günə,
Altı günə bitirdim.

**16.10.2011**

## Bitdi

Gəldi əzabların sonu,
Bitən nədi? Başlayan nə?
Gedən getdi, qalan qaldı,
İtən nədi? Yaşayan nə?

Heç bilmirəm kiməm, nəyəm,
Nələr oldu yaddaşıma?
Nə çıxacaq qabağıma,
Nələr gələcək başıma?

Heç bilmirəm nə olacaq,
Gətirəcək baxtım yenə?
Hüzuruna gəlib, bəlkə,
Gözlərinə baxım yenə?

Bu təptəzə ağ beyinlə
«Yaxşı» – deyib başlayımmı?

O yaşanan səadəti
Bir də, bir də yaşayımmı?

## Qayıtdın...

Ulduzsan, su pərisi –
Bu dəfə nə qayıtdın?
Bu gözləri güldürüb,
Bu bədənə qayıtdın.

Açıldı qol-qanadın,
Tarixə düşdü adın.
Xəzinətək parladın,
Bir dəfinə qayıtdın.

Əl tutub sevindilər,
Abşeron, mavi Xəzər,
Bu ürəklə bərabər
Bu Vətənə qayıtdın.

## Sən

Əzirsən hər nəfəri,
Hər mühiti, şəhəri.
Ayağın dəyən yeri
Cənnətə çevirənsən.

Nur bürüyür hər yanı,
Yuxulular oyanır.
Dəyişdirib havanı,
Məqamı devirənsən.

Vurğunam hər üzünə,
Gecənə, gündüzünə.
Əyilirəm dizinə –
Həyatı sevdirənsən!

## Adın

Adını çəkəndə dilim bal dadır,
Üzüm işıqlanır, güntək yanıram.
Mələklər qolumdan tutub qaldırır,
Bir boy ucalıram, qanadlanıram.

Genimdi, soyumdu, qanımdı adın
Minillik tarixi köçümdən gəlir.
Ən dərin qatımda atəş oyadır,
Hüceyrəmdən qalxır, içimdən gəlir.

Qoymaram adına yanaşa kölgə,

Müqəddəs ziyarət, məkandı adın.
Tanrı bəxşişisən, ən məsum körpə,
Ən ağıllı adam, ən üstün qadın!

## Dizin-dizin...

İlahi, mən nələr yazmışam, nələr,
İlahi, mən gedib hara çıxmışam?
Adlayıb yarğanlar, keçib meşələr,
Gedib cəhənnəmdən yerə baxmışam.

Susuz səhralardan piyada keçib,
Halsız sürünmüşəm hey dizin-dizin.
Neçə gün susayıb, qanımı içib,
Səthində qalmışam dibsiz dənizin.

Məni bu dəhşətdən kim adladıb, kim,
Mən onun quluyam, həm köləsiyəm.
Məni əzablardan qurtaran sevgim,
Mən sənin uğrunda döyüşəsiyəm.

## Dizlərimin sızıltısı

Yuxudan oyatdı gecə,
Qalxdı, ayıltdı gizlicə,
Asta-asta, incə-incə
Ayaqlarımı daladı –
dizlərimin sızıltısı.

Səbəbin yüz yerə yozdum,
Gümanlar içində azdım.
Hər anımı cızıb-pozdu,
Beynimə xəbər yolladı –
dizlərimin sızıltısı.

Gördüm ki, qızarıb dərim,
İncidib, ağrıdır yeri.
Birtəhər açdım səhəri,
Yan-yörəsin sığalladım –
dizlərimin sızıltısı.

Birdən sirrin başa düşdüm,
Sevincdən təlaşa düşdüm
Kəbəm üçün sürünmüşdüm!
Nə gözəldi, nə əladı –
dizlərimin sızıltısı.

**18.10.2011**

## Sən! Sən!

Hüceyrələrimin coşub

Mələdiyi, yenə Sən! Sən!
Qollarımın uzanaraq
Gəl dediyi, yenə Sən! Sən!

Ankarada, ya Gəncədə,
Keçdim min-min işgəncədən.
Yenə dönmür nadinc bədən,
İstədiyi – yenə Sən! Sən!

Tufan qalxır, külək dinir,
Göy gurlayır, şimşək dinir.
Yenə susmur, ürək dinir,
Yenə deyir, yenə Sən! Sən!

**Savayı**

Yaddaşımda nə qalıb ki,
Sirli kələkdən savayı.
Sinəmin altında nə var,
Təşnə ürəkdən savayı.

Füzulitək yanan neyəm,
Tənha atlı, tək gəmiyəm.
Kimsə yox dərdimi deyəm,
Əsən küləkdən savayı.

Barışdığım gərdişim var,
Alışdığım vərdişim var.
Mənim özgə nə işim var
Səni sevməkdən savayı?

**Tapardım**

Beyninə girsəydim bir saatlığa
Bütün suallara cavab tapardım.
Bu qəliz, mürəkkəb tapmacaların
Açmasını səndən qabaq tapardım.

Birini seçərdim – ayrılmaq üçün,
Başqa bir fikrini – bir qınaq üçün,
Bəlkə də, təzədən vurulmaq üçün
Bir isti, bir kövrək bucaq tapardım.

Bəhanə axtarıb gündə yüz kərə
Dözərdim hər gələn qəza-qədərə.
Bütün elədiyin dəliliklərə,
Min günah içində savab tapardım,
Vallah axtarardım, vallah, tapardım.

**Neyləyə bilərəm**

Burda dərd içində tir-tir əsəndə
Lap mən öyrənsəm ki, kef eləmisən.
Üfürə-üfürə sağ saxladığım
Hisləri sən orda kəfənləmisən –
Neyləyə bilərəm, neyləyə, canım?

Daha bundan sonra heç bir arzuna,
Heç bir addımına heyrətlənmərəm.
Baxmaram sözlərin sərt havasına,
Hər nə söyləsələr, susub dinmərəm.

Mən kimə danışım, kimə söyləyim?
Neyləsəm ağrıdar, göynədər yaram.
Özüm öz içimi gəmirib, yeyib,
Özüm öz içimdə sızıldayaram –
Neyləyə bilərəm, neyləyə, canım?

## Bəsdi

Neçə ay içindən çıxa bilmədim:
Türmədi, məhbəsdi, qəfəsdi – bəsdi.
Gözümün yaşını yığa bilmədim,
Kürdü, Həkəridi, Arazdı – bəsdi.

Keçdim, qucağında xoş dəmi keçdim,
Sevinci, kədəri, dərd-qəmi keçdim,
Ruhumla bir sirli aləmi keçdim,
Vergidi, cadudu, nəfəsdi – bəsdi.

Sultandın, çevrildi taxt, sona yetdi,
Tale bağışlayan baxt sona yetdi,
Tanrının verdiyi vaxt sona yetdi,
Sevgidi, maraqdı, həvəsdi – bəsdi!

**21.10.2011**

## Bəsdi nədir?

Heç nə sona yetən deyil,
Bu eşqə qəfəs bilmərəm.
Bu ruhumda, bu halımda,
Barmağımı kəs, bilmərəm.

Əzabı da şirin dadır,
Çoxdan sızıb, qanımdadı.
Ruhu hər an yanımdadı,
Ayrı səda, səs bilmərəm.

Mənəm işıq dəstələyən,
Yüz-yüz nəğmə bəstələyən,
Kimdi orda «bəsdi» deyən,
Bəsdi nədi? «Bəs» bilmərəm.

## Çıxmışam

Bu əzabın zülmətindən,
Dipdiri, oyaq çıxmışam.
Ürəyimdə dəli bir eşq,
Dilimdə «Allah» çıxmışam.

Üstümdə Tanrı nəfəsi,
Üzümdə sevda həvəsi,
Dağıtmışam dar məhbəsi,
Ölməmişəm, sağ çıxmışam.

Keçdim çətin mərhələdən,
İnildədi, əsdi bədən.
Bu onballıq zəlzələdən
Bir boy qalxıb dağ çıxmışam.

## 10 il sonra

Bu ağır sınaqda, bu çarpışmada,
Bu qanlı-qadalı sərt vuruşmada,
Mən sənə zirehdən don geyindirdim,
Mən səni ovcumun içində tutdum.
Ən ağır zərbəyə sinəmi gərdim,
Axan göz yaşını sözlə ovutdum.

Bəlkə, 10 il sonra, 15 il sonra
Bir soyuq ağılla, bir sakit başla,
Keçmişə qayıdıb düşünəcəksən,
Düşünüb heyrətdən üşünəcəksən:
Qanı dayanmayan yaralarımı
Hansı məlhəmlərlə sarıdığımı,
Səni bu zərbələr, bu hücumlardan
Üfürə-üfürə qoruduğumu.

## Xəngəl

Hey yoğurdun, kündələdin,
Bükdün əzik-əzik məni.
Yaydın, yaydın, axır etdin
Yuxadan da nazik məni.

Böldü, kəsdi parça-parça,
Bıçaq tutan barmaqların.
Daşıdı qaynayan suya
Undan da ağ dırnaqların.

Bəlkə, qazı çox elədin,
Vaxtı ötürdün, deyəsən.
İş işdən keçəndən sonra
Üstdən götürdün, deyəsən.

Gətirib masaya qoydun,
Bir yekə sinidə məni.
Kim dadıma yüyürəcək,
Kim yeyəcək indi məni?

## Dik atılıram

Mən bu dərmanları atandan sonra,
Div kimi, daş kimi yatandan sonra,
Sanki bir qalada yuxulayıram,
Nə söz eşidirəm, nə səs duyuram.

Vurub, silkələyib oyatsalar da,
Lap belə yanımda top atsalar da,
Tüküm də tərpənmir, vecimə olmur! –
Nə şimşək çaxması, yağış səsindən,
Göylərin, yerlərin titrəməsindən,
Nə fişəng atəşi, tüfəng səsindən,
Qapı taqqıltısı, ya zəng səsindən
– yox, oyanmıram!
Bircə həyəcanla dik atılıram,
SMS-lərinin cingiltisindən.

## Sən yaxşısan

Nə gənc qadın, nə gözəl qız,
Nə istedad? Sən yaxşısan!
İstəmirəm bir özgə hiss,
Bir özgə dad – sən yaxşısan!

Gah yerə çırp, göyə qaldır,
Gah ağladıb, gah da güldür,
İstəyirsən məhv et, öldür,
Ya da yaşat – sən yaxşısan.

Özgə nursan, başqa nəfəs,
Varlığına yoxdu əvəz.
Deyəcəyəm lap məni əz,
Lap belə at – sən yaxşısan.

## Yuxuda

Yuxuda xəyanət elədim sənə,
Tutdum bir gözəlin ağ əllərindən.
Öpdüm sinəsindən, dodaqlarından,
İtdim nəfəs kəsən gur tellərində.

Əsdim giləsinə əlim dəyəndə,
Dodaqlarım dondu günəşlərində.
Yuxulu gözlərim höccələyəndə
Tanıdım mən səni öpüşlərindən.

Qəfildən gün doğdu bəbəklərimdə,
Belə işıqlanan hava görmədim.
Səni başqasıyla əvəzləməyi
Mən heç yuxuda da rəva görmədim.

### Kövrəklik

Bu qədər ağrını, bu qədər dərdi,
Sıxıb ürəyimdə saxlamamışdım.
Camaat içində, adam içində
Bu qədər kövrəlib ağlamamışdım.

Sən, dostum, Ağdamdan danışma mənə,
Sən də heç Laçından, Şuşadan demə,
Məni yandıracaq xatirələri
Sakitcə pıçılda, ucadan demə.

Mən indi o qədər kövrək, həssasam,
Gözümün suyundan pas tutasıyam.
Təkcə torpağa yox, təkcə elə yox,
Hətta hislərə də yas tutasıyam.

### Nə olsun ki...

Nə olsun ki, qəşəngsən,
uca boylusan,
düz ayaqların var?
Nə olsun ki, uzaqdan
titrədirsən kişiləri
Bir kəlmə söhbətdən,
iki sualdan sonra
O ayaqlar taxtaya dönəcək,
O gözəllik saxta görünəcək,
Ovuntuların töküləcək
Ayaqlar  altına –
Öyünmə gözəlliyinlə.

### Etmisən

Məni nura döndərib,
Gəzdirmisən göyləri.
Yadlara ümid yeri,
Dosta güvənc etmisən.

Sevincə boyamısan,
Gələn səhərlərimi.
Çevirib zərlərimi
Yekimi pənc etmisən.

Hər yan təptəzə, parlaq,
Dünya oyun-oyuncaq.
Məni uşaqdan uşaq,

Gəncdən də gənc etmisən.

## Olmayacaq

Qoluma girəcək yenə də qızlar,
Əsən xəfif külək O olmayacaq.
Hansısa baxışlar nəsə deyəcək,
Nə arzu, nə istək O olmayacaq.

Bəlkə, yaşanacaq yeni bir nağıl,
Bu sevgi kitabı O olmayacaq.
Sevinci, atəşi, gur səadəti,
Kədəri, əzabı O olmayacaq.

Min yoldan qayıdam, min yol axtaram,
Beləsi bir daha doğulmayacaq.
Tapdığım gözəllər tez gözdən düşüb,
Sevdiyim mələklər  O olmayacaq.

## Mən

Hərdən düşməninəm, hərdən dostunam,
Özüm də bilmirəm hərdən kiməm mən.
Sənsiz çıxılanam, bölünənəmsə,
Sənlə toplananam, sənlə cəməm mən.

Gedirsən, yerini şaxtalar tutur,
İsti ürəyimi boran, qar tutur,
Yüz mikrob yoluxur, min azar tutur,
İndi soyuqdəymə, sətəlcəməm mən.

Dayanmır qəlbimin bu əndişəsi,
Gah əzab çəkirəm, gah eşq nəşəsi.
Bir saat işıqlı cənnət guşəsi,
Bir saat zülmətəm, cəhənnəməm mən.

## İki məkan

Qucaqlayıb yastığın sol küncünü,
Büzüşmüsən buz yataqda soyuqdan.
İtirmisən sən kələfin ucunu,
Fikirlərin çabalayır bayaqdan.

Ya səsindən biganəlik duyulub,
Ya getmisən buz sözünün badına.
İndi beynin sırsıradan ayılıb,
İndi düşür dediklərin yadına.

Öz xoşunla yuvarlandın sürgünə,
Baharını qışa, qara dəyişdin.
Al Günəşi yastığının küncünə,
Ağ əlləri boz divara dəyişdin.

İndi daha əlin yetməz, çətindi,
İndi daha çıxılmazda, dardasan.
Cənnətdəydin – bütün göylər sənindi,
Bir gör harda olmalıydın, hardasan?!

**27.10.2011**

### Sağ olsun

Məni buludlar üstə
gəzdirənim sağ olsun.
Ən dərin dəryalarda
üzdürənim sağ olsun.

Uzadıb əllərini
faş elədi sirrini.
Yaşamağın sehrini
sezdirənim sağ olsun.

İşıq saçar, nur çilər
hər ötən dəqiqələr,
Hər günümə nəğmələr
yazdıranım sağ olsun.

### İndi

Nə sabahdı, nə dünəndi,
Balıq kimi sürüşkəndi.
Görərsən əlindən çıxdı,
Düşdü, yumalandı İNDİ.

Ha dartışdır, ha çək uzat,
Nə bir saat, yarım saat.
Beş dəqiqəlik canı yoxdu,
Göz qırpımlıq andı İNDİ.

Dillər nağıl söyləsə də,
Ən gözəl sözlər desə də,
Gözlərdən ki, şeytan baxdı,
Nə var ağ yalandı İNDİ.

Yaxanı çəkmə qırağa,
Bu əzabdan qurtulmağa
Ən münasib, dəqiq vaxtdı,
Ən doğru zamandı İNDİ.

### Qalanı...

Bu çəmənin vədəsiz
Solanı bizlik deyil.
Ağır axan zamanın
Son anı bizlik deyil.

Sil üzündən boyanı,

Ruh yenidən oyanır.
Götür daha, riyanı,
Yalanı, bizlik deyil.

Sürünüb qarış-qarış,
Vurar  çatana alqış.
Allahım, özün qarış,
Qalanı bizlik deyil.

## Göz yaşı

Hər itkinin, hər dərdin,
Hər adamın, hər yaxının
çəkisinə uyğun
göz yaşı var bədəndə!

İki damla yaşla çıxanlar var,
Bir hönkürtüylə bitənlər.
Elə itki var gərək bir həftə ağlayasan sərasər,
Eləsi var bir saat, bir gün.

Məsələn,
90-da gənc dostumun qəfil itkisinə
bir gün ağladım.
Sonra ardınca şəhidlərə,
91-də Aydının ölümünə ağladım,
bir saat zar-zar,
Aqildən qəfil Qubada, Qəçrəşdə eşidəndə.
92-də doğma şəhərimin itkisinə üç gün ağladım –
keyləşib qaxaca döndü sol qolum.

Elə zaman oldu heç ağlamadım,
Elə itkilər oldu heç gözümü də qırpmadım,
tüküm də tərpənmədi –
Göz yaşlarım bitdi sandım.

Bəs, bu nə dərddi, ilahi,
40 gündü ki, sellənən göz yaşım
hüceyrələrimdən, iliklərimdən
qopara bilməyib,
bir qətrəsini, bir tikəsini də.
Bu nə sirdi, ilahi?

## Yalan

Bir yol qonsa dodağına,
Təkrar-təkrar deyiləndi.
Ayağı yer tutan kimi
Yeriyəndi, yüyürəndi.

Qanqaltək törəyib, artıb
Çoxalandı, böyüyəndi.
Çiçəkləri sıxıb, əzib
Çəmənliyi bürüyəndi.

Kəməndini hazırlayıb,
Qılıncını sivirəndi.
Ən alınmaz qalaları,
Hasarları devirəndi.

Bu təpədən o təpəyə
Yumalandı, dığırlandı.
Şişib-şişib, axır şartək
Partlayandı, dağılandı.

Sonda ayaq altda qalıb,
Sərçə kimi çırpınandı.
Bir çırtmalıq canı yoxdu,
Bircə çimdik qara qandı.

### Qanadlarımıydın...

Daşlaşdın, qaxaclaşdın,
kötüyə döndün.
Ağırlığın kürəyimi əzdi.
Əyilib sola, aşırdım çiynimdən,
Ağır yük kimi atdım səni.

### Həmişəlik ağrılar

Zorla xoş xatirələri,
isti sözləri
islaq dəsmal kimi
beynindəki yaralara qoyub soyudarsan.
Düşünərsən, keçdi daha,
unuduldu ağrıların, sakitləşdi beynin,
qəfildən hansı sözlə, hislə,
bilməzsən peyda olduğunu –
sanki bir əl sinənin altından girib
ürəyini bir dəfə sıxıb çıxır.

Barmaqlarının göyərmiş yerlərini
hiss edərsən,
Hətta gözucu baxıb
dərinin altından
barmaq yerlərini görəcəksən.

Elə onda beynindəki yaraların
qaysaqları qapaq kimi atılıb,
açılıb töküləcək
və təzədən başlayacaq işgəncələr, iztirablar.
Qorxacaqsan,

ağrıların həmişəlik olduğuna inanacaqsan.

## Peşmək

Yupyumşaq,
şipşirin...
Barmaqlarımın ucuyla toxundum,
Daddım –
çiyələk şirəsi dadında...
Sonra astaca, ehmalca,
Sıxdım, bükdüm ovcumu.
Uddum!
Şirinliyi boğazımı yandırdı.
Axdı dodaqlarımdan,
Süzüldü damaqlarımdan
Qanımın yeddi qat dərinliyinə,
Dadından bihuş oldum,
gicəlləndim...
Bildim, bu şirinlik
düz 21 il çıxmayacaq canımdan.

## Sual

Ən qəliz anlarda,
sözlərinin düzlüyünü
bilmək istədiyim zamanlarda
gözlərinə baxdım.
Dərin gözlərindən
pilləkən qoyub
ürəyini, beynini
gəzib çıxdım.
Nə kirpiklərini qırpdın,
nə incidin.
Saflığına,
duruluğuna
əmin oldum.
Sevindim,
daha çox sevdim.
İndi birdən
baxışlarını qaçıranda duruxdum.
Deməli, nəsə olub,
deməli, orda –
dərinliklərdə
nəsə yerində deyil,
Heç pilləkənə də –
enməyə,
düşməyə,
qalxmağa da
gərək yoxdu;

Neynəmisən?

## Əgər...

Əgər bircə dəfə
səni
beynimin dərinliklərindən
çıxarıb
yerinə nəsə qoymağı bacarsaydım,
Əgər ürəyimin üstünə
bələdiyim ürəyini
çıxarıb ovcumda saxlasaydım,
mələşən,
çığrışan,
ağzını açıb yem istəyən
hüceyrələrimi
süni qidalarla doyuzdursaydım,
Əgər səni cəmisi bircə dəfə,
heç olmasa, bircə saatlığa –
ya futbola baxanda,
ya tədbir aparanda,
kitab oxuyanda,
çıxış eləyəndə –
unutsaydım,
unuda bilsəydim,
çoxdan unutmuşdum.
Amma etmədim,
bacarmadım,
istəmədim,
ağlımdan da keçirmədim –
Mən bu yaşamı seçdim.
Beynimin hər an səni düşünməsini,
ürəyimin səninlə döyünməsini,
hüceyrələrimin səninçün çığırmasını...
SEVDİM.

## Guya ki...

Guya ki, görmürəm,
Guya ki, baxmıram,
etinasızam,
Vecimə deyil guya ki…
Amma gözümün ucu
telefondadı.
Ürəyim də
işığının yanmasına
bənddi ki,
pırıldayıb uçsun!

## Çildaq

Sən beynimi oyaq hala gətirib,
Bədənimi yazıq günə qoymusan.
Əzablarda, ağrılarda itirib,
Hər sitəmi, hər ələmi qıymısan.

Bu qorxudan tir-tir əsir ürəyim,
Baxışlarım don qalıbdı üzümdə.
Qulaqlarım sözlərini eşitmir,
Yüz ağrılı an qalıbdı gözümdə.

Öpüşündən isti keçmir qanıma,
Az öncənin duyğusunu oyatmır.
Diz çökməyin, yalvarışın, göz yaşın,
Hüceyrəmin uyğusunu oyatmır.

İndi daşam, indi heykəl, indi qum,
İndi məni hansı torpaq götürər?
Bu ağrını nə çıxarar canımdan,
Bu qorxunu hansı çıldaq götürər?

## Səyahət

Sənsiz getdiyim yer –
İstər Vaşinqton olsun,
İstər Milan,
İstər müqəddəs şəhər!
Heç nə –
Bir təyyarəlik zəhər!

## 7 dollar yarım

Harda olsam yaz mənə,
Heç olmasa hər gün bir meqabaytlıq yaz!
7 dollar yarımla aş okeanı,
çatdır özünü,
gecənin yarısı
açılan səhərimi
işıqlandır!

## Qalın qarı tapdalamaq…

Sənlə yazışmadan sonra
Vaşinqtonda gecə 4-də
Qəfil yağan qalın qarı tapdalamaq
Beş siqaret əvəzidi!
Hirsim sakitcə xışıldayır
ayaqqabımın altında,

Qəzəbim sürüşüb yumşaq
qar çalasına düşür,
Ehtirasımı üzümdən
lopa-lopa qar yuyub aparır,
Soyuq hava nəfəsimə dolub
ürəyimə çökür –
Darıxmağım keçir.

**17.04.2014**

## Su

Aşqabadla Vaşinqtonun
suyunda nəsə
oxşarlıq tapdım!
Yupyumşaq!
Sürüşkən!
Şipşirin!
Lap belə bal kimi!

## Vaşinqtonda

Səhər yaz havası,
axşam bir qarış qar!
Bu təzada
alışmışam, artıq
dözümüm, təpərim var!

## Yəqin…

Ayrılan kimi
başlayır darıxmaq,
Darıxan kimi
səni düşünürəm,
Düşünən kimi
ürəyimin sızıltısı yenidən oyanır.
Sonra şübhələr,
əndişələr...
Beynim başlayır saniyə əqrəbi kimi
sürətlə işləməyə,
Bir saatda bir həftənin,
bir ayın
xatirələri keçir beynimdən.
Yəqin ona görə,
ona görə ki,
dodağımdan
dodağının,
bədənimdən
bədəninin
istisi çəkilməmiş
elə bilirəm ki,
bir aydı

Görmürəm səni.

## Daha gecdi…

Demədimmi gəl görk elə,
Belə yanma, dəli könlüm.
Bir kimsəyə indən belə
Çox bağlanma, dəli könlüm.

Mən deyəni eşitmədin,
Gəl indi yan, dəli könlüm.
Daha gecdi, qopammazsan,
Möhkəm bağlan, dəli könlüm.

## Əlac

Məni didən,
yoran
bu düşüncələrdən,
bu şübhələrdən
azad olmanın tək yolu
yatmaq.
Yatmaq,
gerçəkləri yuxu sananacan,
unudanacan
yatmaq.
… tərtəmiz beyinlə
oyanmaq.

## Oyanantək

Oyanantək başlayır
Beynimin sualları.
Bədənimin bu mübhəm,
Bu ağrılı halları.

Yalanlar ütüləyir,
Küləklər itələyir,
Göydən yağış ələyir,
Yorulur xəyallarım.

Yalan düzə qarışır,
Beyin dözür, alışır,
Taleyilə barışır,
Bitir qeylü-qallarım.

## Qanadlarım

Dünənəcən bərq vurardı
Göydə yelkən qanadlarım.
Kainatı gəzdirərdi
Qalxıb-enən qanadlarım.

Büzüşdü qəfil yağışdan,
Bəd duadan, ya qarğışdan,
Bir kəmfürsət, kəc baxışdan
Pörşələnən qanadlarım.

Qoşaydı, indi tək olub,
Qaxaclaşıb kötük olub,
Kürəyimdə bir yük olub,
Daşa dönən qanadlarım.

### Ətir

«İfsenloren» qarışmasın «Hermes»ə,
Bənzər olan ətirləri dəyişdir.
Mesajları eyni yolla hər kəsə,
Cavabları yığan yeri dəyişdir.

Oxşar olan hər məkandan uzaqlaş,
Hər kişini öz ətriylə qoxla sən.
Bədənləri, sifətləri qarışsa,
Yaddaşında ətirlərlə saxla sən.

### Olmayacaq

Əgər bitsə bu şuxluğun,
Bu həyatın olmayacaq.
Damağında belə şirin,
Tamın, dadın olmayacaq.

Yığılacaq qanadların,
Yazda gülün, qışda qarın,
Bu gəncliyin, bu baharın,
Bu büsatın olmayacaq.

Bilirsənmi, qalarsan tək? –
Heç nə sənə olmaz kömək.
Bir də belə sevgi, istək,
Belə Qadın olmayacaq.

### Pərdə

Hər baxışı sehr yayan,
Hər addımı sirr olanım.
Danışdıqca ovsunlayan,
Açıldıqca bağlananım.

Hər sözüylə neçə məna,
Neçə mesaj yollayanım.
İmzasıyla qətlə fərman,
Ömrə işıq qollayanım.

Baxışında müəmmalar,
Gizli dünya daşıyanım.
Bir ömürü üçə bölüb,
Üçün də xoş yaşayanım.

Aç pərdəni Günəş girsin,
Aydınlansın dörd bir yanım.
Bir pərdəsi açılanda,
Beş pərdəsi qapananım.

## Sənsən…

Sənsən əzablarla dolu qürbətim,
Sənsən diz çökdüyüm vətənim mənim.
Sənsən ən yaxınım, vəfalı dostum,
Qanıma susayan düşmənim mənim.

Cəhənnəmim də sən, cənnətim də sən,
Gah nəğmə oxuyan, gah ağı deyən.
Ağır əzablardan tir-tir titrəyən,
Ruhtək rahatlaşan bədənim mənim.

Sən – gecəm-gündüzüm, sən – toyum-yasım,
Sənsən dar ağacım, sənsən xilasım.
Əynimə oturan ən düz libasım,
Boyuma biçilən kəfənim mənim.

## Rahatlıq

Bir qədər az sevəydin gərək,
sakit sevəydin.
Sən demə,
rahatlıq, səadət
dəli kimi sevməkdə yox,
sakitcə sevib,
it kimi sədaqətli olmaqdadır.

## Heç nə qalmayacaq

Ha qoruyum, ha can qoyum,
O şövq bir də olmayacaq.
O ilk  bahar bitdi daha,
Bir də geri gəlməyəcək.

Yoxa çıxır bir zamanlar
İşıq yayan kəhkəşanlar,

O möhtəşəm, gözəl anlar,
Ağlı başdan almayacaq.

Coşmayacaq damarda qan,
Bitəcək bu hiss-həyəcan,
Sən qurduğun bu qaladan
Heyif, heç nə qalmayacaq.

## Xəbər

Görənlər soruşur təzə nə xəbər,
Ölkədə, dünyada nə yenilik var?
Görən nə danışsam sevinər üzlər,
Görən nə söyləsəm razı qalarlar?

Hüsnü Mübarəkdən, Bəşər Əsəddən,
Ərəb baharından, yunan qışından,
Mavi Mərmərədən bəlkə danışım,
Şimalda daşqından, cənubda qardan
Vanda zəlzələdən bəlkə danışım?

Amma bu xəbərlər mənimki deyil,
O ölkə, bu şəhər mənimki deyil!
Mənim ayrı dünyam, ölkələrim var.
Doludu qəribə yenilikləri,
Mənim danışmağa öz xəbərim var.

Mən öz əhvalımdan danışım gərək,
Sehrli halımdan danışam gərək;
Mənim ölkəmdəki bu zəlzələdən,
Ruhumun düşdüyü bu vəlvələdən,
Beynimdə sönməyən şübhələrimdən,
Danışım gərək.
Qəlbimdə titrəyən duyğularımdan,
Qiyamdan, üsyandan danışım gərək.

Məni ayırmısan bütün dünyadan,
Beynimdə qaynayan tək xəbərimsən.
Bağladın üzümə yenilikləri,
Yeganə möcüzəm, şok xəbərimsən.

## Xəzinə

Kimisi yerə dəyər,
Kimisi taxta çıxar,
Nə təcrübə, nə ağıl? –
Nə çıxar baxta çıxar.

Aldatdın öz-özünü,
Gözləmədin pis günü.
Bulud gələr yaz günü,
Qarşına şaxta çıxar.

Əlin boş, qəlbin viran,
Dar günündə yox həyan,
Mat-məəttəl baxarsan,
Xəzinən saxta çıxar.

## Səndən yaxşısı

Əgər səndən yaxşısını
tapmağa ümidim olsaydı,
çoxdan atmışdım səni.
Əgər sənin eynini tapa bilsəydim,
həmən unutmuşdum səni.
Bir az sənə bənzərinə rastlasaydım əgər...
Amma neynim,
              səndən sonra yüz pillə boşdu.

## Sibir

Düşmə təlaşa,
Ümidlə yaşa.
Verin baş-başa –
O səbir, o sən.

Yolu ki azdın,
Eh, bu da azdı.
Əlinlə qazdın –
O qəbir, o sən.

Havasını ud,
Nəfəsini tut,
Sizindi bu yurd –
O Sibir, o sən.

## Ləkə

Hara söykənmişəm?
Unutmuşam...
Plaşımın arxası ağappaq toz…
Yer var bilinmir tozu,
tərtəmizdi sanki.
Adamlar da elədi –
bilmirsən, söykənirsən,
zaman keçir
görürsən
ağappaq ləkəsi çıxıb ürəyinə…

## Təqvim

Qarışdırdın vaxtı, günü, zamanı,
Günlər, aylar bir-birinə qənimdi.
Hardan bilim xoşbəxt günüm hansıdı,
Bu təqvimin hansı ayı mənimdi?

Şərik varmış bu payıza, bu qışa,
Baharın da saxta imiş vüsalı,
Ta yanvarı, dekabrı soruşma,
Bəlkə zorla xilas etdim fevralı.

Yaddaşımda yallı gedən günlərin,
Ən doğmasın qucaqlasam, hünərdi.
Zəhrimara çevrilən bu zamandan
Beş-üç təmiz gün saxlasam, hünərdi.

**Lap**

Bu əzaba yalvararam,
dur deyərəm, dura bilsə.
Şeytanla sövdələşərəm,
yeni qala qura bilsə.
Hər kim olsa vurularam,
səni unutdura bilsə.

**Savabım**

Hamının bir cavabı var,
Mənim cavabım ayrıdı.
Bu çəkdiyim ahdan sonra
Sənə xitabım ayrıdı.
Bu addıma, bu əmələ
Sonda savabım ayrıdı.

**Gəlir**

Çəkilir qasırğa, dağılır duman,
Yağış çisələyir, səngiyir tufan,
Tale gəmisinə yol açır zaman,
Qarşıdan bir rahat qərinə gəlir.

Meh əsir ruhumun həyəcanına,
Şeh çökür beynimin dörd bir yanına.
Əllərim qayıdır öz ünvanına,
Çırpınan ürəyim yerinə gəlir.

Hər vüsal, hər görüş toy-bayram idi,
Şirin təlaş idi, həyəcan idi,
Bir vaxt qanadlanan, uçan can indi,
Yanına sürünə-sürünə gəlir.

**Nə fərqi…**

Gedirsənsə, nə fərqi var, ya səssiz,
ya sözümü, baxışımı yozub get.
Nə fərqi var, azad burax, çox inan,
ya da yoxla, addımımı pusub get.

Bu sevginin nənnisində biz uşaq,
bitibdisə ha sarmaşaq, qovuşaq.
Fərqi yoxdu, ya candərdi barışaq,
ya da inci, ya da çığır, küsüb get.

Nə iblisim, nə mələyim deyilsən,
ümid dolu gələcəyim deyilsən.
İndən sonra ta gərəyim deyilsən,
fərqi yoxdu, ağlayıb get, susub get.

**Xoş gəlib**

Xoş gəlib dağlara, səfa gətirib,
Bəxtəvər eyləyib Leriki gözəl.
Ayağı dəydiyi torpaq sevinir,
Gəzir hər yamacı, hər diki gözəl.

Udsun dağ küləyi, dağ havasından,
Dadsın dağ neməti, dağ səfasından,
Sıyrılsın günəştək öz yuvasından,
Olsun həmənki qız, həmənki gözəl.

Yaddaşı dincəlsin özün yormasın,
Beynini hər türlü fikir sarmasın,
Bir sözdən yüz cürə söz çıxarmasın,
Baxmasın üzümə çəpəki gözəl.

**Uduzdum**

Niyə bəd gətirdi, çarəsiz qaldım? –
Təzə-tər günləri çin-çin uduzdum.
Əlimdə üç tuzdu, nə fəndə düşdüm? –
Özüm də bilmədim neyçün uduzdum.

Var-dövlət tükəndi, xəzinə bitdi,
Tapdığım səadət biqəfil itdi.
Bu zəhmət, əziyyət havayı getdi
Mayasın itirdim, xərcin uduzdum.

Nəyim varsa sənə əyan eylədim,
Qızırğalanmadım, qurban eylədim.
Niyə bəxtim mənə üsyan eylədi? –
Ömrümün ən böyük mərcin uduzdum.

**Bir günəş eylə…**

Tanrının yerdəki əziz bəndəsi,
Məni də mülkündə kirəkeş eylə.
Artır qüvvətimi, çoxalt gücümü,
Sıfırı bir eylə, biri beş eylə.

Qolla fərmanını,
əmrini qolla,
Çıxaram sınaqdan – testini yolla,
Üşüyən qəlbimə istini yolla,
Odlu baxışını gur atəş eylə.

Durulan gölünəm, daşan selinəm,
Kölən, cangüdənin, qulun, dəlinəm,
Ovcunda yupyumşaq plastilinəm,
Yay məni, yenidən bir günəş eylə.

**Yaxşı ki…**

Düşünəndə hər görüşü dərd verən
Eşqi bir də yaşamadım yaxşı ki.
Bu ağrıya, bu əzaba dur dedim,
Dönüb başdan başlamadım yaxşı ki.

Röyasından zamanında oyandım,
Son saatda, son anında oyandım.
Payızında, xəzanında oyandım,
Şaxtasında qışlamadım yaxşı ki.

Baxıb gördüm gülü solub, çürüyüb,
Boz rəngləri yaddaşımı bürüyüb,
Bu sevgini boş çuvaltək sürüyüb,
Təzə ilə daşımadım yaxşı ki.

**31.12.2011**

**Dəyiş**

Qovrulursan gör haçandı
Qəlbin bişdi, bağrın yandı.
Bəsdi, daha çox uzandı,
Bu ağır əhvalı dəyiş.

Bu dumanı, toranlığı,
Bu zülməti, qaranlığı,
Bu xaraba viranlığı
Bu qorxulu halı dəyiş.

Yaddaşını didən, oyan,
Qəm püskürən, əzab yayan,
Eyni sözü təkrarlayan,
Bu yarımcan valı dəyiş.

**Dünən, bu gün...**

Dünən səni ağlıma gətirən kimi
bir addım da göyə qalxırdım,
gözlərimin işığı artırdı,
qanadlanırdı sözlərim.
Əlimi açıb
boş havada da hiss edirdim səni
söykənəcək kimi,
xəzinə kimi –
gücüm çoxalırdı.

Bu gün əlim boşa gedir,
səndələyirəm,
boşluğa çevrilir
söykənəcəyim.
Sənin qəfil yada düşməyin
bıçaq zərbəsidi –
Bükülürəm,
gözlərimə kədər çökür,
sözlərim büdrəyir,
kəkələyirəm.

## Çevrilirsən…

Nə danışım, nə deyim,
Tükəndim, yoxdu heyim,
Candərdi elədiyim
Boş işə çevrilirsən.

Bomboz sözlər, cümlələr,
Təkrar-təkrar nəğmələr,
Heysiz, taqətsiz qalıb
Dodağımda kəlmələr –
Vərdişə çevrilirsən.

Görünürsən kölgətək,
Bitir coşqum, heyrətim.
Yadlaşırsan get-gedə,
Unudulur surətin –
Keçmişə çevrilirsən.

## Bilmir

Bir sirri bilən adam,
Sirrin beşini bilmir.
Çox bilməyə çalışan,
Deməк, işini bilmir.

Nə etiraf, nə düz söz,
Heç biri kömək olmur.
Heç nəyi axıracan
Anlayıb, bilmək olmur.

Yerin üstünü bilən,
Yerin təkini bilmir.
Yatır qucaq-qucağa,
Ən yaxın adamının
Gözünə baxa-baxa
Beynindəkini bilmir.

## **İki qütb…**

İndi halım hər dəqiqə dəyişir,
Bir az sonra nə olacaq, bilmirəm.
Beynimdəki hansı işıq sönəcək,
Alışacaq hansı ocaq? – bilmirəm.

Xatirələr gah qəm yayar, gah sevinc,
Dərdlər qovar canavartək zülmətə.
Zümrüd quşu qanadında qaytarar
O işıqlı anlarıma – cənnətə.

Yuxularım sehr dolu, sirr dolu,
Ayılanda kim olacam, bilmirəm.
Hirs içində qəzəbindən titrəyən,
Yoxsa sevən, xoşbəxt adam? – bilmirəm.

Mən beləcə iki qütbün içində,
Odla şaxta, baharla qış kimiyəm.
Gah diriyəm, gah ölüyəm, gah dəli,
Bəyaz alqış, qara qarğış kimiyəm.

## **Yat…**

Beynindəki bu qaynaşan dərdləri
Unutmağın bir yolu var – yıxıl yat.
Yuxun yoxsa şərablardan nuş elə,
Çək başına, viski, araq, çaxır, yat.

Keçmiş olsun yaşananlar, olanlar,
Şükr elə ki, hələ yenə qalan var.
Özün tovla öz başını yalanla
Kim danışar indi sənə nağıl, yat!

Düşündükcə bu dərd səni yeyəsi,
Gözünü yum, gəlsin tütək, ney səsi,
Hər günahın öz sahibi, yiyəsi,
Qəm eləmə Tanrı göydən baxır, yat.

## **Necə**

Necə bölünmüsən bir neçə yerə,
Bu qədər gücü sən hardan almısan?

Nə yaxşı yorulub, tükənməmisən,
Nə yaxşı sustalıb qocalmamısan?!

Baxışın, gülüşün, sözlərin yetim,
Səni dolu döyüb, külək aparıb.
Gözlərin, qolların yiyəsiz qalıb,
Səni qəfil tufan çoxdan qoparıb.

Lap yığıb, toplayıb, calasan yenə,
Açıq görünəcək çatlaq yerləri,
Qapqara qalacaq tapdaq yerləri,
Dümağ ağaracaq yamaq yerləri.

Gündüzlə gecəsən, ağla qarasan,
Səni yığmaq olmur, calamaq olmur.
Doğmadan doğmasan, yaddan da yadsan,
Səni tutmaq olmur, tullamaq olmur.

### Qəlp

Mən elə bilirdim təkcə mənimsən,
Sakitcə gəzdiyim öz çəmənimsən,
Hər gülün, çiçəyin mənimçün açır,
Hər qoxun, hər ətrin təkcə mənimdi.
Qarşıma qoyulan bu dolu tabaq
Qiymətli xəzinə, külçə mənimdi.

Demə, göz oxşayan bu çəmənliyin
Çiçəyini dərən bəxtəvər də var.
Gizli xəzinənin yerini bilən,
Qızılına sahib bəndələr də var.

Daha bu çəməni necə adlayım,
Bu ətri içimə necə çəkim mən?
Qızılı qəlp çıxan bu xəzinəni,
Hansı cəhənnəmə açıb töküm mən?

### Üzündən keçən kölgə

Yüz sözdən ən düzünü o dedi,
suallarımın ən dürüst cavabı,
deyə bilmədiklərinin rəsmi idi –
üzündən keçən kölgə.

### Yenə…

Bu yalana inansan,
su versən, pöhrələsə,
xeyri yoxdu yüz düz söz,
bu zoğu dəhrələsə,
yenə də güc alacaq,
yenə yalan qalacaq.

* * *

Surğuclayıb yüz ağrını, əzabı,
Dərd içində səadətdən gülmüşəm.
Xoş anların yapışmışam yalından,
Göz yaşımı gülüşümlə silmişəm.
Ustadımın heykəlinin önünə,
Aşıb-daşan məhəbbətlə gəlmişəm.

Sən də bilib üzbəüzdən nur kimi,
Xoşbəxtliyi quca-quca çıxmısan,
Baxmamısan yoldan ötüb keçənə,
Qollarını açа-açа çıxmısan.
Plaşını yelləmisən qanadtək,
Sevincindən uça-uça çıxmısan.

Mən nə deyim bu halətə, bu hala?
Demək hələ çalxalanır dənizim.
Sevgimizdən qımıldanır Füzuli,
Sevinir ki, ruh yaşayır, əzizim.

**18.01.2012**

## Üç

İkisi keçib gedib,
Bu sevdadan bərk yapış.
Qoyma yuyub aparsın,
Ya tufan, ya qar-yağış.
Bir də olası deyil,
Bu məhəbbət, bu baxış…

Azdı, ya çoxdu demə,
Bir gündə iki görüş.
Giribdisə araya,
Acı söz, süni gülüş,
Bir də qayıt, bir də dön,
Təzə olsun bu gəliş.

Qayıt, çırpınan qəlbi,
Titrəyən təlaşı gör.
Gözlərdə dənələnən,
Sevgi dolu yaşı gör.
Səni buraxmayacaq,
Sehrli baxışı gör –
Atalar üçdən deyib.

## Öskürək

Qaçan yuxunu yüyürdəndi,
Qonşuları deyindirən, söydürəndi,
Kürəyinə bıçaq kimi saplanandı,
sinəni göynədəndi,
bədənini titrədəndi,
İstəmədiyin görüşdən,
içindən süzülməyən öpüşdən
qaçmağa bəhanəndi.

### Strepsils

Adın çətin, dadın şirin,
Sümürdüm, boğazımdan süzüldün.
Sinəmdəki öskürəyi saxladın,
sonra əllərimdən tutub
məni cənnətə yolladın.

### Sonda

Sonda bildim
hər kəsin özünə
            çalışdığını –
sənin çiçəkdən-çiçəyə qonub
            şanına bal daşıdığını,
mənim öz əlimlə
            kəndirimi hördüyümü
            sonda bildim.

### Pozuldu

Adlarımız yanaşıydı nə vaxtdı,
Heç bilmədim haçan adım pozuldu.
Bədənimin istiliyi çəkildi,
Damağımın şirin dadı pozuldu.

Sellər axdı, sular keçdi aradan,
Sona qədər olammadın yarıdan.
Kim saxladı bu röyanı yarıda,
Bu nağılın sonu, ardı pozuldu.

Yaşatdığın günlərimə baxırdım,
Naxış-naxış, ilmə-ilmə baxırdım.
Nootbukda sanki filmə baxırdım,
Düyməsini qurdaladım, pozuldu.

### Bitib

Daha qanad açıb havalanmıram,
Daha o həvəsim, o halım bitib.
Daha gələcəklə maraqlanmıram,
Daha arzularım, xəyalım bitib.

Anladın çox şeyi sonradan, adam,
Oldun adi bəndə, sıradan adam.
Məndim yeri, göyü sarsıdan adam,
İndi o büsatım, cəlalım bitib.

Bir sevgi yaşadım, əzabı məlum,
Günahı, cəzası, savabı məlum,
Bütün sualların cavabı məlum,
Ən pisi odur ki, sualım bitib.

### Xəbərin yox

Hələ bir az müqavimət göstərib,
Dava salıb hələ hay-küy edirsən,
Bilmirsən ki, bu son səhnə, göstəri,
Bilmirsən ki, qurtarırsan, bitirsən.

Bədənimin o istisi azalıb,
Gözlərimin işığını buz alıb,
Dodağımda öpüş-öpüş sozalıb,
Gözlərimdən qırpım-qırpım itirsən.

Boylanıram uzaqlaşan kölgənə,
Yox olursan axırıncı döngədə.
Xəbərin yox, inanmırsan bəlkə də,
Xəbərin yox, Allah haqqı, gedirsən.

### Məni anla

Bir gün sevgi, bir gün nifrət,
Fikrim atıb-tutur məni.
Bir baxışı gəl-gəl deyir,
Bir gülüşü satır məni.

Anlamıram bu kələyi,
Qorxur nədən, sevir nəyi?
Bədəni, beyni istəyir,
Qəlbi niyə atır məni?

Bu olaya qalmışam mat,
Tanrım, sənsən indi nicat.
Ya bir yolluq sirrin anlat,
Ya bir yolluq bitir məni.

### Yüz əlac

Bu dərddən ötməyə yüz əlac tapdım,
Birini özümə götürmədim heç.
Mənə elədiyin yaxşılıqların
Yerini unudub itirmədim heç.

Tanrım yol göstərdi, bir oyan dedi,
Bir az irəli dur, bax, boylan dedi,
Bütün addımlarım dur, dayan, dedi,
Bu yolu yarıda bitirmədim heç.

Nə olsun ruh gəlib, indi təbim var,
Bu haldan, əzabdan yıxılmaq olar.
Nifrət eləməyə yüz səbəbim var,
Birin də ağlıma gətirmədim heç.

### Bura

Burda yollamışdım ilk mesajları,
Burda yaranmışdı ilk həyəcanım,
Burda yaşanmışdı ilk təlaşlarım,
Burdan başlamışdı sirli dastanım.

Məni bu otaqdan alıb, qoparıb,
Yapışıb qolumdan, biləklərimdən,
Cənnətə qaldırdın, göyə ucaltdın,
Nur yağdı, gün doğdu bəbəklərimdən.

Yuxuma girməzdi, röya sayardım,
Göstərdin həyatın həqiqətini.
Yaşatdın ilyarım öz qucağında
Dünyanın ən böyük səadətini.

Necə bəxş etmişdin, elə də aldın,
İşığım, günəşim yox oldu, itdi.
Kədərli nağılım, sirli dastanım
Burdan başlamışdı, burda da bitdi.

### Kiçik ölkəylə

Bütün imperiyalar belə dağılır,
Ağrıyla, əzabla keçir çöküşü.
Sınır, parçalanır sal buzlar kimi,
Şəhərlər dağılır, evlər sürüşür.

Mənim də bu nəhəng səltənətimin
Çöküşü deyəsən uzun çəkəcək.
Xoşbəxt saatlarım əriyib itib,
Gün-gün yoxa çıxıb, ay-ay çökəcək.

Məğlub əsgərlərdi xatirələrim,
Pərən-pərən olan ordudan qalıb.
Bir bölük əsirdi mühasirədə,
Bir bölük azıbdı, nigaran qalıb.

Kaş ki, bu dəhşətli uçqunlar altdan,
Birtəhər dikəlib qalxa biləydim.
Kaş ki, qırıq qəlblə, zədəli başla,

Bir cırtdan ölkəylə çıxa biləydim.

**24.10.2011**

### Gülüşlərin

Bir vaxt ruhumu
oxşayan,
Məni göyə qaldıran
gülüşlərin
İndi
beynimi deşir,
başımı ağrıdır,
əsəblərimi oyadır.

### Səndən qalanlar

Bu şeirlər, bu yazılar canımdan
Səni hiss-hiss, duyğu-duyğu qoparır.
Əllərini, tellərini astaca,
Gözlərini qorxa-qorxa qoparır.

Hələ çoxdur səndən məndə qalanlar,
Hələ nələr yazmalıyam mən, nələr…
Ağrı dolu, əzab dolu romanlar,
İnildəyən, sızıldayan nəğmələr.

Gərək hələ səni gün-gün itirib,
Görüşləri bir-bir sayıb çıxarım.
Hüceyrəmdən pinset ilə götürüb,
Ürəyimdən qaşıqlayıb çıxarım.

Son şeirimi yazdığım gün – son səhər,
Yaddaşımdan uzaqlaşıb itərsən.
Son baxışın bədənimi titrədər,
Gözümdəki son damlayla bitərsən.

**24.10.2011**

### Düşüncə

Səni
anlamağa
çalışdım,
gördüm ki,
səhər açılır…

### Quyu

Qupquru quruyan quyu
öz suyunu
arzuladığı qədər

təşnəyəm sənə…

## Ən uzaq

Demədim dərinə getmə? –
nə olur sənə, haqq olur.
Ən dadlı söz bir gün dönüb
qəlbi deşən bıçaq olur.

Yoxa çıxır azadlığı,
adam dönüb dustaq olur.
Acı dadır şirin həyat,
ən yaxın ən uzaq olur.

## Yaxın gəlmərəm

Sel kimi kökümdən qopartdın məni,
Bir də şırnağına yaxın gəlmərəm.
Cadunu canıma yaydı öpüşün,
Odlu dodağına yaxın gəlmərəm.

Sandım gül qoxulu ilk bahar imiş,
Gördüyüm ilğımmış, yayda qar imiş.
Sehrli qoynunda tilsim var imiş,
Sirli qucağına yaxın gəlmərəm.

Qarışdı saçımın qarası, ağı,
Oldu barmaqların rahat darağım.
Bir də barmağına dəyməz barmağım,
Bir də dırnağına yaxın gəlmərəm.

Atdım yaddaşımı nimdaş çarıqtək,
Soyundum sevgimi boz arxalıqtək,
Çırpınıb əlindən çıxdım balıqtək,
Bir də qarmağına yaxın gəlmərəm.

## Dua

Baxdın – baxışlarını,
Güldün – gülüşlərini,
Öpdün – öpüşlərini,
Daddım, dadını sevdim.

Odumu körükləyən,
Yanğımı küləkləyən,
Dilimdə çiçəkləyən,
Gözəl adını sevdim.

Gah güldün, gah ağladın,

Min qovğayla saxladın,
Tilsimlədin, bağladın,
Dua-cadunu sevdim.

## Gedək

Bitməyəcək bu ağrı, dərd,
Hər gün yenə boy verəcək.
Beynimizdə yatan zülmət,
Nurumuzu söndürəcək.

Keçdi deyib sevinərik,
Görərik qəm təkrar gəlir,
Sürüsünü haraylayıb,
O dərd, ələm təkrar gəlir.

Yüz yol nəfəs verdiyimiz
Eşqi əsəb öldürəcək.
Səni günah çərlədəcək,
Məni qəzəb öldürəcək.

Dalanadı bütün yollar,
Gəl bunu son bilib gedək.
Gəl ayrılaq istəmədən,
Sakitcə çevrilib gedək.

## Gücün Çatsa

Məndən umma çevrilməyi, dönməyi,
Olan-oldu deyib, gedən deyiləm.
Yumruğuma büküb bütün hirsimi,
Ürəyimdə söyüb gedən deyiləm.
Sən istəsən bütün yollar açıqdı,
Qalmayıbsa ürəyində sözün, get.

Neyləsən də getməyəcəm yanından,
Yalvarsan da, atmayacam mən səni.
Girməyəcəm bu günahın altına,
Qoymayacam gözlərimdən gen səni.
Sən istəsən bütün yollar açıqdı,
Gücün çatsa, özün yığış, özün get.

## Nə idi?

Gözlərini döyə-döyə baxarlar,
Anlamazlar bu toxunan nə idi?
Yüz qoxunu qovalayan bu ətir,
Bu təzə dad, təzə xanə nə idi?

İşıq səpdin nurla doldu dağ, dərə,
Min rəng verdin boz-bulanıq günlərə.

Atlananda qırğı kimi kəhərə
Çaşdılar, bu özgə xına nə idi?

Niyyətini gülüşünlə pərdələ,
Qocasını, cavanını fəth elə.
Qəfil yox ol, hamısını tərk elə,
Mat qalsınlar, bu fırtına nə idi?

**Quş balasıtək**

Səni bu zəlzələdən,
bu tufandan
              sonra da
körpə quş balasıtək
ovcumun içində
üfürüb saxladım.
Min il də saxlardım,
barmaqlarım arasından
dənlərimi tullamasaydın
başqasına yem kimi…
Ovcumu tərsinə çevirdim.

**Oyanmışam**

Unudulmaq qorxusundan,
Tənha qalmaq duyğusundan,
Daş kimi qış yuxusundan
İlk bahartək oyanmışam.

Min illərdi mürgüləyən,
Top dağıdan, mərmi döyən,
Pıçıltıya layla deyən
Qalalartək oyanmışam.

Canımda qanım qaynayır,
Beynimdə yellər oynayır,
Gözümdə çöllər oynayır –
Canavartək oyanmışam.

**Hər gün....**

Hər səhər yuxudan durub
Bir də vurulacam sənə,
Hər təzə sərhədi qırıb
Yüyürəcəm qənşərinə.

İlk dəfə görürmüş kimi
Oxşayacam barmağını.
Təptəzə rənginə baxıb
Titrəyəcəm dırnağının.

Qapqara, uzun saçların,

Ağappaq dişlərin hələ,
Harda görmüşəm bunları? –
Açması çətin məsələ.

Ya yerişin, ya baxışın –
Yüz sevgiyə bəhanədi.
Tilsimində ömürlüyəm,
Əlac yoxdu, çarə nədi?

Dinmə, saxla sözlərini,
Hər birində sevgi dadı.
Dar günümə saxlayacam,
Hər kəlmən təzə sevdadı.

* * *

Dincəlməyini sevirəm –
nə bbm, nə sms, nə zəng,
nə musiqi, nə kitab, nə düşüncə...
Beynimi dincə qoymuşam,
Gözlərim yumulu gözündə,
nəfəsim, duam üzündə –
yuxuna keşik çəkirəm...

Göyün yeddinci qatında...
Yığılar bədənimin ağrı-acısı,
bir topa qan olub sıçrayar ayaqlarımın ucuna,
şimşək çaxar, ocaq yanar,
barmaqlarımdan qopar,
pırıldayıb uçar ağrılarım –
Göyün yeddinci qatına düşərəm,
çəkisizlikdə,
ağrısız,
təzə doğulan sapsağlam uşaq kimi...

**BİR SAAT**

Altı ay qabaq tullandı əqrəblər –
uddu səni, yedi səni,
yerindən-yurdundan elədi,
evsiz-eşiksiz qərib kimi
sərgərdan qaldın.
İndi gecənin yarısı tapıldı yuvan.
Di gir yerinə, çək başına əqrəbləri,
xumarlan, yat doyunca.
Düz altı ay heç kimin yadına düşməyəcəksən.
Sonra yenə başlayacaq viranəliyin...
Yazıq, bəxtsiz bir saat!

**Xoşbəxt günüm**

Sənin
ağlımdan,
beynimdən,
içimdən,
hüceyrələrimdən çıxdığın,
canımın səndən qurtulduğu gün
ən xoşbəxt günüm olacaq!
Olacaqmı?

**Məktub**

Bir ömürlük görküm,
neçə illik ərkim!

Yaşlısan, qocasan
Dünyagörmüşsən, ucasan –
Zirvəsən, dağsan!
Hərdən ayıqsan, gəncsən,
hərdən
ərköyün, küsəyən uşaqsan!

Öz aramızdı,
edəcəyim ərk deyil,
amma axı, sənin gücün çatan yük deyil
«O»nu sevmək!
Qısqansan da,
qovrulsan da,
hirs içində boğulsan da,
dodağını gəmirib-doğrasan da,
sevməlisən –
tərəddüdsüz-filansız,
nəfəs dərmədən, usanmadan!

Utanmadan!!!
Durmamalısan,
dayanmamalısan,
yorulmamalısan –
sevməlisən!

Ona görə ki,
O elə sevir!
Sən də ayıq olmalısan,
ayıq sevməlisən,
Onun kimi sevə bilməsən də,
Ona bənzər,
ona layiq sevməlisən!
Daim düşünmək,
daim titrəmək,
daim əsir, qul olmaqdı
Onu sevmək!
Onu sevmək –

çiynində dünyanın ən ağır yükü varkən
quş kimi yüngül olmaqdı.
Ağır işdi,
Çətin işdi,
amma mənalı, mətin işdi,
bir ömür öyrəşəcəyin
ən gözəl adətdi,
sevincdi, mutluluqdu, səadətdi
Onu sevmək!
O ən çox özünü sevir –
nə bilim bəlkə hərdən məni sevir,
hərdən səni sevir,
Məncə, O ən çox sevəni sevir!

## Qar

Qışqıranları susdurub
durdurdu yüyürənləri.
Aldı, əllərinə aldı,
bütün cilov, yüyənləri.

Yavaşıtdı uçan vaxtı,
iti gedəni ləngitdi.
Hay-həşir yarımçıq qaldı,
Qaçhaqaçları səngitdi.

Düşünməkdən beynim şişib,
Sızıldamaqdan ürəyim.
Bəsdi diddin yaddaşımı,
Barı qar olsun örnəyin.

## Qar kimisən

Hələ ki, qar kimisən –
Təzə, bol, rahat, yumşaq, geniş,
dupduru, tərtəmiz,
məkrsiz, yalansız,
hiyləsiz.
Hələ ki, təptəzə qar kimisən –
göründüyün kimi.
Havanı udduqca ciyərlərim sevinir,
daddıqca dadının sirrini axtarıram.
Şirin şaxtandan bədənim süstləşir,
addımlarımı buludların üstündə atıram.
Hələ ki, təzə qar kimisən,
günəşin işıldamağına bəndsən.
Əridikcə çıxacaq üzə
gizlətdiyin hər nə var.
Hələ ki, qar kimisən.

## Son yazı

Ağappaq geyiminlə
Qardan da bəyazımsan.
Buraxmaram mən səni,
Alnımda son yazımsan.

### Gəlsin

Səni qəlbimdən,
beynimdən,
hüceyrələrimdən
çıxaracaq birini istəyirəm.
İstəyirəm gəlsin
qəfil tufantək
alsın əllərindən,
aparsın məni,
qurtarsın məni.

### Bu gün

Bu gün bir şəklini də sildim,
Təbəssümünü, gülüşünü
Sevinə-sevinə gəlişini sildim.
Hər şəklin dərd daşıyır indi,
beynimdə əzab daşıdı.
Sildikcə yüngülləşirəm,
çiynimdən yük götürülür.
Sənə aid sonuncu
xatirəni silləndə
yeni doğulmuş
uşaq olacağam.

### Vaxt

Ya tez keçsin,
ya ləngisin –
İndi bunun anlamı yox,
vaxt bütöv mənasızlaşıb.

### İstedadlı mələk

Sən sevməyi gözəl oynayırsan!
Başqasının ürəkdən, candan,
    səmimi sevgisindən də
    təbii görünür
    sənin sevgini oynamağın!

Vüsala çatmağı imitasiya edənlər çoxdu!
Amma sən darıxmağı,
    titrəməyi,
    kövrəlməyi,
    sevinməyi də
    gözəl oynayırsan!

Beləsi çətin tapıla! Təksən!
Təpədən dırnağa
yalanla, riyayla
yoğrulmuş
istedadlı mələksən!

## Sağ əlim

Vuracaqsan hədəfə,
Yanılmazsan bu dəfə.
Uzan ən düz tərəfə,
Sağ əlim.

## Günah

Gətirib, çıxmaza saldın məni,
döyükə-döyükə qalmışam.
İndi qalmaq zülmdü,
getmək günah.

## Gedərsən

Dörd yanın cənnətə dönər,
Çiçəkli yolla gedərsən.
Şükr edərsən Yaradana,
Dilində Allah gedərsən.

Qucaqlayıb buludları,
Uçarsan Günəşə sarı.
Göydən ulduzları dərib,
Yığıb bir qucaq gedərsən.

Qəfil dümağ işıq düşər,
Gördüyündən gözün şişər,
Əlin boşluğa ilişər,
Kəlləmayallaq gedərsən.

## Gərək

Bu əzabı yaşatmazdın gərək sən,
Bir az rəhm, bir az insaf edəydin.
Yalvarışlı baxışını saxlayıb,
Gedib gizli bir məkanda ağlayıb,
Bu sevdanı dağlayaydın, gedəydin,
Gərək məni buraxaydın, gedəydim.

* * *

Yüz yol «get» de, getməyəcəm,
Bir «gəl»inə yüyürəcəm.

## Bircə səbəb

Nə olsun ki, yüz səbəb var qalmağa,

Ayrılmağa bircə səbəb bəs eylər.

Yoxsan
Əlimi uzatsam toxunar, dəyər sənə...
Bilirəm ki, yerindəsən,
varsan,
amma ki yoxsan.

**Qopardım**

Abi-həyat, ilahi dad yox oldu dodağından,
dodağımı salladım,
Nə xalından, nə çiynindən titrədim.
Bədənimdən bir gizilti keçmədi,
Buz qayaya rastladım.

Səhər səndən qalanları düşündüm.
Gözlərimə bir-iki tel sataşdı.
Saçlarını darağımdan qopardım,
tulladım.

**Gözləmək…**

Pıqhapıq qaynayan çaydanın
daşıb köpüklənən suyunu
            qırağa tökərlər –
susar, köpü alınar,
            sakitləşər.
Qaynamağını, daşmağını gördüm,
Köpünü almalıydım, almadım.
Qarışdı çaydanın ərpi ilə suyun tamı.
Gözləmək lazımdı indi –
su durulana kimi...

**Dəniz**

Fırtınadan sonrakı dəniz
 sakitcə düşünər öz dəli halını –
Birdən ürpənər,
titrəyər,
dərinliyindən bir son dəli dalğa şahə qalxıb
çırpar üzünü üzümə,
sonra sakit-sakit
düşünər başına gələnləri –
Ağlayar dəniz,
sinəsindəki muncuq-muncuq göz yaşlarıyla.

**Özünə qayıt**

Coşub-daşırsan yenə də,
Heç nə görünmür gözünə.
Gülüşündən işıq axır,
Günəş yayılır üzünə.

Cənnət edirsən anları,
Ümidisən batanların,
Oyadırsan yatanları,
Gözlər bərəlir sözünə.

Yaşamağın yaraşığı,
Qırdın qocanı, uşağı,
Di bəsdir, dur en aşağı,
Özünə qayıt, özünə.

**Qəfil külək**

Bu nə qəfil külək idi,
Evin bacası yıxıldı.
Yerdə yastısı dağıldı,
Göydə ucası yıxıldı.

Küyə düşdü meyvə bağı,
Aşdı yerə üzüm tağı,
Şaqqıldadı tut budağı,
Narı, alçası yıxıldı.

Meydan oxuya-oxuya,
Döndü bir kabus-yuxuya,
Körpəsi düşdü qorxuya,
Gənci, qocası yıxıldı.

**Heç vaxt...**

Ürəyimin sol küncü
göyüm-göyüm göynəsə də,
beynim suallardan ağırlaşıb dağılsa da,
hirsimin ən şahə qalxan çağında
Kədərli üzünə,
        nəmli gözünə baxıb birdən anladım –
Heç vaxt ayrıla bilməyəcəyəm.

**Getmək...**

Bu qəmli üzlə qoyub,
Bu nəmli gözə qıyıb,
Getmək ayıbdı, ayıb,
Gedə bilmədim.

**Əgər...**

Əgər dodaqlarım, ya gözüm alışıb yanırsa,

dərim sızıldayırsa,
saçımdan dırnaqlarımacan darıxıramsa,
barmaqlarımın uclarındakı atəş
«Sən» deyirsə,
vücudum səndən ötrü təşnədisə,
hüceyrələrim ac göyərçinlər kimi
ağzını açıb mələyirsə –
Qələt eləyir mənim bu vurnuxan beynim.

### Mənim eram…

Gəlişindən 46 il əvvəl doğuldum,
Gəlişinə 39 il qalmış məktəbə getdim
əlifbanı öyrəndim…
Gəlişindən 19 il qabaq daddım sevginin dadını
Gəlişinə 14 il qalmış tamını da duydum.
Sevdim, ayrıldım, öyrəndim, oxudum.
Gəlişindən il yarım sonra bildim
Hamısı boşunaymış öyrəndiklərim…
Təzədən başladım hər şeyə…

### Adamlar...

Səni göydə yaşamağa kim qoyar?!
Bərk yapışar ayağından adamlar.
Boşa çıxsa əllərini uzadıb
Dartışdırar  balağından adamlar.

Kimdi sənin uçmağını sinirən?
Qarğış gələr: «qanadların qırılsın!
Dalğalanan nəğmələrin kəsilsin,
Şahə qalxan ağ atların yorulsun».

Bəd duadan qanadların keyiyər,
Yumrulanıb yıxılarsan torpağa...
Biri guya yarana bint gətirər,
Biri gələr kinayəylə baxmağa...

«Sənin axı nə işin var yuxarıda
Canın çıxsın, bizimlə çək zülümü...
Ayağını yorğanından çıxarma,
Başını qat, gözlə gələn ölümü»

Bir də halın olacaqmı sıyrılıb
Bu sürüdən baş götürüb qaçasan
Bir də qoşa qanad taxıb sevgidən,
Pərvazlanıb, havalanıb uçasan?!

Tanrı yenə qıyacaqmı o lütfü,
Bir də sənə baxacaqmı yaradan?
Bir göyə bax, bir cüt qanad nur saçır,
«Səninkidi, əl atır götür, ay adam».

## Aparır...

Yüz işıqlı xatirəni
bir yalan yuyub aparır,
Bir xəyanət işartısı
kökündən oyub aparır
Göz yaşlarım yaddaşımdan,
Hər nə var, soyub aparır!

## «D»lər

Yığıb-yığışdırmaq olmur «d»ləri,
İndi feillərim keçmiş zamanda.

## UZAQDA BİR ADAM VAR

Uzaqda bir adam var –
Varlığı-yoxluğu bilinmir.
Nə üzü tanış gəlir,
Nə saçları.
Gözlərinə min il baxsam
Heç nə yadıma düşməz.

Uzaqda bir adam var –
Yad da ondan yaxındı,
Yad da ondan doğmadı!

## Təki

Yüz oyun quraşdırıb
Min hoqqa çıxararam –
Düşərəm əsərinə…
Min Günəş yandıraram,
Min ocaq qalayaram
Bir işığın yerinə.
Təki darıxmayasan,
Təki təbəssüm qonsun
O qara gözlərinə...

## Sonra

Qovub otağına tərli bədəni,
Sonra yaş yastığı qucaqlayarsan.

## Xəfif qrip

Ən qəliz ağrılardan keçdim –
Dayanmadım,
durmadım
indi bu xəfif qrip neyləyəsidi ki mənə.

*   *   *

Əvvəl quzu qabırğası olmaq istədim;
sonra şişə çəkilmək,
sonra közdə o üz-bu üz çevrilib qızarmaq,
sonra, lap sonra
ağappaq dişlərinin arasında dişlənmək,
            dartılmaq,
            çeynənmək istədim....

## Çıxma beynimdən

Qurban olum, çıxma beynimdən –
elə et ki, sənsiz bir addım da atmayım,
sənsiz bir işim olmasın,
gecəmi-gündüzümü sənə görə bölüm,
yuxudan sənə görə ayılım,
sən varsan deyə yuyum əl-üzümü,
siqareti sənə görə çəkim.
Səndən baxım aləmə
elə et ki –
 şeiri sənə görə yazım,
evdən sənə görə çıxım,
işə sənə görə gedim.
Elə elə ki,
sənə görə sevim, sənə görə yaşayım,
diriyə sənə görə sevinim,
ölüyə sənə görə ağlayım…
Ən böyük zövq o işdi ki, orda sən varsan –
Tanrıdan ərməğandı, ilahi bəxşişdi.
Sən olmadığın heç nəyi qıyma mənə.
Çıxma beynimdən,
            ayrılma bədənimdən,
            ruhumdan sıyrılma…

***   *   ***

Hər şey qolunun gödəlməyindən başlayacaq…
Ovcundakı boşluğu duymayacaqsan.
Qolunun davamına çevrilən telefonu
harda qoyduğunu unutmağından
başlayacaq hər şey.
Hər şey bitəcək…
Heç nə...
başlayacaq…

***   *   ***

Səbəbini bilmədiyim bir hüzn var içimdə…
Belə baxanda hər şey OK-di –
Şəhər də yerindədi, küçələr də,
gecələr də, gündüzlər də yerində…
Guya, sən də yerindəsən…

Bəs bu nə qəm nəğməsidi – agaclar ağı deyir,
Bəs o qara bulud niyə tabuta bənzəyir –
keçir damların üstündən?

* * *

Necə də dopdoluyam səninlə –
ağlınla doluyam,
sözlərinlə, coşğunla, ruhunla doluyam,
heyrətinlə, saflığınla doluyam,
inadınla, fədakarlığınla, bəxş eləməyinlə doluyam,
ətrinlə, nəfəsinlə, baxışınla doluyam.
Gülüşün qanadlarımdı –
səmanla, göyünlə, torpağınla doluyam,
təmasınla, həyəcanınla, sevginlə doluyam.
Sənsən varım, varidatım, mülküm, dövlətim –
səninlə dopdoluyam.
Çox zənginəm, çoox…

* * *

Doydum –
adamlardan, söhbətlərdən,
bir-birinin eyni olan
məclislərdən, tədbirlərdən,
saxta, soyuq sifətlərdən...
doydum.
İndi ən çoxbilmiş adamın
ağzını açanda deməyib
dilinin altında,
ürəyinin neçənci qatında
gizlədib saxladığı
sözünü də bilirəm...
Söhbətlərin yalanını da,
düzünü də,
məclislərdə deyilən hər kəlmənin
kimə, hara hesablandığını da –
bilirəm...
Bu salamın arxasında nə durur,
bu gülüş nəyə görədi,
o baxış nə üçündü? –
bilirəm...
Doydum,
sevgilərdən də doydum –
doğrusundan,
saxtasından...
başlamasından,
şahə qalxmasından,
bitməsindən,
gəlməsindən,
getməsindən...

Yaşananlardan yaşanmayanları,
deyiləndən deyilməyənləri
gördüm,
duydum,
doydum,
gerçəklərdən,
yalanlardan doydum...
İndi ən gözəli
bir uca dağ başına çəkilib
kinayəli-kinayəli süzməkdi dünyanı...

**Son...**

Hirsin varsa,
demək yaşayırsan,
demək sağsan,
nəyəsə üsyanın, qəzəbin var,
etirazın, əsəbin var!
Vay o gündən ki,
hirssiz, soyuq, laqeyd olasan!
Dünyaya donuq gözlə baxasan!
Bax bu son olar,
son!

* * *

Qayıqsan –
fırtınalı dənizdə nifrətlə sevginin
ortasında qalmısan,
bir dalğa aşırırkən o biri dalğa saxlayır…
Görək hansı güc gələcək,
bu fırtınadan sonra dənizdə
necə yırğalanacaq bu qayıq –
tərsinə çevrilmiş hüznləmi,
yoxsa günəşin işığında
gözlərini qamaşdırıb oyanan çöhrənləmi?..

* * *

Səhər qandan analiz verəcəm…
Cavabını indidən bilirəm,
Həkim deyəcək ki,
qanında R çoxdu, lap çoox…

* * *

Sahil ona görə gözəldi ki,
sən varsan…
Sən varsan deyə
dəniz belə həzindi…
Bakı ona görə belə doğmadı ki,
sən varsan…

Sən varsan deyə
dünya belə
şipşirindi…

* * *

Əvvəlcə səhər ayılanda telefona baxmağı tərgidəcəm,
«Sabahın xeyir»li SMS-lərin seyrəldikcə…
Sonra telefonumu unudacam,
gecələr qolumun davamına çevrilməyəcək…
Sonra da səni unudacam –
sakitcə, ağrısız...

* * *

Nə dəniz görünür
nə göydələnlər – Dumandı!
Nə sən yadımdasan
nə yaşatdıqların – Cəzandı!
Nə uçmağa göy var,
nə atılmağa yer.
Qəzamdı!

### Siqareti tərgitmək

Siqareti tərgitmək,
atmaq,
buraxmaq,
tullamaq –
adına nə deyirsiz-deyin,
bu işi görmək istəyirəm!
Bilirəm ki, gizlətməklə,
uzaq durmaqla
alınmayacaq!
Qoxusunu duyan kimi
darıxacam,
tüstüsünü görən kimi
karıxacam!
Ən rahatı
elə gözümün önündə ola-ola
tərgitməkdi!
Təptəzə, dopdolu qutusu
qarşımda,
alışqanı üstündə!
İstəsəm yandırıb
birini sümürərəm,
ürəkdolusu bir qullab da vuraram,
ya da birinin oduna
o birini yandıraram...
Amma uzaq durmuşam –
yandırmıram,

çəkmirəm,
istəmirəm!
Bax belə,
gözüm baxa-baxa atıram səni!
Bir də ətrin məni çəkməz,
dadın məni ovsunlamaz!
Bir də
tilsiminə düşmərəm,
bir də öyrədə bilməzsən
o bomboz dumana,
o cansız tüstüyə məni.
Bu ciyər,
bu barmaqlar,
bu dodaqlar
bir də çətin,
çətin istəyə səni.

* * *
Yox, deyəsən, boşunadı bu əmək –
Çətin işdi
Səni atmaq,
Müşkül işdi
Səni tərgitmək!

## TAPDIM

İlişib bir küncdə qalan fikrimin
Düşünüb, daşınıb sirrini tapdım.
Dəyişən halımın səbəbin gəzdim,
Yüz səbəb içindən birini tapdım.

Bildim bahar gəlib yenə payızda,
Duyğum çiçək açdı cansız kağızda,
Çoxları üzərkən hələ dayazda,
Yaxşı ki, adlayıb dərini tapdım.

Şırıltı duyular mürgülü qandan,
Ayılır yuxudan, açılır dondan.
Beş ildi xəbərim yoxuydu ondan,
İtmiş ürəyimin yerini tapdım.

## GƏLDİM

Yenə bu gün diri-diri,
Birtəhər açdım səhəri.
Aşdım bütün döngələri,
Öz boyumdan uca gəldim.

Böldüm gecəni yüz yerə,
Əyildim qoydum diz yerə,
Döndüm namaza dübarə
Ya Məkkəyə, Haca gəldim.

Bu mərəz nə mərəzidi,
Bilməm nəyin əvəzidi,
Bu yaş adlı tərəzidə
Ürəyimdən qoca gəldim.

Bir az durdum, ar eylədim,
Təzə qəm nübar eylədim,
Yuxumu təkrar eylədim,
Sənə uça-uça gəldim.

## UŞAQ, UŞAQ… BALACA UŞAQ

Mən dağdan danışıram,
Sən arandan
Mən Turandan danışıram,
Sən İrandan
Mən ayazdan danışıram,
Sən borandan –
Uşaq, uşaq… Balaca uşaq.

Yoluna çiçəklər sərim,
Saçına çələnglər hörüm –
sənə gülməli görünür,
Özümü çarmıxa çəkim,
Lap belə gerçəkli ölüm –
yenə gülməli görünür.
Uşaq, uşaq… Balaca uşaq
Bax indi mən sənə
kino göstərəcəyəm,
roman oxuyacağam,
nağıl danışacağam
Sən bu kinonu,
Sən bu romanı,
Sən bu nağılı
Ömür boyu
Yadında saxlayacaqsan.
Sən bu kinodan,
Sən bu romandan,
Sən bu nağıldan,
Ağıllanacaqsan –
Ağlayacaqsan.
Ağladıqca, az-az güləcəksən,
Ağladıqca yekələcəksən, –
Uşaq, uşaq… Balaca uşaq.
Onda dağa aran deməyəcəksən,
Onda Turana İran deməyəcəksən,
Onda ayaza boran deməyəcəksən,
Onda çələnglərin,
Onda çiçəklərin
qədrini biləcəksən.
Onda biləcəksən

çarmıxa çəkilmək necə olur.
Sevgidən ölmək necə olur,
Uşaq, uşaq… Balaca uşaq.

## ƏN DOĞMA İNSAN

Sən stol deyilsən,
stul deyilsən,
Tramvay deyilsən,
metro deyilsən.

Bezmədinmi daha
eyni yolu gedib-gəlməkdən?
Yorulmadınmı
eyni sözü eşitməkdən,
eyni sözə kədərlənib
eyni sözə gülməkdən?

Qatartək relsdən qırağa
çıxmaq – Qadağan!
Çərçivələri qırmaq,
Bütləri yıxmaq – Qadağan!

Amma bezəcəksən,
Amma yorulacaqsan,
bir gün
çərçivələri qırıb,
bütləri yıxacaqsan,
relsindən çıxacaqsan.

Onda qorxma,
hər müşkül asan olacaq,
Çünki yıxıldığın yerdə
əlini uzadan,
köməyinə çatan
ən doğma insan olacaq.

## ÇƏRLƏDİM

Hər dərdim səninlə çıxır,
Ağrım söhbətinlə çıxır
Sözü kəlbətinlə çıxır
Çərlədim, Allah, çərlədim.

Donub qalıb dodağında
Söz deməyə dili yatmır
Yüz addımın qabağında
Bir addıma gücü çatmır
Çərlədim, Allah, çərlədim.

Görünür, taleyim budu

Mən elə belə öləcəm
Sən gülə-gülə baxassan,
Sən görə-görə öləcəm
Çərlədim, Allah, çərlədim.

## QUYU

Özümü keçilməz çaya,
Üzülməz bir suya saldım.
Özüm-özümə tor hördüm,
Özümü quyuya saldım.

Öz əlimlə bu kəndiri
Öz boğazıma keçirdim.
İlgəyini özüm çəkdim,
Düz boğazıma keçirdim.

İki dünya arasında
İndi gedib-gəlməkdəyəm.
Nəfəs alıb yaşamaqda,
Nəfəs verib ölməkdəyəm.

## QURTUL, GÖRÜM

Di indi çıx bu quyudan,
Di bu tordan qurtul, görüm.
Özün-özünü saldığın
Bu azardan qurtul, görüm.

Kəsilməyən səsdən, ündən
Açılmayan bu düyündən.
Yayda şahə qalxan gündən
Qışda qardan qurtul, görüm.

Bütün yolları qar alıb,
Bütün çəmənlər saralıb.
Gen dünya indi dar olub –
Gəl, bu dardan qurtul, görüm.

## QURTULMASAN BATMA YASA

Qurtulmasan batma yasa,
Qarğıma payıza, yaza.
Ya taledi, ya bir qəza,
Yolun saxlayacaqmısan?

Hər nədisə sənsən varı –
Həm qıfılı, həm açarı.
Tale açan qapıları
Vurub bağlayacaqmısan?

Havalanıb sarı simdən
Ya cadudan, ya tilsimdən.
İndi bu yaşda, bu sində
Durub ağlayacaqmısan?

### AĞLA

Ağla, qoy könlün yuxalsın,
Ağla, düşmənlər kirisin.
Görüb sənin bu halını
Bütün dinənlər kirisin.

Kimsə çatmaz sən çatana –
Göyün yeddinci qatına.
Baxıb bu gün ovqatına
Ölü dünənlər kirisin.

Səni göylərə qaldıran,
O qüvvəyə əyil hər an.
Dildə tövbə, əldə Quran –
Geri dönənlər kirisin.

Çatıb çoxunun axırı,
Çıxıb çoxunun paxırı,
Durduğun yerdən yıxılıb
Səndən enənlər kirisin.

### MƏN GƏLİB ÇATANDA GETMİŞDİN ARTIQ

Ümidim qalırdı səni görməyə,
O küncdə bir nərgiz topası kimi.
Açdım otağının qapısını mən
Qırxıncı otağın qapısı kimi.

Mən gəlib çatanda getmişdin artıq,
Kimsədə hövsələ qalmayıb indi.
Bütün sualların cavabı aydın,
Cavabsız məsələ qalmayıb indi.

Mən nağıl gəzirəm, bilmirəm hələ
Doqquzdan beşəcən iş saatıdır.
Sonra da avtobus, yol, ev, ailə
Bu cızıq hər kəsin öz həyatıdır.

Kimsənin gücü yox, cızıqdan çıxa,
Möcüzə axtara, ya nağıl gəzə.
Kimsənin həddi nə kənara baxa, –
Taleyin ən əziz qonağın gəzə.

Təkcə mən qalmışam nağıla uyan,
Yüz addım atmışam cızıqdan çölə.

Mənə bir addımı olmadı qıyan,
Məni bir anlayan olmadı hələ.

## QİSAS

Adamı göyə qaldırıb
Sonra ki, yerə vururlar.
Elə bir sıfır artırıb
Sonra sıfıra vururlar.

Gedir, qalmır izi, tozu,
Hər gələn bir yerə yozur,
Adını lap başdan pozub
Lap, lap axıra vururlar.

Kündə kimi ovxalayıb,
Əzib, büküb, buxovlayıb,
Qışda buz üstə tullayıb,
Yay vaxtı qıra vururlar.

## VAXTIM QALMADI

Ha çalışdım, ha yenə
Çatmadım sən gedənə,
İncimə, bircə dənəm,
Yenə vaxtım qalmadı.

Ümidlə baxdım göyə,
Kaş əqrəblər əriyə,
Kaş saatlar geriyə
Dönə, vaxtım qalmadı.

Vəhşidilər nədilər,
Dənlədilər, diddilər
Vaxtımı da yedilər,
Sənə vaxtım qalmadı.

## SON

Bütün bunlar bir nağıldı,
Açdım mən sizə danışdım.
Hamının xəbəri oldu,
Guya gizlicə danışdım.

Cəmi bir fəslin içində
Doğuldum, yaşadım, öldüm.
Ölümün dadına baxdım
Həyatın qədrini bildim.

Bu nağıldan havalanıb

Səmada qonaq qaldılar.
Göylərdən qayıdıb gəlib
Yenə də uşaq qaldılar.

Göydən on üç şeir düşdü,
Səhv saldım, dedim, almadı.
Hamısını Sizə verdim –
Mənə biri də qalmadı.

## YAXŞI Kİ BU SON OLMADI

Yaxşı ki, bu son olmadı
Yaxşı ki, son anda durdum.
Bu cığır aparıb məni
Qayadan atanda durdum.

Bu gecə gördüyüm yuxu,
Yaxşı ki çıxmadı doğru.
Baxışların oğrun-oğrun
Nəsə anladanda durdum.

Üstümdən atdım kəfəni,
Keçdim ən dərin dərəni
Bıçaq sümüyə dirənib,
Sümüyə çatanda durdum.

## BU HƏFTƏ…

Məndən başqa kim yığardı,
Sənin bu əkdiklərini?!
Dağ çəksə, silkələnərdi –
Bu həftə çəkdiklərimi.

Bu ağrını, bu əzabı
Hər aşiq çəkə bilməzdi.
Fərhad uzaqdan keçərdi,
Məcnun yaxına gəlməzdi.

İlahi, bu nə möcüzə,
Mən necə salamat qaldım?
Özümə heyrət elədim.
Özüm özümə mat qaldım.

Bildim bu «balaca uşaq»
Dağı yıxmağa qadirdi
Səndən qorxmayana lənət,
Səndən qorxmayan kafirdi.

## MƏNİM BƏSİMDİR

Mən burda qovrulub, tək darıxanda
Sən də uça-uça gəlmisən onda.
Sən xoşbəxt olmusan hansısa anda,
Hansısa saatda – mənim bəsimdir.

Hərəni bir cürə salır qarmağa,
Sevda caynağından qaçma uzağa.
Səndə həvəs olub qisas almağa
İndi ha allat da – mənim bəsimdir.

Sənə «uşaq» deyib, – düz ad vermişəm,
Göylərə qalxmağa qanad vermişəm,
Sənə bir azacıq həyat vermişəm,
Elə bu həyat da mənim bəsimdir.

## QURBAN VERMƏ, GƏL

Aldanma «qarşıda cənnət var» – deyə
Ona bu taleyi qurban vermə gəl.
Uzaqda görünən boz ilğımlara
Sən bu xoşbəxtliyi qurban vermə gəl.

Ən gözəl hissini qara-qorxunun,
Saxta adətlərin əsiri etmə.
Sənə qismət olan uca duyğunu
Beləcə amansız öldürüb getmə.

Bu hiss ki, Tanrının ərməğanıydı,
Öldürdün, cavabın sabah görərsən.
Bu söz deyiləndə dünya gözəldi,
Günaha batdınsa günah görərsən.

Cənnət söylədiyin o, «xoşbəxtliyə»,
Çatanda bilərsən nədi bu dünya.
O «gözəl cənnətin» meyvələrindən
Dadanda bilərsən nədi bu dünya.

Yoluna incilər sərsələr belə,
Başına qızıllar səpsələr belə.
Yenə darıxarsan neçə il öncə,
Vurub öldürdüyün o hisdən ötrü.

Ən gözəl sözləri desələr belə,
Ən gözəl nəğməni dərsələr belə.
Yenə darıxarsan sən o nağıldan,
Yenə darıxarsan o sözdən ötrü.

Dünyada hər şeyin dadı itəcək,
Bircə bu vərəqlər saralmayacaq.
İrəli gedərsən – hasar bitəcək,
Geriyə dönməyə güc qalmayacaq.

…Aldanma «qarşıda cənnət var» deyə,
Ona bu taleyi qurban vermə gəl.
Uzaqda görünən boz ilğımlara,
Sən bu xoşbəxtliyi qurban vermə gəl.

## ÖLDÜRMƏK İSTƏDİYİN HİSSİN NƏĞMƏSİ

Mən sənə bu ömürdə
Bir yol kəmənd atmışam.
İyirmi bir ildi gəlib
İndi sənə çatmışam.
Səni yoğurub, yapıb
Təzədən yaratmışam
Mənə əlin qalxmasın,
Sən gəl mənə rəhm elə.

Mən sənin damarında,
Canında, qanındayam,
Yuxusuz gecələrdə
Darıxan anındayam,
Hər zaman ətrafında,
Hər zaman yanındayam
Mənə əlin qalxmasın,
Sən gəl mənə rəhm elə.

Ürəyinin odunu,
Közünü öldürürsən.
Həyatının ən gözəl
Sözünü öldürürsən.
Tək məni yox, sən indi
Özünü öldürürsən.
Mənə əlin qalxmasın,
Sən gəl mənə rəhm elə.

Ölsəm də qayıdacam
Gözlərinə yaş kimi,
Ürəyinə çat kimi,
Alnına qırış kimi,
Taleyinə ən acı,
Ən soyuq qarğış kimi.
Mənə əlin qalxmasın,
Sən gəl mənə rəhm elə.
Özünü düşün barı –
Sən özünə rəhm elə.

## ƏHVALAT

Qonaq-qaranı sevməzdi,
Tək keçərdi yayı-qışı.
Evinin yanında
Fontan vuran turşsuya

hamı təbiətin
bəxşişi deyərdi,
o qarğışı.
Dağdan, arandan axışıb
Gələnlər şəfa tapardı,
o hirslənərdi,
Aşıb daşardı dərdi.

Bir gecə düşünüb əlac tapdı,
Sonra yekə bir daş tapdı,
tıxadı bulağın gözünə
Bulağın suyu qurudu,
işıq gəldi üzünə.

Səhər qonaqlar
bulağı boş gördülər,
lal-qurumuş gördülər.
Bildilər xətərin
hardan gəldiyini.
Gördülər onun
qımışıb güldüyünü.
Söydülər, qarğadılar.
O gün hamı batdı yasa,
ondan başqa.
Gecə evində ikən
Birdən qulağına səs gəldi,
Elə bil daşa-divara
nəfəs gəldi.
Gördü ki, ev-eşik, divan tərpənir,
Döşəmə tərpənir, tavan tərpənir
Yıxılır üstünə enli divarlar.

Birdən duydu
fontan vuran suyun səsini,
Dünən gözünə daş basdığı su
Evinin içindən fontan vurdu,
şahə qalxdı.
Divarlar uçdu, dağıldı.

Səhər tamaşaya gələnlər
Dağılan evin yerində
Fışqıran bulağı gördülər…

…Bu adi bir əhvalatdı,
Amma təbiətin qismətini
Məhv etmək istəyənlərə,
Öldürmək istəyənlərə,
Görk üçün yaxşı bir xatiratdı.

**QAYIDIR**

Yenə nəğmələr qayıdır, –
Hər sətri səs-səs dirilir,
Damarımda qan tərpənir,
Canımda nəfəs dirilir.

Yadırğadığım o sözlər
Yenə geri dönür bir-bir.
Çoxdan unutduğum hislər
Gizli-gizli boy göstərir.

Yenə hamıdan gizlicə
Çəkdiyim təlaş qayıdır.
Yenə ürəyimə həsrət,
Gözlərimə yaş qayıdır.

Yenə dünya yaşıllaşır,
Payızın düz ortasında.
Yenə uşağa dönürəm
Ömrümün günortasında.

Taledən ən dadlı töhfə,
Ən ləzzətli bar qayıdır.
Tanrı, insafına şükür,
Yenə də bahar qayıdır.

## HƏLƏ DƏ UŞAQSAN

Bunca iztirablar çəkəndən sonra,
Hüzurunda qan-yaş tökəndən sonra
Təzədən taleylə vuruşursansa,
«Mən nəyəm səninçün» soruşursansa,
Deməli, hələ də uşaqsan, uşaq.

Nəsənsə, mən sənə demişəm axı,
Demişəm çörəyim, havam, suyumsan.
Ömrümün ən qatı qaranlığında
Tanrı yolladığı işıq payımsan.
Amma ki, neyləyim, uşaqsan, uşaq.

Tutur dəliliyin, tərsliyin tutur –
Ayıra bilmirsən xəstəni, sağdan,
Ayıra bilmirsən təpəni, dağdan
Hələ də balaca uşaqsan, uşaq.

Ömrünün ən əziz, ilk baharına,
Sən dodaq büzürsən, qəfəs deyirsən.
Yüz ilin, min ilin duyğularına
Təzə ad qoyursan, qisas deyirsən –
Hələ də balaca uşaqsan, uşaq.

## ƏLİNDƏKİ ÖPÜŞ YERİ

Yüz dəfə yu, min dəfə sil,
Hər yana, hər tərəfə sil.
Yenə də sızıldayacaq,
Yenə gələcək nəfəsi,
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri

Yaqut qaşlı üzük kimi,
Bahalı bilərzik kimi,
Göyərəcək, qızaracaq
Çapıq kimi, kəsik kimi,
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri.

Çıxar bu fikri başından,
Küsüb dayanma qarşımda.
Gizləsən də görünəcək
Gülüşündə, baxışında,
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri.

Tale əkib ürəyinə,
Qantək çöküb ürəyinə.
Yayılıb, çoxdan işləyib
Onun kökü ürəyinə
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri.

## NƏYƏ GÜCÜM ÇATMASA DA

Əldən öpmək kimə adi,
Kimə qiyamət çağıdır.
Kişinin kiçilməyidi,
Qadının ucalmağıdı.

Böyük aşiq sevdiyinin
Qarşısında əriyəndi
Sənin qiblən bir dənədi,
Mənim Məkkəm yeriyəndi.

Beləcə bir qəfil duyğu,
Bir an məni də bürüdü.
Şeytanın felinə uydum
Önündə mum tək əridim.

Nə üzündən, yanağından,
Nə qara telindən öpdüm.
Mən sənə neylədim axı,
Mən sənin əlindən öpdüm.

Əlindən öpdüm, ölmədin,
Ölmədim öpdüm, bağışla.
Özümdən xəbərsiz oldu
Bilmədim öpdüm, bağışla.

Demirəm tövbə edəcəm,
Demirəm tərgidəcəyəm.
Gözündə donan hisləri
Yenə də ürküdəcəyəm.
Hissin dilində gül açsa,
Bir gün dilindən öpəcəm.
Nəyə gücüm çatmasa da,
Qəfil əlindən öpəcəm.

## DÖNDÜM

Səndən qıraqda həyat yox,
Desələr də vardı – döndüm.
Qaçdı ağzımın ləzzəti,
Damağımın dadı, döndüm.

Nə cadular, nə ovsunlar,
Gücləri yox, saxlasınlar.
Məni ən gözəl oyunlar,
Əyləncələr yordu, döndüm.

Bir nəfəs qalmadı canda,
Dörd bölündüm darıxanda –
Qol bir yanda, baş bir anda
Mənəm – məğlub ordu, döndüm.

## NƏ YAXŞI GƏLDİN

Bu yarıqaranlıq,
bu kiçik otaq
Necə işıqlandı birdən, ilahi.
Bu qəfil sevinci çox görmə ancaq,
Yolla bəxşişini hərdən, ilahi.

Kədərdə boğulub, qəmdə batırdım
Sən dedin, o gəldi – həyat gətirdi.
Göylərə ucaldım, səmaya qalxdım –
Mənə gəlişiylə qanad gətirdi.

İzn ver, üz tutub söyləyim Ona
Məni həm öldürüb, həm yaşadana
Deyim ki, Tanrıyla yanaşı gəldin,
Söndürdün qəlbimdə təlaşı, gəldin,
Gözümün işığı, nə yaxşı gəldin.

## QORXDUĞUN TALEYİ QIYMARAM SƏNƏ

Bildim sirri nəymiş qorxularının,
Duydum mənasını yuxularının,
Niyə öldürürsən hissini, bildim,
Qəzəbini bildim, hirsini bildim.
Daha ürəyini qubarlandıran,
Səni qəmləndirən,
                    yaxıb-yandıran,
Bir kəlmə deməræm, bir söz demərəm.
Bir də qıymaram ki, başın ağrısın.
Ya gözün yaşarsın – mən istəmərəm.

Gedib yaşayaram gözündən uzaq,
Səni özgələrdən alaram soraq
Özümü çarmıxa çəkərəm, ancaq
Qorxduğun taleyi qıymaram sənə.

Nə qədər sızlasa, ağrısa yaram,
Kədəri əzərəm, dərdi qıraram.
Qisməti yazanı karıxdıraram,
Qorxduğun taleyi qıymaram sənə.

Bir gün toyun olsa, mən tək gələrəm,
Lap belə əlimdə çiçək gələrəm
Qəzavü-qədərə kələk gələrəm,
Qorxduğun taleyi qıymaram sənə.

## GET

« – Nə olar, qal da bir az
– Burda nə var ki, qalım».
«Sağ ol» demə, vida etmə,
Zamandısa, vaxtdısa, get.
Getməyinin gərəkliyi
Qalmağından çoxdusa, get.

Bir mən qalım, bir dərd-sərim
Hədər oldu çəkdiklərim.
Pıçıltıyla dediklərim
Yaddaşından çıxdısa, get.

Qaysaqlanar yenə yaram,
Sızlamaram, ağlamaram
Səni yoldan saxlamaram –
Soldusa get, sağdısa get.

Bir sözünlə mənalıydı,
Gülüşünlə mənalıydı.
Mənə sənlə mənalıydı
Sənə mənа yoxdusa, get.

## OVQAT

Əsəblərim tarıma çəkildi,
Damarımda qanım soyuyur.
Ürəyim zorla vurur,
Bu yandan da sən gəlmirsən.

Boğuluram səfalət içində,
Həyat adlanan
bu bataqlıqdan
çıxmağa gücüm qalmayıb
Bu yandan da sən gəlmirsən.

Yorğunam,
Min ilin yorğunu
havanın, işığın yorğunu
Bu yandan da sən gəlmirsən.

Gicgahım ölür
dəmir bir «oyuncağın»
soyuq lüləsindən ötrü
Bu yandan da sən gəlmirsən.

* * *

Daha oxumayacaqsan
O adamın sənə yazdığı şeirləri.
daha əlindən öpməyin
həsrətini çəkməyəcək o,
Daha hüzurunda qan-yaş
tökməyəcək o.
Daha səni ötürmək
istəməyəcək.
Daha qısqanmayacaq.
Çünki səndən ötrü ölən,
hüzuruna qul kimi gələn
adam
Dünən saat 17-də öldü.

* * *

Sən
«devlə yol gedə» bilməzsən,
Sənin bataqlıqda boğulanı
çıxarmağa gücün çatmaz
Sevgidən ölmək,
Darıxmaqdan ölmək
Ağlına batmaz.
Sənin sevməyə də, sevilməyə də
gücün yetməz.

Sən «devlə yol gedə» bilməzsən,
Sən uzaqbaşı,
bər-bəzəkli bir evdə
güldan ola bilərsən

Ya dibçəkdə bir çiçək.
Ya da uzağı,
bir zəhmli ərin
qulluğunda duran
evdar xanım.
Ona görə də
incimə, qurbanım.

## SƏNƏ GÖRƏDİR

Özümü hamıdan güclü sanmağım,
Durduğum yerdəcə qanadlanmağım,
Mənim sevinməyim, ya şadlanmağım
Hamısı, hamısı sənə görədir.

İndi ucadadır yeri taxtımın,
Qızıl dövranıdır indi vaxtımın
Sınıq taleyimin, bağlı baxtımın
Açılan qapısı sənə görədir.

Qalmayıb qəlbimin daha gileyi,
Qəmli çəmənimin açıb çiçəyi
Payızın ortası yazın gəlməyi –
Bu bahar havası sənə görədir.

Ancaq uçulur dam – sən olmayanda
Dərdə dözmür adam sən olmayanda
Hamını sancıram sən olmayanda
Ruhumun davası sənə görədir.

## HEÇ NƏ İSTƏMİRƏM

Heç nə istəmirəm…
heç kimlə danışmaq,
heç kimlə susmaq,
heç kimlə gülmək
istəmirəm.
Heç yana baxmaq,
heç kimi görmək istəmirəm.
Nə vərəqləmək kitabları,
nə qəzetləri o üz-bu üzə
çevirmək,

Nə musiqi eşitmək,
nəğmə dinləmək
Nə gözlərimi ekrana zilləmək
heç nə, heç nə istəmirəm.
Nə çıxmaq bu şəhərin
küçələrinə,
Nə görmək binalarını,
adamlarını,

Nə yem axtaran quşlarını,
Nə buğda daşıyan qarışqalarını
                    istəmirəm.
Gözlərimi yumub
Səni düşünmək istəyirəm,
Xəyalıma gətirmək istəyirəm Səni
Və gözlərimi açıb
                    təkcə, təkcə
Səni görmək istəyirəm
Özgə heç nə, heç nə istəmirəm.

## RUS QARISI

Birdən, söhbət düşdü,
sifətindəki
Alışan, parlayan atəşi gördü.
Çiynində bərq vuran qanadlarını,
Gözündən boylanan Günəşi gördü.
Gördü qəlbindəki bu davanı o,
Duydu uzaqdanca bu havanı o.

Mənim də hər qeylü-qalımı bildi.
Üzümü görmədən halımı bildi.
Bildi ki, ruhumun sənsən yarısı,
Səndən həssas imiş
                    bir rus qarısı.

## SƏNDƏN BİR SÖZ ÇIXANACAN

Hər nə dedim, dümdüz dedim
Gecə dedim, gündüz dedim.
Mən bir kitablıq söz dedim
Səndən bir söz çıxanacan.

Öz budağımdan dərildim
Ayaqlarına sərildim
Neçə yol öldüm-dirildim
Səndən bir söz çıxanacan.

Ay düşüb, yerə enərdi
Günəş bezərdi, sönərdi.
Daşlar da dil öyrənərdi
Səndən bir söz çıxanacan.

Neynim, mən yenə dözərəm,
Baxıb güləni əzərəm.
Min il, milyon il gözlərəm
Səndən bir söz çıxanacan.

*   *   *

Kimin əli dəyib
bu kağızlara,
bu vərəqlərə?
Mən ki, demişdim yüz kərə,
min kərə
Əl vuran olmasın,
Toxunan olmasın
Mən qoyduğum kimi qalsın
hər kağız
hər vərəq.
İndi gəl tap burda
istədiyin cümləni,
istədiyin kəlməni.
…Amma necə rahat oldu.
hər nə var tapa bildim, –
Axtardığımı da,
itirdiyimi də
Neçə vaxtdı gəzdiyimi də
tapdım.
Bu, kimin əlidi, ilahi,
kimin əli? –
Mən məndən yaxşı
duyan, hiss edən.
Deyəsən, varmış, Allah,
Məni bəlalardan hələ hifz edən.

* * *

Nə qədər alışıb, yandım oduna
Hamısı, hamısı hədərmiş, hədər,
Mən çələng bağladım sənin adına,
Hamısı, hamısı hədər, min hədər,

Səninçün odlanan, yanan qəlbimin
Yanından adladın buz baxışınla
Bu uçuq qəlbimi, viran qəlbimi
Bir də viran etdin yır-yığışınla.

Məni bu əzabla baş-başa qoyub
Əlini-telini aparıb getdin
Ən gözəl hissimin dərisin soyub,
Ən gözəl duyğumu qoparıb getdin.

Sən mənə qıymadın bircə telini,
Bir kəlmə sözünü mənə qıymadın.
Get, indi başqası öpsün əlini
Başqa bir dodaqda çəkilsin adın.

Onda ki, bir «Cavan» dərəcək səni,
Baxacam, keçəcəm uzaqdan, gendən,
Dərdindən ölməyən öpəcək səni,
Qədrini bilməyən yatacaq sənnən.

Amma buz yataqda soyuq busədən,
Yaşarsa gözlərin göstərmə, gizlət.
Zaman ki geriyə dönmür təzədən
Ya cəhənnəm olur, ya da ki, cənnət.

## BÖLÜŞMƏRƏM MƏN

Mən səni heç kimlə bölüşdürmərəm,
Kimsəyə qıymaram bircə telini
Düşmənə vermərəm, dosta vermərəm
Qoymaram bir kimsə öpə əlini.

Bircə dəqiqəni, bircə anını
Bircə duyğunu da bölüşmərəm mən
Gündüz gülüşünü, həyəcanını
Gecə yuxunu da bölüşmərəm mən.

Səni buraxmaram, sənlə qalaram,
Qoy lap ölüm-dirim qovğası gəlsə,
Oyun çıxararam, dava salaram
Ağlına özgənin havası gəlsə.

Bircə dəqiqəni, bircə anını
Bircə duyğunu da bölüşmərəm mən
Gündüz gülüşünü, həyəcanını
Gecə yuxunu da bölüşmərəm mən.

## SƏNSİZ

Ömürdən deyil ki, sənsiz anlarım,
Sənsiz saatlarım yaşamaq deyil.
Sənsiz düşən axşam zindan əzabı,
Sənsiz sabahım da bir sabah deyil.

Həftəm altı gündür, sutkam beş saat
Onu da çox görmə, qısaltma nolar?
Arabir həftəmdən, sutkamdan kəsib
Xoşbəxt anlarımı qısaltma nolar:

Bir az səhərimə tez gəl Günəştək
Bir az axşamımı gec gətir nolar?
Bir az «olmaz»ları yadından çıxar –
Burax bu tərsliyi, höcəti nolar?

İnsaf et, insaf et, barı zəng elə
Üzüyünün qaşı düşməsin nolar?
Bircə axşamımı işığa bələ,
Bir gecəm əzablı keçməsin nolar?

…Ömürdən deyil ki, sənsiz anlarım
Sənsiz saatlarım yaşamaq deyil.

Sənsiz düşən axşam – zindan əzabı,
Sənsiz sabahım da bir sabah deyil.

## GETDİNSƏ…

Arxanca yüyürüb, qaçımmı indi
Getdinsə nə xeyri çağırmağımın?
Nə xeyri təzədən adını deyib,
Təzədən qışqırıb, çığırmağımın?

Beş addım yola da gücün çatmadı,
Dözərəm taledi, təkcə gedərəm
Yaxşı ki, əvvəldə sındı qanadın,
Ortada demədin: «necə gedərəm?»

Ürək istədisə səbəbə nə var,
Min səbəb tapılar bir gün içində.
Beləcə yolumdan yığışar bahar
Təkcənə yaşaram-sürgün içində.

Beləcə sındırdın dəli sevgimi
Ruhumu bürüdü kədər-qəm indi,
Ömrümə qəfildən gəldiyin kimi
Qəfil gedişini görürəm indi.

Bildim ki çətinə dözməz kürəyin
Sənin ki, yolların kötük görməyib
Nə ağrı çəkib ki, uşaq ürəyin? –
Hələ çiyinlərin bir yük görməyib.

Duydun ki, yolunda ağrı-acı var
Qarşıda ellərin qaxıncı durur.
Axı aramızda zaman zalımın
Yaş adlı uçurum qılıncı durur.

Beləcə dayandın boynunu burub
Kəsildi taqətin, tez düşdün heydən.
Qorxulu deyildi amma uçurum –
İstəsən körpü də enərdi göydən.

Daha könlündəki hissi tanıdım
Yüz ildi söylənən bir xalq nağılı
Özün uydurduğun, quraşdırdığın
Ərköyün, dəlisov uşaq nağılı.

Yoxsa ki, bu böyük, nəhəng ÇİLÇIRAQ
Bir əsim küləkdən sönməzdi, gülüm,
Yola çıxan adam bir bəhanəylə
Bu yolu yarımçıq dönməzdi, gülüm.

## MƏNİ

Salıb tellərinin cazibəsinə
Qoymayır bir addım qırağa məni
Qaynayan gözləri işıq paylayır
Pərvanə eləyib çırağa məni.

Sözü, kəlmələri bir-bir seçirəm,
Yanından astaca, sakit keçirəm,
Gündüz səpdiyini gecə biçirəm
Yaxşı nökər edib varağa məni.

İlahi, sən məndə arzulara bax –
Gizlənqaç oynamaq, top-top oynamaq
Bu höcət, ərköyün, balaca uşaq
Gör necə döndərib uşağa məni.

## NƏ YAXŞI YAN KEÇMƏDİK

On üçdə ilişmişdim,
Amma arxı adladım.
Şükür sənə, ilahi,
Şükür «qırxı» adladım.

Sözlərim alışmadı,
Yanmadı şeirlərim
Zülümlə açılsa da,
Açıldı ki, səhərim.

Gözüm, sənin də barı
Özündə səbir olsun.
Bu hissə ki, tutuldun
Əsəbin dəmir olsun.

Bil ki, hər xırda sözdən
Əsib-coşmaq hədərdi.
Ən çətin sualın da
Həlli səbrin qədərdi.

Hislərini yaşadan
O dəftərdə nə günah?
Cırdığın, yandırdığın
Vərəqlərdə nə günah?

Günah neçə il əvvəl
Aləmi qatandadır.
İlk dəfə öz-özünü
Aldadan adamdadır.
Yüz ilin günahını
Yuyarıq gec olsa da,

Ömrümüzün sonuna
Lap bircə gun qalsa da.

Budu tale qisməti
Yenə buna çox şükür.
Nə yaxşı yan keçmədik,
Görüşdük nə yaxşı ki!

## GÖZLƏRİMƏ BAX!

Çox da fikir vermə bu şeirlərə
Faciə düzəltmə, fəlakət demə.
Özünü sındırma sən hədər yerə
Sevinc əvəzinə kədər-qəm yemə.

Ən darıxan anım, həsrətli günüm
Yerini şerimdə tapıbdı bəzən.
Taleyə qarğışım, bəxtə qarğışım
Süzülüb şerimə hopubdu bəzən.

Özümə nifrətim, sənə həsrətim
Allaha gileyim – o misralarda.
Gah göyə ucalan, gah yerə dəyən
Təzadlı taleyim – o misralarda.

Çox da fikir vermə, duy dərdlərimi
Qəlbimdə sızlayan köz yerinə bax.
Oxumaq istəsən ən düz şerimi
Gözlərini zillə, gözlərimə bax!

## HƏR ZAMAN…

Hər zaman qarşına çıxacağam mən,
Beləcə qəfildən, beləcə qəfil
Gündüzlər güdəcəm hər addımını,
Gecələr yuxuna gələcəm qəfil.
Harasa getməyi çıxar ağlından,
«Yox olub itməyi» çıxar ağlından
Əgər çıxıb getsən lap uzaqlara
Bir tanış nəğməylə gələcəm ora.
Axtarıb yerini,
          tapıb yerini
Yarıda  qıracam gülüşlərini
Sənə dərd olacaq haraya getsən.
Məşəqqət olacaq haraya getsən.
Heç yana, heç yerə getmə, nə olar,
Qal burda – qurbanın, qulun olaram.
Bütün fəsilləri eyləyib bahar,
Ən rahat, ən gözəl yolun olaram!

## SƏN ELƏ BİLMƏ Kİ…

Sən elə bilmə ki, nəsə azalıb,
Daha çalxalanmır bu nəhəng dəniz.
Sən elə bilmə ki, sevgim sozalıb
Sən elə bilmə ki, ölmürəm sənsiz.

«Ən güclü sevgi də bitib, tükənir,
Əbədi heç nə yox» – deyə düşünmə.
«Qara gözlərində alov qaynamır,
Baxışın buz, soyuq» – deyə düşünmə.

Mən yenə əvvəlki həmin adamam
Qəlbim istəyəni on qat almışam.
Mənə bəxş etdiyin bu xoşbəxtliyin
İçində heyrətdən donub qalmışam.

## SƏNDƏN UZAQLARDA SƏNLƏ YAŞADIM

Əlinin istisini,
            gülüşünü
bir də bir kəlmə
imisti sözünü
Götürüb gəlmişəm.
Neyləyər şaxta, soyuq mənə,
Sibirin qarı, çovğunu
neyləyə bilər.
Ən sərt şaxtaya,
ən soyuq havaya da
dözərəm,
güc gələrəm.
Əlimdə əlinin istisi,
            gözümdə gülüşünlə,
Yaddaşımdakı bir kəlmə sözünlə.

* * *

Qürbətdə,
gecə yarısı
pəncərəmdən süzülüb
üz-gözümü bürüyən
bu Ay işığı
Səni xatırlatdı mənə.
Pəncərədən baxdığın yerdə,
üz-gözündəki işıqla
səni xatırlatdı mənə.
Səni elə-beləcə,
pəncərədən baxdığın yerdə
qoyub gəldim.
Və indi, qürbətdə
            gecə yarısı
            pəncərədən süzülən bu Ay işığı

yüz il də beləcə parlaya
yenə, yenə
yerini verməz
Sənin pəncərədən baxışının,
gülüşünün.

* * *

Əgər bu məhəbbət dinməz-söyləməz,
Dərdi ürəyində daşımaqdısa,
Gecə də, gündüz də fikirlərində
Səninlə yanaşı yaşamaqdısa
Mən elə bu cürəm,
Mən elə belə!

Əgər bu məhəbbət çıxıb meydana,
Dava salmaqdısa sənin yolunda.
Bütün cəfalara, həmişə,
hər an
hazır olmaqdısa sənin yolunda
Mən çoxdan hazıram
əmrini söylə!

* * *

Bu qısa ayrılıq bizə gərəkdi
Bir də özümüzü yoxlamaq üçün
Üz-üzə gələndə daşan, qaynayan
Dəli hissimizi yoxlamaq üçün.

Xırda duyğuların, zəif eşqlərin
Qısa ayrılıqdan izləri qalmır
Yalançı aşiqlər tez tükənirlər
Vüsala çatanda sözləri qalmır.

Səndən uzaqlarda on dəfə artıq
Çəkdim, o çəkdiyim dərdləri bir də.
Səndən ayrılıqda dünya qurtardı
Yer tapa bilmədim özümə Yerdə.

Səndən uzaqlarda sənlə yaşadım,
Daşıdım özümlə baxışlarını.
Fikrimdə gəzdirdim gülüşlərini
Sənin hər kəlmədən bir sən düzəltdim.
Sənin bir sözünə söykənib yatdım,
Başqa bir sözündən «vətən» düzəltdim.

Səndən uzaqlarda sənsiz qalmadım
Bu şaxta, bu qarda sənlə yaşadım.
Yanımda nəfəsin, dilimdə adın,
Səndən uzaqlarda sənlə yaşadım.

* * *

Sən məni çox istə,
çox sev nə olar

Sən elə istə ki, burda qalmayım
Çəksin maqnit kimi ürəyin məni
Götürüb Sibirin bu şaxtasından
Qızdırsın, isitsin istəyin məni.
Dayana bilməyim,
qala bilməyim
Vəhşitək darıxıb qaçım yanına
Söyüb bu şaxtaya, soyuğa, qara
Sonra təpik vurub bu şampanlara
Tullanıb da «arxı» qaçım yanına.

Sən məni çox istə,
çox sev nə olar.

* * *

Sibirin şaxtasından
döndüm
Ürəyimdə dəli bir həsrət
Qaçdım yanına
Əllərimdən əllərinə,
Baxışımdan baxışına…
keçdi Sibirin soyuğu.

…Hə, indi evə dönəndə
deyəcəklər sənə
– «Sifətin niyə qızarıb?
Elə bil lap Sibirdən gəlmisən».

## SAATIM QURULUB SƏNİN VAXTINLA

Saatım qurulub sənin vaxtınla
Mənim günortamdı sənin səhərin
Yerini bilirəm saata baxıb
Harasındasansa qoca şəhərin.

Görürəm yuxudan oyanmağını,
Görürəm yuyunub daranmağını
O rus qarısına çay verməyini,
Evdən çıxmağını, yol getməyini
Mən burda məşğulam
hər addımınla –
Saatım qurulub sənin
vaxtınla.

* * *

Bilirəm hardasa oralardasan –

Səsim çatan yerin yaxınlığında
Bəlkə, lap böyründə, lap yanındasan.

Duyuram uzaqdan baxışlarını
Qəlbinin səsini hiss eləyirəm.
Adını çəkməyə gücümmü yetmir,
Ən əziz sözümü höccələyirəm.

Bir az da ucadan, bir az da bərkdən,
Mənasız danışıb cığallayıram
Telefon dəstəyindən axan səsimlə
Sanki tellərini sığallayıram.

* * *

Sənsiz qaldım, qəlbimin
Artdı qəmi – darıxdım.
Yanına qayıtmağın
Yetdi dəmi – darıxdım.

İnsafı yox gecənin
Qərib, soyuq gecənin
Oyanaraq gecənin
Bir aləmi – darıxdım.

Yer sıxdı birdən-birə,
Dərd axdı birdən-birə
Darıxdım birdən-birə
Vəhşi kimi darıxdım,

* * *

Sənsiz dəqiqələr zülmlə keçir,
Daş asılır saat əqrəblərindən
Sənsiz bir saatım bir il əvəzi
Elə bil ayrılıb Yer məhvərindən.

Sənsiz hirs içində, əsəb içində
Adamayovuşmaz, qaradinməzəm
Gəl məni «adam et», qoy deyim-gülüm
Bir də inanım ki, varmış möcüzə.

* * *

Yenə mənasız oldu
        yaşamaq
Yenə sürünməyə döndü yaşamaq
Ötən il yayacan olduğutək
        dadını itirdi hər şey
Daha səhər oyanmağın,
        işə yollanmağın
Daha gözləməyin,
        darıxmağın
        gözəlliyi yox.
Yenə qarşı zülmət-qaranlıq

yenə soyuq.
İşığa,
günəşə ümid yox.
Yenə oldum daşın, divarın
stolun, stulun tayı.

## HƏSRƏT

Bir maşın hönkürtü bayaqdan bəri
Gəzir bu şəhərin küçələrində.
Yatır bu şəhərin qarışqaları.

Açma bu qapını, açma, qardaşım,
Tökülər dənizə evcik binalar,
Sel-suyun altında qalar bu şəhər.
O həzin nəğmədən qulağı batar,
Bəlkə də, lap dəli olar bu şəhər.

Bu yalqız gecədə bircə oyaq var,
İblisdi, mələkdi – kim bilir axı?
Bağlı pəncərədə dümağ pərdələr
Kəfəndi, bələkdi, kim bilir axı?

Yaxşı, bəs bu kimdi, əlin yelləyir?
Bəlkə, saxlayasan?
– əyləş, qardaşım.
Qapını açınca çığırıb qaçar,
Üzünü görüncə bağırıb qaçar.

İndicə yanında duran maşını
Damların üstündə görüb qışqırar.
Üzündə parlayan, yanan işığı
Bulud örtüsündə görüb qışqırar.

Səhəri hansısa ütük qəzetçi,
Çatdırar nömrəyə bu məlumatı:
«Bu il martın biri, gecəyarısı
Özgə planetdən gələn bir adam
Şəhərin içində maşın sürürmüş»
…Yatırmış şəhərin qarışqaları.

## GEDİRƏM

Burdan əvvəl, burdan sonra
Bilə-bilə ki, yol yoxdu.
Havasızdı, işıqsızdı,
Nə sağ yoxdu, nə sol yoxdu –
Gedirəm, yenə gedirəm.

Ayrıldıqca bu qismətin
Əzab dolu qucağından.
Bir sarı kəndir yellənir

Gözlərimin qabağında –
Gedirəm, yenə gedirəm.

Birdən ağ nura büründüm,
Hər şey apaydın göründü.
Bilə-bilə ki, ölümdü –
Gedirəm, yenə gedirəm.

## GÖRÜNMÜR DAHA PƏNCƏRƏN

İlk dəfəydi yanıb-sönüb
Sevmədim bahar gününü.
Yarpaqlar kəsdi önünü,
Görünmür daha pəncərən.

Yarpaqlar aşıb-daşdılar,
Bir-birinə qarışdılar.
Pərdələrə dolaşdılar,
Görünmür daha pəncərən.

Səhər tezdən, axşam onda
Üşüyürəm ayazından.
Gücü çatmaz payızın da
Görünmür daha pəncərən.

## **VƏTƏN**

Açıb qollarımı qucaqlayaram,
Sıxaram köksümə genişliyini.
Çən kimi çökərəm, sutək hoparam,
Bu yurd sinəsində bitirər məni.

Qəlbimə sıxılıb qaynayır qanım,
Tərsinə kükrəyən vulkan kimiyəm.
Üzümdə daşlaşıb, içimdə yanıb,
Qədim dərdlərimin od heykəliyəm.

Dərəsi, təpəsi, düzü, dağıyla
Köksümə, qəlbimə yerləşən Vətən.
Nə vaxtdı bölünən bölünməzliyi
Bir namərd baxışlı göz deşən Vətən.

Tarixi gizlənib qala daşında,
Boylanır bu günə əli qaşında.
Bir vaxt var yığımı, var savaşında
Sorulmuş nar kimi büzüşən Vətən.

«Arzudu – daddıqca o dadlanandı».
İkiyə bölünüb bir adlanandı.
Bu tayda sevinci qanadlanandı,
O tayda vuruşan, döyüşən Vətən.

Dikələn qayası, ucalan dağı –
Əyilməz bürcüdür, yanan çırağı.
Yayılıb Kür boyu, Araz qırağı
Arazlaşan Vətən, Kürləşən Vətən.
Açıb qollarımı qucaqlayaram,
Sıxaram köksümə genişliyini.
Çən kimi çökərəm, sutək hoparam,
Bu yurd sinəsində bitirər məni.

## AT, SAZ, QILINC

Bu torpağın qayaları buludu dələr,
Oğulların od harayı göyə yüksələr.
Dünənimin yaddaşından bir igid gələr
At belində – döşündə saz, əlində qılınc.

Əcdadların qanı hopan o yurd buradı,
Tariximin hər qatında yaşayır adı.
Babalarım torpaq olub, Vətən yaradıb
At belində – döşündə saz, əlində qılınc.

Təklənəndə saz səsinə dalıb, qızınıb,
Alovunu dağdan-daşdan alıb, qızınıb.
Koroğlumuz döyüşlərdə ad-san qazanıb,
At belində – döşündə saz, əlində qılınc.

Qan yaddaşım od ələyib duyğularıma,
Əfsanələr cavab tapıb sorğularıma.
Bir igid də tez-tez girir yuxularıma
At belində – döşündə saz, əlində qılınc.

Nər oğullar gecə-gündüz hey sayıq olub,
Dar ayaqda harayımın üç hayı olub.
Döyüşlərdə uğurumun üç payı olub –
Yarı atdan, yarı sazdan, yarı qılıncdan.

Min illərdi qanımdadı o sazın odu,
Qulağımda köhlənlərin kişnərtisi var.
Yaddaşımda qılıncların şaqqıltısıdı,
Ürəyimdə bir yanğının göynərtisi var.
Saz çalınır, alovunda qəlbim isinir,
Yaddaşımın buz layları əriyir, sınır.
Eşidirəm köhnələrin kişnərtisini,
Eşidirəm qılıncların şaqqıltısını.

## MƏĞRUR QAYA

Bu qayanın duruşundan əzəmət yağır,
Bu sahilin güvənc yeri, ümid yeridir.
Bu qayanın qarşısında dalğalar – fağır,
Yüz həmləni sinəsində ovub, əridir.

Bu qayanın kökü dərin, qaməti uca,
Tufanlar da vüqarını sarsıda bilmir.
Yağışların gur selində çimir doyunca,
Şimşəklərin hədəsindən qorxub-əyilmir.

Leysanların, tufanların inadı sınır,
Gün işığı parıldayır qaya döşündə.
Şəfəqləri qucağına sıxıb qızınır,
Gülümsəyir damlaların düzülüşündə.

Məğrur qaya, bu dözümü mənə də öyrət,
Həyatın da öz tufanı, öz möhnəti var.
Belə məğrur dayanmağın sonunda əlbət,
Xoşbəxt-xoşbəxt gülümsəmək səadəti var.

## BİR DAŞ ÜSTDƏ

Çəmən zirvənin çiynində
Bəzəkli şaldı eləcə
Gul-çiçəklər yaraşıqdı,
Lalələr xaldı eləcə.

Könlüm, düş bu alovda yan,
Gözüm, gözəllikdi hər yan.
Bir daş üstdə heyran-heyran
Quruyub qaldım eləcə.

## AŞIQ ƏDALƏTƏ YAZILMIŞ ŞEİRLƏR

### I

Bu payız gecəsi filarmoniya
O sazın sehrinə məəttəl qalıb.
Yanıb od çiləyir bu səssizliyə,
Hər adam yerində bir heykəl qalıb.

O sazın sehrində, möcüzəsində
Sanki əriyir daş, ovulur divar.
Ayrılıb, ayrılıb yer kürəsindən,
Ovsuna düşübdü salondakılar.

Sazını saxlayıb şeir deyirsən,
Püskürür sinəndən daş dələn səsin.
– Bu gecə burdayıq, ay el, – deyirsən.
Qəlbini duyursan sən hər bir kəsin.

İlhamla çaldığın o saz havası,
Bilməzdin o axşam sonuncu olar.
Axı səhnədə bir qəlbi dayazın
«Konsertimiz bitdi» söyləməyi var.

«Kərəmi» çalmadın o gün, Ədalət,
Təşnə ürəklərdə bir arzu qaldı.
Sazının sehrindən heykəl adamlar
Doymadı sehrindən – tamarzı qaldı.

Ümidlər qırılsın bu gecə niyə?
Qonub pəncərəyə ay gecələyə.
Dəyməyin, dəyməyin bir gecəliyə
«Yanıq Kərəmi»ni çalsın Ədalət
Filarmoniyanın sönsün işığı,
Olsun, o saz olsun yar-yaraşığı.
Yarsın bağrımızı bu haqq aşığı,
Sübhəcən bizimlə qalsın Ədalət.

Biz ona təşnəyik, o bizə təşnə,
Biz onsuz heç nəyik, o bizsiz heç nə.
Od-alov sazını basıb döşünə
Kərəm qisasını alsın Ədalət.

Bu səsə sıxaraq göz yaşımızı
Yaşarıq daşlaşan yaddaşımızı.
Kəsəmməz min cürə sədd qarşımızı
Beləcə saz çalsa ovsun Ədalət.

## II
## DİLLƏNDİ
## «YANIQ KƏRƏMİ»

Bir hüznlü ahdı o səs,
Çeşmə olub axdı o səs.
Pillə-pillə qanadlanıb
Şimşək kimi çaxdı o səs –
Dilləndi «Yanıq Kərəmi».

Bir alovdu, yana-yana
Axdı cana, keçdi qana.
Kül eləyib dağı-daşı,
Od ələdi bu cahana –
Selləndi «Yanıq Kərəmi».

Min illərin savaşıdı,
El ahı, el yaddaşıdı.
Nakam eşqin yol yoldaşı
Dərdin bağrı badaşıdı –
Vətəndi «Yanıq Kərəmi».

Harayından qaçdı ölüm,
Atəşində heçdi ölüm.
Sən dinəndə bu dünyadan
Baş götürüb köçdü ölüm,
Nədəndi, «Yanıq Kərəmi?»

## BAYATI DEYƏNDƏ QARI NƏNƏLƏR

Bir nisgil duyular, bir ağrı qalxar
Uçar küləklərin qanadlarında.
Bir durna qatarı boylanıb baxar,
Yaşarar gözləri buludların da –
Bayatı deyəndə qarı nənələr.

Səslərdə qəm dinər, sevinc danışar
Titrəyər ürəklər sarı sim təki.
Alov dilimlənər, ocaq alışar,
Yanarıq odunda bir tilsim təki –
Bayatı deyəndə qarı nənələr.

Misralar göyərçin qanadı kimi
Yüksəlib göylərə vidalaşarlar.
Qəlbləri kövrələr bayatı kimi,
Bir az torpaqlaşar, qayalaşarlar,
Bayatı deyəndə qarı nənələr.

Gözə alov damar, qəlbə od düşər,
Sinələr dağlanar qəmdən-kədərdən.
Dünya kövrəkləşər, mülayimləşər
Dünya acizləşər deyirəm hərdən
Bayatı deyəndə qarı nənələr.

## 40 İL İRƏLİNİN GÜLLƏSİ

*Davada həlak olan*
*yeganə əmim Hacının xatirəsinə*

Bir «əmi» kəlməsi qopdu dilimdən,
Sinəmdən burula-burula çıxdı.
Buz kimi soyuqdu – ürək göynədən,
Göynədi, qırıla-qırıla çıxdı.

Dilim söz öyrəndi uşaqlığında,
Hər sözü əyninə geyə bilmədi.
Nə oldu yaşının yetkin çağında
Bir əmi kəlməsi deyə bilmədi?!

Davadan nə qaldı? –
Tənhalıq közü,
Atasız övladlar, sarsıntı, kədər…
Bu günsə göynədər, göynədər bizi
Ünvansız kəlmələr, yetim kəlmələr.

…Bir «əmi» kəlməsi qopdu dilimdən,
Sinəmdən burula-burula çıxdı.
Buz kimi soyuqdu – ürək göynədən,
Göynədi, qırıla-qırıla çıxdı.

## 1979

## YOL QIRAĞINDA

*Balaca Qəhrəmana*

Gecənin bu çağı kim ola, qardaş,
Durub heykəl təki yol qırağında.
Əlində çomağı bu bala qardaş,
Yurda keşik çəkir yol qırağında.

Balaca büstüdür ana torpağın,
Nəfəsi isidir ana torpağı.
Bir uşaq gözündən milyon göz baxır –
«Ordu» keşik çəkir yol qırağında.

Tərpənən qanımız, qeyrətimizdir,
Balaca boyuyla heyrətimizdir.
Mürgüsü dağılan millətimizdir,
Orda – keşik çəkir yol qırağında,
Yurda keşik çəkir yol qırağında.

## MƏNİ TANIMADINIZMI?

Bir aylı gecədə
Mənə elə gəldi ki,
İlk dəfə göz açdığım,
Çöllərində ayaqyalın qaçdığım
Bu torpaq
Suyuynan, havasıynan,
Ocağıynan, oduynan
Çiçəyiynən, otuynan
Mənə tanışdı.
Yüz il, min il əvvəl – haçansa
Doğulmuşammış,
Bu yerdə olmuşammış,
Neynim yadıma gəlmir,
Yaddaş dadıma gəlmir.

Babalar yaşıdı ağacım,
Çiçəyin, gülün yadına gəlməz
Sən ki, əsrlər görmüsən,
Torpaq yaşıdı dağım,
Dünya yaşıdı Gün işığım,
Bir silkələyin yaddaşınızı,
Mən sizi tanıdım,
Siz məni tanımadınızmı?

## YAYLAQ DUYĞULARI
## I
## BİR OĞLAN GƏZƏCƏK YURD YERLƏRİNİ

Dağlar çiçək boyu kiçilib, enib,
Yaylaqlar təkliyi dərd eləyəndə;
Hüznlü ah kimi payız mehini
Çaylar dərələrə səpələyəndə
Bir oğlan gəzəcək yurd yerlərini –
Qəlbində, könlündə, gözündə bahar.

Axacaq günəşin nuru torpağa,
Budaqlar titrəyib pıçıldaşacaq.
Bir oğlan gəzəcək – qəlbində bahar,
Saralan çəmənlər yaşıllaşacaq.

## II
## YURD YERİ

Burda,
bu qoca palıdın kölgəsində
binə qurarmış babamın babası,
Çubuq-keçə alaçığı
çiçəklərdən əvvəl açarmış
hər yaz ağzı.
Burda,
bu qoca palıdın kölgəsində
binə qurardı babam.
Taxta çadırı
çiçəklərlə qoşa açardı hər bahar.

Burda,
bu qoca palıdın kölgəsində
binə qururuq.
Dəmir çadırımız
çiçəklərdən sonra açır –
yayın ilk ayı.
Çubuqların
taxtadan dəmirə döndüyünü,
Yurd yerinin
Nəsildən-nəslə söndüyünü
Palıd duyur, palıd bilir.
Və gizli-gizli
Solğun üzümü süzür bir baxış;
«Deyəsən,
o çubuq alaçıqlar

Bu dəmir çadırlardan
davamlıymış».

## III
## UÇMAQ ÜMİDİ

Dəymə, ana,
Dəymə mənə.
Beləcə
kürəyimi söykəyim
bu yaşıl çəmənə.
Baba nəfəsi axsın qanıma
Bu torpağın istisiylə.
Qarışım bu yaşıl çəmənə.
Beləcə gözlərimi yumub açıb;
dumduru səmanı görüncə,
yamyaşıl meşəni görüncə
qaçıb-qaçıb
O dağ zirvəsindən atılaram.
O an
qanadlanıb uçacağıma
dəli bir ümidim var, anam.

## IV
## AYLI DAĞLAR

Bu dağlarda ay işığı –
çəməni bürüyən şehdir,
Bir ahıl saçında gümüşü zehdir.
Bu dağlar ay işığında
Nəsildən-nəslə saflıq aparan
Yelkənli gəmidir.
Bu dağlar ay işığında
üz-gözü südə bulaşmış
körpə kimidir.

## V
## YALQIZ QALAN
## YAYLAĞIM

Hər yay
Yaz yaşılı solmamış
dördkünc – sarı dərdlər sarır səni.
Bu sarılığı görüb
          qorxu bürüyür
hələ yaşayası,
hələ yaşıl çəməni.

Həsrət axıb sinəsindən,
Şimşək çaxıb sinəsində.

Bu yaylağın sinəsində
Yurd yerləri yara kimi.

Yaşıl otlar saralacaq,
Üstlərini qar alacaq,
Ümidləri daralacaq,
Payızdan bahara kimi.

Bu palıdın kölgəsinə
Dönən olacaqmı yenə?
Yurd yerləri sönə-sönə
Nur yayacaq hara kimi?

## CIDIR DüZü

Dərədə möcüzə, dağda möcüzə,
Torpağa bu qədər vurulmamışdım.
Gözəllik önündə heç vaxt, heç vədə
Belə təzələnib durulmamışdım.

Dili tutulubmu torağın, daşın?
Görən niyə belə səssizdi bu yer?
Haçansa Üzeyir ayağı dəyib,
Yəqin, ona görə əzizdi bu yer.

Sükuta bürünüb Cıdır düzümüz,
Bülbülün səsinə dalandan bəri.
Torpaq dərd əlindən qayalaşıbdır,
Ellər Natəvansız qalandan bəri.

Göz dikib bu yerə yağılar, yadlar,
Su olub düzündə axa bilməyib,
Nə qədər zirvələr fəth edib Qacar,
Amma bu zirvəyə qalxa bilməyib.

Burda daşları da qoruyaq, gəlin,
Hansı bir daşdasa Vaqif qanı var.
Bura yaddaşıdır obanın, elin,
Burda hər bir nəslin öz ünvanı var.

Deyirəm, dünyada sevgi tapılmaz,
Övladın torpağa sevgisi kimi.
Bu yurd yaddaşımda qalacaq mənim –
Tarixin möcüzə sərgisi kimi.

**1981**

## YANMAYAN ŞEİR

*Ramiz Rövşənə*

İnadı səbrini sındıran şair,
Qəzəbi qəlbini yandıran şair.

Bir qucaq şeirini töküb torpağa,
od vuran şair!

Bəlkə üşüyərsən, bəlkə qızarsan,
Baxıb yanmağına şeirlərinin.
Dilimlənən odu üzünü qarsar,
Ocağa dağılan şeirlərinin.

Bir nənə boylanar ağzı dualı
Nə dua, nə ovsun qanar bu ocaq.
Nəvə gözlərində dünya havalı –
Qoca yaxın gəlməz – yanar bu ocaq.

Yanar qafiyələr, misralar yanar,
Dağılar şeirlər böyük ev kimi.
Bəndlərə bir qızıl ilan dolanar,
Ayırar ağzını alov dev kimi.

Yanar sevgi dolu acı göz yaşı,
Ömrünün kədəri, sevinci yanar.
Uzun gecələrin dərdi, bəlası –
Sözün ərköyünü, nadinci yanar.

Qəfil ağrıyarsan neylədiyinə –
Gözünə ən əziz bir şeirin dəyər.
Onda ürəyinə sancılar iynə,
Onda kürəyində bıçaq göynəyər.
Alov misraları yalayıb keçər,
Neyləsə, o şeiri yandıra bilməz.
Alov külüng olub düşsə də gücə,
Daşlaşan vərəqi sındıra bilməz.

Təzədən neft töküb, kibrit də çəksən,
Tamam qaralsa da, bu ocaq yeri.
Yenə közü-külü eşələyib sən
Sappasağ görərsən həmənki şeiri.

O şerin işığı axar üzünə,
Duası tuş gələn qoca göynəməz.
Düşər ürəyinə sancılan iynə,
Daha kürəyində bıçaq göynəməz.

Çıxarıb ocağın qara közündən,
Bu gündən əzizlə, oxşa o şeiri.
Kül sürtüb sətrinə, misralarına
Gözünün üstündə saxla o şeiri.

## İYDƏ AĞACI

*Ay işığı, Gün işığı, iydə qoxusu*
*Bu yurd bizimdi.*
***Dilsuz***

Bir qərib şəhərin səssiz küçəsi
Dolmuşdu ətrinlə, iydə ağacı.
Tənha duruşunla çıxdın qarşıma,
Tənhalar çox vədə qəribdi axı.
Qarışıb ətrinə yumdum gözümü,
Şehli budağına sürtdüm üzümü.
Talemi yolladı, göydənmi gəldin?
Bu uzaq torpaqda necə dikəldin?

İlk dəfə qoynunda hey ayaqyalın,
O yana-bu yana qaçdığımız yurd,
Pay verir ətrini övladlarına;
(Bəlkə biz hərəmiz bir qarış torpaq.
Bir udum havayıq, bir qoxum ətir.
Gəzirik vətənin bir parçasıtək,
Yurdun qoxusunu hey yaşadaraq).
Bir gün köç edəndə qoca dünyadan
Yurddan uzaqlarda, harda, hardasa
Torpağa qovuşanda,
Sümüklər torpağa qarışanda,
Güc alıb, ucalıb o sümüklərdən,
Dikələn çiçəklər, güllər, ağaclar
Yaşadır özündə yurdun ətrini.
Yaşadır, yaşadır quruyanda da,
Sümüklər yer altda çürüyəndə də.

## TORPAQDAN DOĞAN GÜNƏŞ

On dördüncü əsrdə
İmadəddin Nəsimi
«Ənəlhəq» deyə yandı.
Şerinin işığından
Dünya nura boyandı.

Gördülər Günəş təki
Şəfəq salır torpağa.
Başladılar işığı
Zülmət ilə boğmağa.

«Yerdə Günəş olarmı?!
Şeir atəş olarmı?!
Bu qara torpaqlara
İnsan işıq salarmı?»

Dandılar həqiqəti,
Söylədilər tərsini.
On dördüncü əsrdə
Soydular Nəsiminin
Buludtək dərisini.

Ancaq qanı şəfəqtək
Sıçrayanda torpağa,
İnsan qəssablarının
Qüvvələri çatmadı
O şəfəqi boğmağa.
Bədəni alışanda
Qıpqırmızı alovtək
Şeirləri dillərdə
Açırdı çiçək-çiçək.
Yayılırdı torpağa
Odu, nuru, atəşi,
Soyulmuş dərisinin
Arxasından doğurdu
Yanan ikinci günəş –
Bir cəsarət Günəşi.
Nəsiminin yerində
İki günəş yanırdı,
Onun şəfəqlərindən
Torpaq işıqlanırdı.

## HANI?

Hanı qələmin, şair Xətai?
Hanı qılıncın, Şah İsmayıl?

Üzü ölümündən bəri
Sən yaşda ölən şairlərimizin,
Ya Araz ağrılı,
        Vətən qayğılı şairlərimizin,
Qələmi qələmindən törəyib, bəlkə,
Yaşayır qələmin, şair Xətai.

Ölümünədək
Sənlə qoşa durduğundan,
Baş-başa durduğundan
Yaşayır qələmin, şair Xətai.
Hər əsrdə neçə yol
Doğurur qələmin,
Vuruşur, döyüşür qələmin.

O qılıncınıydı düşüb qalıb Çaldıranda
Ölümündən xeyli əvvəl.
Səndən sonra neçə yol
Doğulan qələmin,
Vuruşan, döyüşən qələmin
Qılıncını yerdən qaldıra bilmir.

## DOST SƏSİ
Şaiqə

Axdı qulağıma səsin uzaqdan,
Yayıldı qəlbimə duyğun, bəsimdi.

Xəbərin şaddımı, bəddimi – nə fərq,
Mənim ürəyimi duydun, bəsimdi.

Sevincin kəsildi qəmimə qənim.
Qəm neylər, qılıncın yüz də sıyırsa.
Mənim kədərimi dostlarım mənim,
Qəm nədi, özümdən öncə duyursa.

## VAZEHİN ŞEİRLƏRİ

Sirlidi dünyaya necə gəldiyi,
Kimin ürəyindən uçub, güldüyü,
Sözləri – qarışıq, yolları – düyün,
Vazehin şeirləri.

Ətrin özü duymaz, çəməndi bəlkə,
Yüz il bağlı qalan gümandı bəlkə,
Sahili olmayan ümmandı bəlkə,
Vazehin şeirləri.

Gah coşub danışdı, gah da kiridi,
Açarı itibdi, qalıb kilidi,
Dilini unudan adam kimidi,
Vazehin şeirləri.

Yiyəsiz qalandı, kimsəsiz qalan,
Şöhrəti susanda, lal-səssiz qalan.
Hardasa həqiqət, hardasa yalan –
Vazehin şeirləri.

Hansısa alimin alın tərində,
Hansısa şairin şeirlərində,
Təzədən doğular günün birində
Vazehin şeirləri.

## BİR OVUC TORPAQ

Torpaq cadar-cadar,
torpaq qupquru,
Diksindi – bir ovuc su atdım qəfil.
Bu nəydi?
içində gizlənmiş qorun
Yoxsa ki, yanğısın oyatdım qəfil?

Çəkdi bir ovucluq suyu canına,
Sinəsi çatladı diqqətlə baxsan.
Bir ovuc torpağım – ana torpağım
Araz suyu deyil, qorxdunmu, yoxsa?

## QALXMIRSANMI?

Cənublu yaşıdıma

Zaman səni çox üyüdüb
Qismətini yada verdi.
Bu azadlıq çağrışına
Lal daşlar da səda verdi
Qalxmırsanmı yatağından,
Uyğundan qalxmırsanmı?

Ürəyində ölən, sönən
Sözlərini diriltməyə,
Yumruğunda düyünlənən
Qəzəbini əritməyə
Qalxmırsanmı?
          Sıxıntından,
Qorxundan qalxmırsanmı?

Bu nə tale, bu nə yazı?
Ümidinə qəbir qazıb.
Torpağına sipər edib,
Kəmər edib Xan Arazı
Qalxmırsanmı taleyindən,
Baxtından qalxmırsanmı?

**1982**

## YOLLAR

Dərədə çən, düzdə günəş,
Zirvədə dumandı yollar.
Bir kədərdən yaralanıb,
Min sevinc umandı yollar.

Kədər yükü ağır olar,
Kədərli yol fağır olar,
Doğulanda cığır olar,
Öləndə çəməndi yollar.

Əllərimin qabarı,
ürəyimin qabarı
Bir pöhrə ağacdı – tumurcuqlayıb,
Bir parça çəməndi – güllü, çiçəkli.
Bardı, bərəkətdi
Əllərimin qabarı.

Gözümdə çaxan şimşəkdi,
Alnıma söykənən əlim,
Qəlbimi yandıran qəmim, kədərim.
Sonrakı ağlım, Araz dərdim.
Ağ varaqlarda çırpınan duyğularım –
Ürəyimin qabarı.

Deyə bilmədiyim sözdü – boğulub qalıb,
İki damla yaşdı,
Gözlərimdə sıxılıb qalıb

Ürəyimin qabarı.
Əllərimin qabarı,
Yaşıl-yaşıl gözəlliyini,
Budaq-budaq barını gördüm.
Sən neylədin, ürəyimin qabarı?!

* * *

Su görəndə yuxuda
– Xeyrədi, – deyib,
– aydınlıqdı, – deyib babalar.
Hərdən çay da görürəm:
Hirsdənmi, hikkədənmi
burula-burula,
boğula-boğula axır.
Anlamadığım bir nəzərlə
Baxır, baxır…
Çay da su deyilmi?
Elə isə
çaya da aydınlıq
Niyə deyilmir?
Eh, ha aldadaq özümüzü,
babalarım,
şirin-şirin yalanlarla –
nə mənası var?
Yuxuda su görməklə
Aydınlığa çıxmaqmı olar?!

## MƏN ARAZI BELƏ GÖRDÜM…

Bir çay idi, sahilləri səssiz-səmirsiz,
Suları da dupduruydu – göz yaşı kimi.
Səmasında iki tüstü qucaqlaşırdı,
Bir-birinin uzaq düşən qardaşı kimi.

Sahilləri həsrət çəkib, darıxan gördüm.
Fikirlərim daş gözündə yaşa ilişdi.
Sularını sakit axan, lal axan gördüm,
Babaların bir məsəli yadıma düşdü.

Od yurdunu yurdu seçib Araz nə vaxtdı,
Bəlkə, bilir od olanı su söndürərmiş.
Bəlkə, elə düşməsəydi bu yurda baxtı,
Neçə eli, neçə xalqı sevindirərmiş.

Günahkarmı, bəxti düşüb bizim diyara?!
Elə bil ki, bir bıçaqdı kəsir yarımı.
Tuş olmuşuq neçə nəsil bir intizara,
Bir istəyi yaşayarıq əsr yarımdı.

Dəyişməyib, dünənkidi bugünkü arzu,
Bəlkə, elə sabaha da qalan bu oldu.

Ürəyimdən baş qaldırdı bir büküm arzu,
Dörd misralıq bayatıtək göyə ucaldı:

Sahilinin çiçəklərin dərəydim, Araz
Sinən üstə gül körpüsü hörəydim, Araz
Göy səmanda qucaqlaşan tüstülər kimi
Yurdunu da qucaqlaşan görəydim, Araz.

## ÇAY YANINDA…

Çay yanında bir vaxt köhnə dəyirman
Asta-asta üyüdərdi dənini.
Buğdaları tökərdilər bir yandan,
Yığardılar bir tərəfdən ununu.

Nur qonardı gözlərinə hamının,
Bu işıqda əriyərdi qəm-kədər.
Torpaq ətri yayılardı ağ unun,
Sevinc-fərəh qol açardı nə qədər.

Neçə vaxtdı hey ürəyim üyüdər
Buğda-buğda fikirləri, hisləri.
Duyğuları çözələmək bir hünər.
İstərəm ki, hünərimi göstərim

Ürəyimin üyütdüyü duyğunun
İşığını kağızlara çökdürsəm,
Dəyirmanda nur paylayan ağ unun
Sevincitək sevincim var, eh, nə qəm.

Əsl sənət çörək kimi müqəddəs,
Ululuğu göz üstündə saxlarıq.
Dəyirmanlar götürməyir yad nəfəs,
Bədniyyətin yollarını bağlarıq.

Bu sənətdə girələnən birtəhər
Sorğusunu anmalıyıq sabahın.
Dəyirmanlar haqq işini görürlər,
Hər yanda var baş ağrıdan, «çax-çax»ı.

Dəyirmanlar üyüdərdi dənini,
Nur yayardı bu torpağa bərəkət.
Bir az fərqli, eyni işdi işimiz,
Dəyirmanda hərəkət var, hərəkət.

## ŞƏKİLLƏR

Birində sevincli, birində qəmli,
Ömrümü yaşadır cizgilərində.
Baxıram, duyğular bürüyür məni,
Sirrini gəzirəm, sirri dərində.

Yaddaş zəmisinə düşən qığılcım,
Yaddaş qayığına avar şəkillər.
Arzusu sozalmış, odu azalmış
Kövrək ürəklərə bahar şəkillər.

Donubdu gözlərdə sevinc nidası –
Xoşbəxtlik duyulur bəzilərində.
Hərdən qəm şüası, kədər sədası,
Ürəklər oyulur bəzilərində.

…Bir köhnə şəkilə qayıtdı bahar,
Bir nəğmə oyandı, açıldı dərdim:
«Ötən günlərimi qaytaraydılar
Gələn günlərimdən qurban verərdim».

Bu necə duyğudu, bu necə hisdi?
Şəkillər özümü alar özümdən.
Gözəl günlərimi bir də əlüstü
Təzədən qayıdıb yaşayaram mən.

Ötən arzuları oyatmaq üçün
Bir çınqı alov da bəs edə bilər.
Çevrilib dünənə qayıtmaq üçün
Yaxşı ki, dünyada yaşar şəkillər.

## BULAQ, MEŞƏ,
## SÜNBÜL AĞRISI

Bu bulağın suyu baldı,
O gur çağı harda qaldı?
Gözü qəfildən qaraldı,
Suyunu kəsdi – göynədi.

Sevinc ona yad düşübdü,
Ağacları bürüşübdü.
Hansı əldən od düşübdü –
Tuş edib məni alova,
Meşədə tüstü göynədi.

Zəmi gördüm, yanan gördüm,
Bu kədəri, anam, gördüm.
Yerə düşən çörək kimi,
Sünbülü tapdanan gördüm,
Gözümün üstü göynədi.

## YÜZ BƏLALI MƏZAR

*«Ustad şairimiz Füzulinin qəbri sökülmüş,*
*üzərindən asfalt çəkilmişdir»*
**(Qəzetlərdən)**

O torpağa necə düşdün, ay babam,
Qəbrinə də həsrət qalıb el-oban.
Ömür-günün heç keçdimi firavan,
Ömrü-günü dərdə-qəmə salanım.

O Kərbala hardan sənə tuş oldu?
Bir ulusun gözü dolu yaş oldu.
Arzuların qanadlandı – quş oldu,
Fikirlərə, xəyallara dalanım.

Torpağını yudu yağış, yudu qar,
Burda elin xəyalınla sızıldar.
Məzarının başında yüz bəla var,
Məzarının başına mən dolanım.

Bu torpaqda üzə gülür qızıl dan,
O torpaqda bir nəfəs çək, qalx, oyan.
Şeri, sözü dünyamızı mat qoyan,
Sümükləri asfalt altda qalanım.

**1981**

## QIRMIZI İŞIQ ÖNÜNDƏ

*(bir ahıl sürücü ilə söhbət)*

– Bu qırmızı nə çox yandı,
Səbrim daha paralandı.
Yol boşdu sür gedək, – dedim, –
Ömür də çox gödək, – dedim.

Qaşlarını çatıb dedi:
– Tələsmə, oğlum, tələsmə.
Qızılgüllər açıb, solub,
Qara gözlər yaşla dolub.
Tələsənlər məğlub olub –
Qırmızı işıq önündə.

– Bu dünyaya mənim – dedi
Bu dünyanın çox igidi.
Səbirsiz qurdtək yedi
            qoca dünya
Qırmızı işıq önündə.

Parıldamaz bəxt ulduzu
Taleyin üzü dönəndə.
Kim tələsib – o uduzub
Qırmızı işıq önündə.

Yollarında yaşıl işıq yandırılan
Dayanıqlı bu yolları
Dayanıqsız keçən çoxdu.
O yolların lap sonunda

Bir qırmızı işıq yanır – bilən yoxdu.
Qulaq asdım bu sözlərə,
Qəlbdəki yanğını duydum.
Bir ahılın ağ saçının
Söylədiyi hikmət buydu.

Arzularım əyilməyə,
sarsılmaya, duya məni.
O zaman lap hər addımda
Qoy sınasın dünya məni
Qırmızı işıq önündə.

Aldanmaya gözüm, ağlım,
Uzaqdan görünən dağın,
Ya da bir dolu budağın
Göz oxşayan yaşılına –
Qırmızı işıq önündə.

Asan yol gərək nəyimə?
Avar olmaz diləyimə.
Səbrim, sən yet köməyimə,
Qırmızı işıq önündə.

## ÜRƏYİM YOL GEDİR…

Bir aylı gecədən oyaq ürəyim
Təzə duyğularla səhərə çıxıb.
Bir aylı gecədən uşaq ürəyim
Başlayıb bir sirli səfərə çıxıb
Yol gedir, yol gedir ay işığında.

Dünyanı, elə bil, o gecə görüb,
Süzülən işığın yumşaqlığıyla,
Ömrümün müqəddəs uşaqlığıyla
Qol-qola girib,
Ürəyim yol gedir ay işığında.

Süzülüb qəlbimə ilahi bir güc,
Sədlər, hədələr,
Bu sehrin önündə əriyəsidir.
Yalançı ilhamlar, haraycı səslər
Nəğməsi dinəndə kiriyəsidir –
Ürəyim yol gedir ay işığında.

Oyaq gözlərimlə dünyanı süzsəm,
Uşaq ürəyimlə şerimi yazsam,
Bir yaz, bir bahar
Gül-çiçək gözündə, qaya döşündə
Təzədən doğulmaq gümanım artar,
Ürəyim yol gedir ay işığında.

*21 yaşımın ayrılıq günü,*
*Qoyma öləziyim, qıyma ki, sönüm!*

İlhamı şam kimi yanıb tükənir,
Bir zaman şerini əzbərlədiyim,
Odlu misrasını əzbər dediyim
İşıqlı şairlər, cavan şairlər.

Sönür ekranlarda, gen kürsülərdə
şeri özlərindən tez qocalanlar,
Odları tükənən – yavan şairlər.
Təzə söz adına
Köhnə bayatını təkrarlayırlar.
Elə bir yerdəcə sayır, sayırlar,
Şöhrətin ardınca çapan şairlər.

Yanaqdan süzülən bir cüt yaş kimi
Sürüşüb gözümdən düşür gümanım.
Sirli yaddaşımın sınır tilsimi:
«Nehrəsi çalxanır qoca zamanın».

21 yaşımın son gecəsində
Özümün özümlə davam başlayır.
Sevgimin atəşi dinir səsimdə,
Şerimlə, sözümlə davam başlayır…

…Otuz beş yaşımda qalxıb kürsüyə
İyirmi bir yaşımda yazdığım şeiri
Əgər soyuq-soyuq, hissiz-ürəksiz
Təzə söz adına oxuyacamsa,
Gəncliyin yarımçıq misralarını
Yamayıb, közəyib toxuyacamsa,
Baxıb görəcəmsə
İyirmi bir çıxıbdı iyirmi birimə!
İyirmi bir yaşında bir təzə qardaş
Baxıb güləcəksə boyat şerimə,
Candərdi alqışlar, yalan şöhrətlər,
Çiçək yağışları,
          gül yağışları
Salondan yollanan «bol səxavətlər»
Söndürəcəkdirsə olan odumu,
Başımın altına tük yastıq qoyub
«Dostlar» öyəcəksə
istedadımı.

Gəl öldür bu axşam,
          sındır bu axşam.
Yaşımın yaşılı çağına baxma.
Şerin od qoxulu səltənətinə
Ey ilham pərisi, məni buraxma!..

**SU DAŞI**

Bu su daşdan keçincə
Nə çəkir, Allah bilir.
Daş çəkir suyun
Şəhdini-şirəsini.
Ən iri damcı da
Əzilir, didilir.
Bu su bu daşdan keçincə
Nə çəkir, Allah bilir.

Dadında dad qalmır bu suyun,
Tamında tam,
Rəngindən, duruluğundan
Qorxur adam.

Son damlalar süzüldükcə
Daşın dibində
Bir çimdik qum
        Balıq kimi çabalayır,
        Ürək kimi döyünür,
        Yumruqtək sıxılır.
Son damlalar süzüldükcə
Su bo-ğu-lur,
        bo-ğu-lur
        daşın dibində.
Bu su bu daşdan keçincə
Nə çəkir, Allah bilir.

## ONDA SİZƏ SÖYLƏYƏRƏM

Mənə belə yuxarıdan baxmayın,
Gizli-gizli danışmayın dalımca.
Məni belə sındırmayın, sıxmayın,
Yorub-yorub eləməyin yarımcan.

Yerişimə, duruşuma irişib,
Əllərimi, qollarımı qırmayın.
Ötüb getsəm baxıb-axıb gülüşüb,
Göyə qalxan yollarımı qırmayın.

Mən də sizin birinizəm bəlkə də,
Ölünüzəm, dirinizəm – bilmirəm.
Açılmayan sirrinizəm bəlkə də,
Dərdinizəm, sərinizəm, bilmirəm.

Sizdən ötüb, sizdən keçən illərin
Sevincləri, kədərləri canımda.
Sevgiləri, həsrətləri, qəmləri,
Qüssələri, qəhərləri canımda.

İçinizdə buz bağlayan duyğunu

Əridəsi bir atəşəm, vulkanam.
Gözünüzdə xumarlanan uyğunu
Qaçırası bir küləyəm, tufanam.

Mənə belə yuxarıdan baxmayın,
Divin canı şüşədəki quşdadı.
Məni belə sındırmayın, sıxmayın,
Kəlmələrim, sətirlərim yaşlıdı.
Mənə belə yuxarıdan baxmayın,
Kövrəldərəm, ağladaram sizi mən.
Bir ağrılı sevginizi dirildib,
Əridərəm aram-aram sizi mən.

Əridikcə özünüzə qayıdar
Özünüzün ağrıları, dərdləri.
Mən keçdiyim yolları siz keçərsiz,
Darıxarsız onda məndən ötəri.

Yuxarıdan baxıb-baxıb tapmayıb,
Onda məni yuxarıda gəzərsiz.
Bir ulduzun işığından sıyrılıb
Onda sizə söyləyərəm: «Nətərsiz?»

## AĞ İŞIQ

Aynabənddən çarpayıma süzülən işıq,
Məni rahat buraxmayıb illər uzunu.
Yatağıma girən zaman gözüm qamaşıb,
Pərdələrlə gizləmişəm işartısını.

O pərdələr qarşısını kəsə bilməyib –
Ağ işığa cığır olub açıq yaxası.
Haylamışam əllərimi sipər eyləyib,
«Harda qaldı uşaqlığın şəkər yuxusu».

Əllərimin istisindən bezib gözlərim,
Üzüqoylu bürünmüşəm gül yorğanıma.
Kürəyimdə qırmanc kimi göynəyib yeri,
O ağ işıq damla-damla hopub canıma.

Qəzəbimi yumruğuma düyüb çıxmışam,
Söndürmüşəm aynabənddə yanan işığı.
Röyaların şəfəqində bərk karıxmışam,
Yuxuma da gələn görüb həmən işığı.

İndi zülmət gecələrdə pərvanə kimi
Varaqlara çırpınıram həyəcanımdan.
O ağ işıq nəfəs-nəfəs qalxır sinəmdən,
Sətir-sətir, misra-misra çıxır canımdan.

* * *

Baxar atam gözlərimə,
Baxar anam gözlərimə.
«Hər an fikirlisən» – deyib,
Dərd edərlər özlərinə.

Dörd edər ikiylə iki,
İki iki dörd eləməz,
Gözümdən boylanan fikri –
Təbəssümüm pərdələməz.

Tapılardı balaca köşk,
O yerlərdə tapılardı.
Eh, mənim də bu dünyada
Bir qayğısız ömrüm vardı.

Bir işıqdan keçdim, anam
Gözlərimi dörd elədi.
Ürəyimi ipək kimi,
Sözlərimi sərt elədi.

## YASTIQ

Doğulan kimi
Başının altına yastıq qoydular.
Oturan kimi
Böyrünə-başına yastıq qoydular.
Yeridi – düzdülər keçdiyi yola.
Sonra noğul yastığı,
Sonra nağıl yastığı.

Başı üşüyəndə papağı yastıq,
Əli üşüyəndə bayrağı yastıq,
Qəbri üşüyəndə torpağı yastıq.

Ağrıyan dişinə yastıq qoydular
Ləngiyən işinə yastıq qoydular
Axırda yastığa öyrəncəlilər
Çarxın gərdişinə yastıq qoydular.

Çarxın gərdişinə yastıq qoydular
Yuxulatdı bu adamı,
Günün günorta çağında
Yuxu tutdu bu adamı.
…Yatıb yuxuda gördü ki,
 ipək yastığı daşlaşıb,
 ayağına dolaşıb.

Addımını ha atır, ata bilmir,
Ayağını ha dartır, darta bilmir.
Yastıq çəkir onu quyutək.
Ayağı balacalaşır,
Əli, qolu balacalaşır,

Boyu balacalaşır.

…Diksinib ayıldı yuxudan.
Başı yastıqdan düşmüşdü.
Çəkdi yastığı başının altına…

## KİMSƏN, EY DOĞULAN

Kimsən, ey doğulan?!
Ağlaya-ağlaya
Neçənci əsrdən dönüb gəlirsən?
Dünyanın sirrini yəqin bilirsən.
Danış, de görüm
– Mən sənin nəyinəm,
sən mənim nəyim?
Kimsən, ey doğulan?

Günəşin istisi qurutmayınca,
Küləyin nəfəsi, havanın dadı
yuyub aparmayınca
Buğlanan, tər yaddaşını,
danış, din görüm!
Kimsən, ey doğulan?!

Bu günəş, bu hava
Qamaşdırar üz-gözünü,
işıqda açılmış
foto lentitək
solar, solar yaddaşın;
Dil açanacan
unudular yaddaşın…
Danış, din görüm –
Kimsən, ey doğulan?..

* * *

Gecə qara pərdəsini endirər,
Ağır-ağır çökər yerə qaranlıq.
Şəhərlər də işığını söndürər,
Bircə şair otaqları işıqlı,
Bircə şair işıqları yanılı.

O ağaran işıqlarn içində
Şairlərin közərtisi görünər.
Dilimlənər otağının küncündə
Ocaq kimi – qızartısı görünər.

Bəlkə Yerə bu vədələr, bu vaxtlar
Nə lampalar, nə çıraqlar nur yayar.
Ulduz-ulduz işıldayan otaqlar,
Alovlanan o ocaqlar nur yayar.

Bəlkə həmin işıqların əksidir,
Göy üzündə ulduz olur təzə-tər.

Bəlkə, həmin ocaqlardı isidir,
Körpə dünya rahat yatır gecələr.

Şairlərdi gecələrin qapqara
Zülmətinə alov kimi səpilən.
Şairlərdi dünyamızı aparan
Kainatın işıq gələn səmtinə.

## FUTBOL OYNADIĞIM YADIMDAN ÇIXIB

Yüz yol yıxılardım, dəyib daşlara,
əllərim, qollarım yaralanardı.
Gah dizim, dirsəyim paralanardı.
Süzülüb axardı tər dabanımdan.
İndi unutmuşam,
O günüm, o çağım yadımdan çıxıb.
Son dəfə
Futbol oynadığım yadımdan çıxıb.

O gündən bəriyə nəyim qalıb ki?
Bu qollar, ayaqlar mənimki deyil.
Qovulan o toplar mənimki deyil,
Dirəklər, dayaqlar mənimki deyil.

Vurulan topların, dəyən daşların
Daha sızıldamır yeri canımda.
Daha yüyürmürəm yıxılanacan,
On il, on beş ilin
təri canımda.

On il, on beş ildi topsuz-filansız,
Yenə də yıxılan, əzilən mənəm.
Amma yıxılanda dizim qanamır,
Amma yıxılanda qolum əzilmir.
Çünki yıxılıram ürəyi üstə,
Futbol oynamağı yadırğayandan.

## HƏLƏ Kİ VAXT VAR

Gizlənqaç oynayan, top qovalayan,
Yorulub dincəlmək bilməyən adaş.
Üzünü-gözünü toza bulayan,
Vaxt tapıb tərini silməyən adaş.
Bir qaldır başını, aç qulağını,
Səni səsləyirlər eyvanınızdan,
Adın təkrarlanır gör neçə vaxtdan.

Bu səda eləcə titrətdi məni,
Bu oxşar çağırış kövrəltdi məni.
İllər arxasında elə bu yaşda,
Elə bu geyimdə, bu əyin-başda,

Çəkib oyunların dərinliyindən,
Topun, gizlənqaçın şirinliyindən
Məni də beləcə səsləyibdilər,
Məni də beləcə çağırıbdılar.

Məni çağırdılar…
Topu uşaqlara ötürüb getdim.
Məndən kiçiklərə, balacalara
Gözəl oyunları pay verib getdim.

Məni çağırdılar…
          Çəkib nağıldan,
Sehrli qarını çağırmadılar.
Qıratı, Düratı çağırmadılar.
Zümrüd quşlarını çağırmadılar.
O uzaq illərin işıqlığında
Çiçək arzularım boy atır hələ
Ayrılıb ilahi uşaqlığımdan
O səsin ardınca gedirəm elə.
Durub uşaqlığın son döngəsində
Qısıb öz boynunu gözlər qayğılar.
Sıxar ümidini məngənəsində,
Çıxar yaddaşından sirli nağıllar.

Yağacaq zamanın yağışı qarı,
Gözünə gah duman, gah çən qonacaq.
Mənim bu günəcən yaşadıqlarım,
Sənin həyatında təkrarlanacaq.

Oyna, oyununu qoyma yarmçıq,
Demə ki, hardasa tale var, baxt var.
Ümidin işıqlı,
yolları açıq
Oyna, körpə adaş,
Hələ ki vaxt var…

## KİBRİT QUTUSUNA YAZILAN ŞEİR

Bir dolu ürəyin püskürmə çağı,
Yolların darmacal vaxtına düşüb.
Bir ulu duyğunun şeir olmağı
Kibrit qutusunun baxtına düşüb.

Buğlanan sətirlər, kəlmələr isti,
Boylanır səmaya, baxır günəşə.
Qayada zoğ atan körpə şitildi,
Dikəlib asfaltı deşən bənövşə,
Kibrit qutusuna yazılan şeir.

Bir qəfil hönkürtüdü –
Sinədə boğmaq olmayıb.

Kim qovub, kim hürküdüb,
Cilovunu yığmaq olmayıb?

…Yüz də sınan, min də sınan
İnamım var savaşına.

Köç yolunda, at üstündə
Qəfil körpələr doğulub
Hamıdan sağlam oldular.
İldırımla savaşdılar,
Küləklərlə yarışdılar –
Ağ atlı oğlan oldular.

## BİR SİRLİ GECƏNİN QANADLARINDA

İzsiz ötüşməyir ömürdən hər gün,
Yaddaşa hopan var, yadda qalan var.
Bir sirli nəğmənin qanadlarında
Təzədən ömürə qayıdan an var.

Bir xoşbəxt günümün şahidi kimi
Yaşayar bir nəğmə günümlə qoşa.
Dillənər – dünənə çəkər qəlbimi,
Dillənər – ürəyim köz-köz alışar.

Gözəl günlərimin qonşuluğunda
Yaşayan nəğmələr məni yaşadar.
Ömrümün səssizcə ötən çağında
Oyanıb kədərə, qəmə daş atar.

Təzədən yaşanan gün var həyatda –
Ətri ətrafımda, odu qanımda.
Sevinclə başlanan gün var həyatda,
İsidər o məni soyuq anımda.

Günlərim, alışın, könül odumda
Alışan günlərin xatirəsi var.
Bir köhnə nəğmənin tanış adında
Bir xoşbəxt günümün sevinc səsi var.

* * *

Payız bürümüş yaylağam,
Sapsarı saralıb qəlbim
Tənhalığın ürəyimə
saldığı xallar
Saralmış yurd yerləridi.
Bu an,
tənha qalan
fikir əlində haçalanan
Mənəm,
Gücüm yox dinəm,

Məni payızdan qurtarın,
Bahar dostlarım!

## DƏMİRYOLU
## KƏNARINDA BİR KƏND

Dəmiryolu kənarında
bir kənd.
Yuxu görər hər gecə;
    …Dağ döşü,
    Ay işığı,
    Gül qoxusu,
    Çay şırıltısı.
Gecə qatarlarının
    işığı deşər gözünü,
Gecə qatarlarının
    fit səsinə
    ayılar yuxudan.
Çay bilər
    qatar təkərlərinin səsini.
Ay bilər
işığını bir anlığa
Təzədən qayıdıb qaranlığa
Yuxu görər
Dəmiryolu kənarında bir kənd.

## BAHARIN YOLLARI

Qəlbdəki ağrılar, qəlbdəki qəmlər
Süzülüb gözdəki yaşdan keçirmiş.
Sinədə göynəyən kövrək duyğular
Çevrilib xəyala, başdan keçirmiş.

Sevinc bir qarışdı, kədərsə dərin,
Boğulmam içində hər dərdi-sərin.
Dünyaya ümidlə baxan kəslərin
İşləri qayadan, daşdan keçirmiş.

Həsrət içindədir – ürək sustalıb,
Onu qəm bələyib, onu qəm alıb.
Ha de ki, bahara bir addım qalıb,
Baharın yolları qışdan keçirmiş.

## BU KƏDƏRİN

Bu kədərin qarşısında bir dağam,
Bu kədərin qarşısında əyilməm!
Gecəsində, zülmətində oyağam,
Yanlış olmaz nə naxışım, nə ilməm.

Yollarımı duman kimi bürüyüb,
Sıxlığında sevinclərim əriyib.
Batammayıb, ya da gücü çatmayıb,
Əlimdədir ümidimin hörüyü.

İnadım var – şimşəkləri yorası,
İnamım var – dumanları yarası.
Arzularım kəhər atın yorğası,
Muradımı çatdıracaq mənzilə,
Nəğmələrim ucalacaq ən zilə.

Bu kədərin qarşısında bir dağam,
Bu kədərin qarşısında əyilməm!

* * *

Ömrün sevincli-qəmli anları,
Nəğmələrə çönüb,
        yaddaşıma yazılıb.
Nəğmələr
        günləri sonalayıb elə bil.
Bir çoxdankı nəğmə
        bürüdü məni,
Qəlbimdə
        duyduğum arzular oyandı,
        İlk dəfə eşidəndə o nəğməni.
Qalaq-qalaq,
        donuq xatirələrin açıldı düyünü.
Amma
        yaddaş içindən,
        xatirə köçündən
arıtlaya bilmirəm,
O nəğmənin sonaladığı günü.

## EV

*(gecəqondulara)*

Gizlənqaç oynayan uşaqlar kimi
Günəş tapa bilmir
        bu evin qaranlığını.
Bir balaca otaqdı,
Azca işıqgələni,
Pəncərəsi var,
Onun da bu üzünü
        kitablar tutub,
O üzünü –
        qonşunun qır qazanı.

Bu otağın havası ağır,
Havası ağır bu otağın!
Gizlənməkdən bağrı çatdadı
        qaranlığın…

## ÖLƏZİYƏN ŞAM

Qaranlıq otaqda öləziyən şam,
Gecə zülmətini üstümə salma.
Kövrək alovuna tək qısılmışam,
Bu axır ümidi əlimdən alma.
Bu axır ümidi əlimdən alma,
Alış, yan həsrətin sonuna kimi.
Hələ öləzimə, hələ qaralma,
Parla gur işıqlar yanana kimi.
Bir solan çəmənin yalqız çiçəyi,
Ağaran saçların qara ləçəyi,
Gözümün sonuncu söykənəcəyi –
Qaranlıq otaqda öləziyən şam.
Bu kövrək, bu ipək titrəyişində
Ümidlə əriyən yüz anım qalıb.
Qəfil oyanası nur gəlişində
«İşıqlığa çıxmaq» gümanım qalıb.
Qaranlıq otaqda öləziyən şam,
Saxla işığını bir az bu axşam.

## GECİKMİŞ QAR

Göy üzü donunu çırpa bilmədi,
Ləngiyib apreldə ayıldı bu qar.
Yerdə özünə yer tapa bilmədi,
Bu qarı çiynində dəfn etdi otlar.

Ağappaq çiçəkli budaqda itib,
Güllərin köksündə yox oldu bu qar.
Bildilər qış fəsli, qış oyunu bitib
Bu qardan qartopu uman uşaqlar.

Hardakı gecikdi istəyim, arzum,
Hardakı mənzilə gec çatan oldum.
Gecikmiş qar təki qalmadı izim,
Gecikmiş qar təki baş qatan oldum.

## OXŞAR GÜNLƏR

*Dostum Vaqifə*

Hamısı bənzəyir biri-birinə,
Yadımda günlərin nəyi qalacaq?
Xatirə axtarır qəlbim bürünə,
Fikrim arzularda yuva salacaq.

Qurtara bilmirəm bu oxşarlıqdan,
Qurtula bilmirəm – qəribə sirdi.
Təkrardı hər saat, təkrardı hər an
Ötüşən günlərim eynidi, birdi.

Durub bu günlərin sonundan baxsam,
Bu uzun günlərim o an qısalar.
Yığıb bu günlərin suyunu sıxsam,
Ələkdən keçirsəm üç-dördü qalar.

Belə bənzəyişlər ömrümü didər,
Belə bənzəyişlər – bahar qarıdı.
Havada əriyər, havada itər,
Havayı günlərim su buxarıdı.

Hamısı bənzəyir biri-birinə,
Yadımda günlərin nəyi qalacaq?
Xatirə axtarır qəlbim bürünə,
Fikrim arzularda yuva salacaq.

## NƏ VARDI

Ümidlərin işartısı süzülüb
Arzuları bürüsəydi, nə vardı.
Körpə-körpə duyğularım sinəmdən
Kədərimi kürüsəydi, nə vardı.
Ürəyimin tənhalığı, təkliyi
Misralarla kirisəydi, nə vardı.

## KİMSƏ YANAR,
## KİMSƏ GÜLƏR

Bir şimşəkdən köz götürdü ürəyim,
Alışıb da qələm aldım əlimə.
Bir ocağın odu oldu dirəyim,
Alov-alov sözlər axdı dilimə.

Yazan yazıb, «ha çağırım, ha yazım»,
Daha məni baha tapar murazım.
İlan kimi qıvrılanda Arazım,
Acıdım da gözlərimin selinə.

Yaraları ha tərpədər qələmim,
Faydası nə, bir körpədir qələmim.
Ürəyimdən alov didər qələmim,
Kimsə yanar, kimsə gülər külümə.

* * *

Köhnə maqnitofon lentləri –
Ötən günlərimin xatirə toplusu,
Yaşadır özündə

uşaq səsimi,
uşaq sevincimi.
Bu axşam
Qədim əlyazmasıtək
tapdım
xatirələr hörgüsünün
Uçuq divarları arasından
bir köhnə sevgimi,
tanış hissimi,
uşaq səsimi.

## SƏS

Bu adamın içində
neçə vaxtdı
bir səs sıxılıb, darıxırdı.
Ağzını açırdı bu adam –
Zəhmli gözlər görürdü səsi,
Qorxulu üzlər görürdü səsi,
burulurdu,
qırılırdı səs,
donurdu, karıxırdı.
Danışa bilmirdi bu adam,
dinə bilmirdi.
Ağzını açırdı söz söyləməyə
nəfəsi gəlirdi,
səsi gəlmirdi.
Susurdu, susurdu,
dilini dişinə sıxıb
gözləyirdi, pusurdu.
Səsi qalxırdı, oyanırdı,
gəlib-gəlib boğazında qaynayırdı,
dayanırdı –
qəhəri boğantək
boğurdu səsi.
Ayaqdan başacan
səsdi bu adam,
Başdan-ayağacan hirs.
Səsi gəlib boğazında boğulanda
Hirsi gəlib biləyində, topuğunda oyanırdı
Səsi, hirsi qarışırdı
bir-birinə,
Bədəninə yayılırdı.
Titrəyirdi qolları,
Ayaqları, əlləri,
Bir saz telləri kimi
Əsirdi əsim-əsim.
Bədəni taxta deyildi ha,
eşidilmirdi səsi,
Susurdu, susurdu,
dilini dişinə sıxıb
gözləyirdi, pusurdu.

Səsi qalxıb gözlərindən daşırdı,
gözləri yaşarırdı.

Parıldayan gözlərdə də
görməyəndə bu səsi.
Yoruldu, bezdi bu adam,
Göz qapaqlarıyla
gözünə yığılan səsi.
əzdi, əzdi bu adam.
Səs sıxıldı, büzüşdü.
İki damla yaş oldu –
gözlərindən sürüşdü
Yığıldı qollarından, əllərindən
axdı, torpağa düşdü.

Bu torpaq səsiylə doluydu, Allah,
Nə qədər səs vardı torpağın altda.
Ağac köklərində, ot köklərində,
Hər daşan, qaynayan bulağın altda.

Titrəyə-titrəyə gedirdi bu səs,
Bu səsə səslərdən səs qarışırdı.
Torpağı eşirdi, didirdi bu səs,
Bu səs dəyişirdi, başqalaşırdı.

Yığırdı canına bütün səsləri,
Bütün qəzəbləri, əsəbləri də.
Çəkirdi özünə od nəfəsləri,
Hirsləri, qəmləri, qəhərləri də.

Beləcə geriyə qayıtdı bu səs,
Gəlib tapdı bu adamı,
Bu yazıq, səssiz adamı.
Bu adam harda görmüşdü,
göz yaşının torpaqdan
dikəldiyini,
bu adam harda görmüşdü?!
Səsi geriyə dönmüşdü!
Yayıldıqca bədəninə,
bu adam cana gəlirdi,
Sınıxmışdı, sıxılmışdı,
ətə-qana gəlirdi
Hər nəfəs çəkdikcə
içindəki səs
bətndə körpətək qımıldanırdı.
Səsi dirilirdi,
titrəyirdi.
Bu adama heyrətlə
baxırdı hamı.
Zillənmişdi gözlər ona.
Bu adamın gözünə,
Bu adamın ağzına

qorxuyla baxırdılar.

…Açdı ağzını bu adam,
Səsi çıxmadı
Gözlərin qorxusu bir azca söndü.
Bir də açdı ağzını bu adam...
Titrədi zirvələr, dağlar, dərələr
Qulaqlar tutuldu, gözlər bərəldi.
Açıldı bir nəhrin, bir selin ağzı,
Dünya kiçikləndi, dünya daraldı.

Qatıb qabağına zəhmi, qorxunu,
Torpağın dibindən dönürdü bu səs.
O illər qocası, illər yorğunu,
Yerin əsəbindən dönürdü bu səs.

* * *

Nə titrəyir bircə yarpaq,
Nə göydə bulud dəbərir.
Yanırmı görən bu ocaq?!
Nə alov, nə od dəbərir.

Şırıldamır damarda qan,
Sükutda boğulur adam.
Nə titrəyiş var havada
Nə qəlbdə ümid dəbərir.

Əvvəlidi, yoxsa sonu?
Donub dünyanın bu anı.
Nə bir ölüm qımıldanır,
Nə də ki, həyat dəbərir.

## ƏSİR ELƏYİB

Zirvəyə can atan o cığır, o iz,
Güneyə, quzeyə sevinc çiləyib.
Uzaqda qızaran lalə dənizi,
Dağların qoynunu qana bələyib.
Təbiət varını yığıb elə bil,
Bu yerdə torpağa, daşa çiləyib.
Köçürüb heç yana aparmaq olmur –
Dağlar gözəlliyi əsir eləyib.

## YADDAŞIMDA
## XATİRƏSİ QALANLAR

Sözlərindən ürəyimə qor dolub,
Yaddaşımın aynasında qalıblar.
Səsləri də alov dolu, nur dolu,
İstəyimə ümid odu salıblar.

Ağ saçları ululuğun nişanı,

Əridiblər dərdi-səri həyatda.
Bu dünyada əbədilik yaşayır,
Köç etsə də, bəziləri həyatdan.

Qoşa gözüm əksinizi daşıyır,
Ürəyimdə amalınız yaşayır.
Bir ömrü də mənlə birgə başlayır,
Yaddaşımda iş qoyub, iz salanlar,
Yaddaşımda xatirəsi qalanlar.

**GÖY ÜZÜ**

Bu dünyanın havasından, suyundan,
Torpağından, dənizindən, çayından,
Zirvəsindən, dərəsindən savayı,
Bu dünyanı öz ovcunda saxlayan
Kainatı göy xurcunda saxlayan
Göy üzü var başımızın üstündə!

Nə yeməli, içməlidi göy üzü,
Nə dənizdi – keçməlidi göy üzü.
Heç haradı, heç nədimi göy üzü?!
Boş-boşuna başımızın üstündə.

Biz bilmirik, xəbərsizik, hər səhər
Gözümüzü göylüyünə açırıq.
Tutqun olsa, kefimiz də – «birtəhər»,
Duru olsa, biz də işıq saçırıq.

Gecələri ulduzları işarır,
Çəkib dartır ümidləri yanına.
Çox baxırıq gözlərimiz yaşarır,
Yetəmmirik sirlərinin sonuna.

Min illərdi talelərlə baş-başa,
Göy üzüdü, ulduzlardı yaşayan.
Dünyamızı «əldən salan», yaşlaşan
Ömürləri karvan kimi daşıyan
Göy üzüdü bu dünyanı bütövcə
Öz ovcunda
Göy xurcunda saxlayan!

Bir iynəcə göy sinəsi yarılsa,
Neçə ümid, neçə tale qırılar.
İnsan ağlı qəlbinə çox sarılsa,
Bü dünyanı saxlamaqdan yorular.

…İllərini işıq edib oğullar
Özləri də o işıqdan keçiblər
Göy üzünü qorumağın xətrinə.
İndi durub çiyin-çiynə, qol-qola

Yığışıblar göyün mavi çətrinə –
Göy üzünü qorumağın xətrinə.

Gözlərində ulu göyü gəzdirər,
Ürəklərə işıq yayar, köz verər –
Arzuların göy üzüdü şairlər,
Ümidlərin göy üzüdü şairlər,
Sevgilərin göy üzüdü şairlər!

## ATAMA

Qəlbimiz bir olub, ürəyimiz bir,
Mənim kədərimə hər an yanmısan.
Mənim uğuruma özümlə birgə,
Duymuşam, şadlanıb-qanadlanmısan.

Bu cavan yaşımın kiçik səhvləri,
Saçının ağına hopub elə bil.
Mənim ürəyimin gizli ahları
Sənin ürəyindən qopub elə bil.

Ömrüm apaydındı qarşında sənin,
Yaxşımı, pisimi görmüsən, ata.
Bəzən təsəlliyə möhtac olmusan,
Mənəsə təsəlli vermisən, ata.

Bir yol başlamışam üzü günəşə,
Kimsə bu yolumdan döndərə bilməz.
Sevincin önümdə bənzər atəşə,
Onu heç tufan da söndürə bilməz.

Büdrəsəm sızlayar yaran – bilirəm,
Ümid doğrulmasa – yaşamaq çətin.
Oğulluq adını haram bilərəm,
Əgər ucaltmasam başını sənin.

**1979**

## YAĞIŞDAN SONRA

Yağış əlləriylə
Bahar elə bil,
Səmadan, buluddan
Su sağar yerə.
Ağacdan ağappaq
Çiçəklər deyil,
Bir ağac kölgəsi
«Qar yağar» yerə.

Buludlar dağılar
Səmadan haçan,
Çəmənin çiçəyi
Ağıl çaşdırar.

Günü demirəm heç,
Torpağa baxsan,
Yamyaşıl otlar da,
Göz qamaşdırar.

## PƏRVANƏSİ

Günəş qalxıb nur çiləyər,
Torpaq – günün pərvanəsi
Səhərə sağ çıxa bilməz,
Gecə – danın pərvanəsi.

Qar ələsə yerə göylər,
Gül üşüyər, çiçək göynər.
Buz bulağa Günəş neylər?! –
Bulaq – donun pərvanəsi.

Dərəyə en, zirvəyə qalx,
Gözəllikdi qucaq-qucaq,
Dağlar – oddu, dağlar – ocaq,
Rəşad – onun pərvanəsi.

## ÇƏTİN Kİ...

Qaranlıq kölgətək çökər dağlara,
Həsrətdən meşənin bağrı sökülər.
Bu üzdə çiçəklər, güllər ağlayar,
Aydınlıq o üzdə yanıb tökülər.
Hay verməz haraya-haya bu dağlar,
Çətin ki, boy verə Aya bu dağlar.

Çiçəklər can atar Ay işığına,
Amma o istəyə əlləri yetməz.
Sıxar sinəsinə gözəlliyini,
Zirvəylə göylərin oyunu bitməz.
Çətin bu diləyi duya bu dağlar,
Çətin ki, boy verə Aya bu dağlar.

Ay harda qalıbdı, hələ görünməz,
Az qalıb, olacaq gecə də yarı.
İnadından dönməz, əhdindən dönməz,
Dartınar elə bil səmaya sarı.
Qalxacaq göylərə guya bu dağlar,
Çətin ki, boy verə Aya bu dağlar.

## SÖNƏN DEYİL

Öz səmtini tapan cığır,
Öz səmtindən dönən deyil.
Bu yol üzü zirvəyədi,
Düzənlərə enən deyil.

Bu yolun önü daş-kəsək,
Ürəkdə od olsun gərək.
Dinənlər hər vaxt dinəcək,
Dinməyənlər dinən deyil.

Günlər bizi yaman qovur,
Rəşad, dayanma bir hovur.
Qəlbində od, gözündə nur –
Heç birisi sönən deyil.

## DƏNİZ-GÖY

Bu səhər, qəribədir,
Qımıldanmır göy dəniz.
Sinəsi şüşə kimi –
Nə bir dalğa,
Nə bir iz.

Səma da dupdurudur,
Buludlar itkin düşüb.
Söykənib bir-birinə,
Dənizlə göy birləşib.

Hər yan göyə boyanıb,
Baxmadan keçmək olmur.
Seçmək olmur səmanı,
Dənizi seçmək olmur.

## UNUDA BİLMƏYƏCƏKSƏN

Yolumuz yarıda ayrıldı niyə?
Biz ki görüşmədik ayrılmaq üçün.
Qəzəbin qınından sıyrıldı niyə?
Bu dərdə dözməyə çatarmı gücün –
Bu dərdi unuda bilməyəcəksən.

Bir aylı axşamın həzin küləyi
Sənə gəlişimi andıracaqdır.
Üzünü qapayan buz əllərini
İsti göz yaşların yandıracaqdır –
Sən məni unuda bilməyəcəksən.

Dilində anbaan
            hey təkrarlanan –
«qış olub üstümə niyə gəlmisən»
Misrası dönəcək ürək dağına.
Ağlayandan sonra buludlar kimi –
O misra dönərək göy qurşağına
Yaddaş səmasından asılacaqdır.
Nəmli gözlərinin «ağ varağına».
Mənli xatirələr yazılacaqdır –
Sən məni unuda bilməyəcəksən.

Sonrakı təəssüf hədərdi, hədər –
Ağlayıb, sızlama hər addımbaşı.
Qəlbin günahını yuyar bəlkə də,
Ağlın günahını yumaz göz yaşı.
Könlünü ovuda bilməyəcəksən,
Sən məni unuda bilməyəcəksən.

## AĞLA, QAQAŞIM, AĞLA

Sevdaya tutulub bu cavan oğlan,
Oturub ağlayır, durub ağlayır,
Gəzdiyi yolları görmür ayağı.
Ömrün yaşılında, ömrün yazında
Necə ağlamaqdı bu, hönkür-hönkür,
Necə ağlamaqdı məcnunsayağı?!

Bu göz yaşlarından utanma, qardaş –
Ağla, ağlamağa vaxtın tapılmaz,
İndi üzə gülən baxtın tapılmaz.
Hələ oturmusan şahlıq taxtında,
Səni bu taxtdan da düşürəcəklər,
Bir də belə yerin, taxtın tapılmaz.
Hər kişi ömründə bir dəfə yəqin
Bax belə – sənintək zar-zar ağlayıb.
Aşkarda, gizlində ağlayıb,
İçində, üzündə ağlayıb –
            Amma ağlayıb.

İndi yaşamalı sənin halındı,
İndi ağlamalı bizim halımız.
And içsə inanma, desə inanma,
Bir vaxt ağlamışıq bizim hamımız.
İndi də sən ağla,
Ağla, qaqaşım, ağla.

Bu sirrin içində, sehrin içində
Hələ xəbərin yox, ömür gödəkdi.
Bax elə bu həsrət bircə çərəkdi,
Qovuşdun, sevgin də tükənəcəkdir.
Duasan, cadusan başdan ayağa,
Ağlasan, tilsimlər söküləcəkdir.
            Ağla, qaqaşım, ağla.

Hələ xəbərin yox bu yer üzündə
Ömür gözləmədi, ömür – dözümdü.
Ömür elə uzun, elə uzundu –
Həsrətlər, sevgilər sığışa bilir,
Həsrətlər, sevgilər yadlaşa bilir.
Bir gün nağıl kimi, ya xəyal kimi,
Adama təzədən yanaşa bilir.
Hələ qarşıdadı qəmin yekəsi,

Hələ qarşıdadı dağ-divar hələ –
Sənə bu sevginin, bu ağlamağın
Gülməli görünən vaxtı var hələ.
Bu ən şirinidi ağlamaqların,
Ağla, qaqaşım, ağla.

## BİR SEVGİ QORUYUR

Dörd yanım günəşli, dörd yanım işıq,
Yox olub yolumun dumanı, çəni.
Bir gözəl dilində dua-alqışım,
Bir sevgi qoruyur nə vaxtdı məni.

Sehrli baxışlar – zərif kəpənək,
Qonur sifətimə hey ürkək-ürkək.
Asılıb sinəmdən göz muncuğutək,
Bir sevgi qoruyur nə vaxtdı məni.

Nə qəribə sehr, nə qəribə sirr!
Ulu qayğıdımı mənimçün əsir?!
Bir nurlu ümidtək üstümdə gəzir,
Bir sevgi qoruyur nə vaxtdı məni.

Ulduztək göyümdə nur saçır hər dəm,
İşığı dağ çəkir kədərə, dərdə.
Hifz edib bəladan, qəza-qədərdən,
Bir sevgi qoruyur nə vaxtdı məni.

Duyulur həniri, görünmür üzü,
Hara qədəm bassam – məndədir gözü.
Həmişə üzümdə bir baxış izi,
Bir sevgi qoruyur nə vaxtdı məni.

Qəlbimin sevgisiz qalan çağından
Olsam da özümün özüm düşməni,
Boylanıb bir ömrün gündoğanından,
Bir sevgi qoruyur nə vaxtdı məni.

## BİR KƏLMƏ YALANIM…

Bir kəlmə yalanım gərəkdir ona,
Bir kəlmə yalanım – ağlamaq üçün.
Bir kövrək sevgini həsrət qışından,
O sözə bürüyüb saxlamaq üçün.

Baxar, gözlərimdə ümid qarışıq
İşartı görünməz heç zaman ona.
Bir kəlmə yalanım – bir sısqa işıq,
Sızar ümidinin qaranlığına.

Bir kəlmə yalana qısılıb təkcə,

İki qəlb yükünü daşıya bilər.
Bir solğun xəyalın qoluna girib,
Bir ömrü ümidlə yaşaya bilər.

Bir kəlmə yalanım gərəkdir ona,
Həyat yollarında sirdaşı kimi,
Ömürdən o yana, yaşdan o yana
Bir yetim sevginin
başdaşı kimi
Bir kəlmə yalanım gərəkdir ona.

## GÖZLƏMƏ

Quru hay-haraydı elə,
Ləngərlənən çaydı elə.
Axıb arxayın-arxayın
Süzülüb keçib gedəcək.
Gözümüz əbədi ayıq.
Göz yaşı içib gedəcək,
Gündən möcüzə gözləmə.

Yanmağımız hədər olur,
Bizə qalan kədər olur.
Qəlbimizdən qalxan ümid,
Üzümüzə yayılmayır.
Qəmimizə qalxan ümid
Özümüzə pay olmayır,
Ondan möcüzə gözləmə.

Bir ocağı kül örtübdü,
Külü – gözü çürüdübdü.
Nə hay-haray, nə səs-səmir,
Bu dünya öz işindədir.
Sıxılıb bir damla kimi
Hər kəsin öz içindədir,
Gendən möcüzə gözləmə.

Qanımdan alovum çıxır,
İllər inadımı sıxır
Ömrümüzün ötən yazı
Çətin dönə, çətin gələ.
Gözün yollarda qalmasın,
Gülüm, daha indən belə
Məndən möcüzə gözləmə!

## MƏN ƏLİNİ BURAXMAZDIM

Yadımdadı o dağ döşü, o bahar günü,
Yadımdadı ilk gəncliyin uşaq oyunu.
Əvvəl-əvvəl paralanıb, iki bölünüb,
Bir «bənövşə» kəlməsiylə ortaq oyunu.

Bir səadət işığıydı üstümə düşən.
Sol əlimdə sağ əlinin istisi vardı.
Gəlib-gəlib bir oyunda qəfil birləşən
Bu əlləri tale çətin aralayardı.

Səsləndilər irəlidən qəfil:
– Bönövşə.
– Bəndə düşə.
– Bizdən sizə, deyin kim düşə?

O kim idi, adı hələ çəkilməmişdən
Ayrılıb da dəstəsindən irəli çıxdı?
O kim idi, baş açmadıq bu qəfil işdən,
Ayrılıb da bizə sarı qəzəblə baxdı.

Mən əlindən bəxtim kimi tutmuşdum o dəm,
Düşünürdüm, bu əlləri ayıran olmaz.
Qəzəb dolu baxışları görsəm də, nə qəm,
Düşünürdüm, bu sevincə od vuran olmaz.

Ayrılaraq bizə sarı qaçdı bir zalım,
O qaçışın qəsdi ağır, yolu qısaydı
Mən əlini buraxmazdım heç zaman, gülüm,
O zərbədən sənin əlin ağrımasaydı.

## ƏN UZUN SƏADƏT…

O bahar ömrümdə sevinc yağışı
Səadət içində üzürdü könlüm.
Dünyanın işığı, nuru yığışıb
Üzümdə-gözümdə gəzirdi, gülüm.

Qayalar yarmağa qadir hünərim,
Bu sehri ömrümə gətirən kimdi?!
Ən qısa günlərim – sənli günlərim,
Ən uzun anlarım – sənsizliyimdi.

Yox, daha geriyə dönməz o bahar,
İlləri verərəm – qayıda bir də.
Yuxulu günləri alıb əlimdən,
Bir ötən sevgini oyada bir də.

Şirin yuxu kimi keçdi o bahar,
Yetdi ümidlərin həsrət qırğını.
Ən uzun səadət – bir udum hava,
Ən uzun səadət – bir göz qırpımı.

## DEMƏDİYİM SÖZ

Taleyimdən səssiz ötən bir günü
Sonra ömür sayanda da yandırar.

Yada düşər baxışların düyünü,
Gözləri gec duyanda da yandırar.

Qərib meşə, ha gileyli süz məni,
Şahid bulaq, dondur məni, üz məni.
Dedmədiyim bircə kəlmə söz məni
Bu ömürdən o yanda da yandırar.

* * *

*«İlahi, qəlbimə bir sevgi göndər»*
*M.Araz*

Bir dərə sükutu çöküb üstümə,
Daha sellənməyə həvəsim yoxdu,
Ürəyim, ürəyim lal-dinməz durub
Səsində bir sevda nəfəsi yoxdu.

İlahi, qəlbimə bir sevgi göndər!
Bu qaya təkliyin al əllərimdən,
Bir parça sevgini – nəmərə döndər,
Bir parça sevgiylə qanadlanım mən.

Sevgisiz elə bil daşa dönmüşəm,
Tufandım – susmuşam,
oddum – sönmüşəm.
Mənim ürəyimin buz soyuqluğu
Bir büküm sevgiyə qısıla bilmir.
Mənim baxışlarım – «göz sayıqlığım»
Bir gözəl gözündən od ala bilmir.

Bir sönən ocağa ha qısılıram,
Külün üfürürəm – qoru qalmayıb.
Deyən, ürəyimdə atəş çınqısı,
Deyən, gözlərimin nuru qalmayıb.

Ötən xatirələr məni isitmir,
Odundan od alıb ocaq çatmağa.
Sevda köhləninə kəmənd atmağa
Təpərim çatışmır, alovum yetmir.

Kimsə su ələdi bir vaxt oduma,
İlahi, çat indi barı dadıma.
O eşqi geriyə döndərə bilim,
O eşqi yenidən dindirə bilim.

Ümidlər dalınca qaçıram elə,
Gümanlar içində itir gəncliyim.
Beş-on xatirəni atıb çiyninə,
Ötür cavanlığım, ötür gəncliyim.

İlahi, qəlbimə bir sevgi göndər,

Bu durğun dənizi tufana döndər.
İlahi, ilahi, bir məni dindir,
İlahi, ilahi məni sevindir.

## BİLMƏDİK

Beləcə ayıldıq,
Ayılıb ayrıldıq.
Ağlımız dilləndi,
Qəlbimiz lal oldu.
Odumuz külləndi,
Eşqimiz yoruldu.

Göylərə sığmayan
Sevgimiz buydumu?
Könlümüz səadət
Ətrindən doydumu?
Yuxulu ayıqlıq
Didəcək bizi hey.
Üzücü soyuqluq
Güdəcək bizi hey.
Bir ömür kül olub
Ötəcək havayı
Bir ömür yollarda
İtəcək havayı.

Dillənən bu ağıl
Nə dedi, bilmədik.
Yaşanan o nağıl
Nə idi, bilmədik.

## MƏN ELƏ BİLİRDİM…

Mən elə bilirdim sənə doğmayam,
Dünyaya gəlmisən çağırışımla.
Mən elə bilirdim hər səhər-axşam
Duyursan qəlbimi bir baxışımla.

Mən elə bilirdim sirli gülüşün
Bəxtimin ömrünə işıq payıdır.
Mən elə bilirdim qəfil gəlişim
Səndən ötəri də qəlb harayıdır.

Demə uzaq imiş ürəklərimiz
Dünyanın müxtəlif qütbləriymişik.
Aldanan ürəyim,
                yuxulu gözüm
Səni kiminləsə salıb dəyişik.

## BƏLKƏ

Bu bir ağaclıq yaşılın
Arxasında gülən kimsə!
Əyilib çıx qaranlıqdan,
Bir görüm nəçisən, kimsən.

Bu işığın rəngi tanış,
Səsinin ahəngi tanış.
Yıxdı məni, gizli baxış,
Ya ovsunsan, ya tilsimsən.

Gəl oxşayım, əzizləyim,
Səbrim yox daha gözləyim.
Bəlkə yüz illər gəzdiyim
İtkin düşən qismətimsən.

## BİLMƏDİM

Gizli-gizli gileylərə qarışıb,
Qəfil gəldi sevgimizin qar-qışı,
Kim bələdi bu sevincə qarğışı,
Qəzəbini kim sıyırdı, bilmədim.

Ömrümüzün günlü günü, yaz çağı,
Ömrümüzə çox çəkdilər söz dağı.
İki ürək bir şübhənin dustağı,
Yalanları kim hayqırdı, bilmədim.

İlan dillər şimşək kimi çaxanda,
Odumuza su çiləndi bir anda.
Tale belə yandıranda, yaxanda,
Bəlkə, bizi sınayırdı, bilmədim.

Bu ömürdü, yaşamağa qəlb gərək,
Kin bürüyən qəlb – bataqlıq, qəlb – dərə.
Namərd dili bütövləşən qəlblərə
Necə qıydı, niyə qıydı, bilmədim.
Səni məndən kim ayırdı, bilmədim.

## QALIB

Qəlbim bir əsimlik küləyə bənddi,
Gözümə gözünün baxmağı qalıb.
Bir həzin laylanın, titrək muğamın
Süzülüb sinəmə axmağı qalıb.
Yetişib qəlbimin çağlamaq dəmi,
Dolubdur ürəyim buludlar kimi,
Bir dəli şimşəyin çaxmağı qalıb.

* * *

Aldın gecələri, əlimdən aldın,
Altun gecələri əlimdən aldın.

Mən günün, gündüzün heyrət yükünü,
Bir gözəl misranın böyüklüyünü,
Sevda alovunu, nifrət odunu,
Kədərin, sevincin tanış dadını
Çəkib ürəyimə, yığıb qəlbimə,
Gecələr sıxardım ağ varaqlara.
Qəlbimin közərən işartısını.
Qələmim yayardı qaranlıqlara.
Aldın gecələri, əlimdən aldın,
Altun gecələri əlimdən aldın.

Mən günün-gündüzün yorğunluğunu,
Sinəmdə duyğular durğunluğunu,
            Unudub tamam.
            Sənə sığınıram.
Sənin önündə
Yaman dolaşmışam, yaman çaşmışam,
Yenə qaynayıram – bulağım özgə.
İndi dəyişmişəm, başqalaşmışam,
Sevdam naxışlanan varağım özgə.

…Gözüm sataşanda yazı masama,
Görürəm yarımçıq şeirlərimin
Kəsik misraları alışıb yanır.
Qəlbimdə baş-başa qalan duyğular
Məni sənlə görüb sənə qısqanır.

## KİMSƏSİZ EV…

Kimsəsiz ev eyvanından bəlli.
Qəlbimdə
            boş otaqların
            qulaq tutulan səssizliyi –
Üzümdən bəlli sevmədiyim.

SON NƏFƏS
Səni gördüm –
nə qanımdan od keçdi,
nə canımdan həyəcan.
Bu çəkdiyim ah da
Canımda can verən
            bir eşqin
Son nəfəsiydi
            çıxdı.

## BAXIŞLARIN İŞIĞI

*Gəl dayanaq qabaq-qənşər, göz-gözə,*
*Gəl dayanaq, a yeriyən möcüzəm.*

Gözümüzün atəşindən od alsın

Ömrümüzdən alov uman qəlbimiz.
Gözümüzün atəşində yuxalsın,
Dərdə keçid, qəmə liman qəlbimiz.

Ağlımızdan könlümüzə yaxındır,
Göz dediyin ürəyimiz tez duyar.
Baxışınla sehrlənim – yaxın dur,
Ağıl dinsə od ürəklər soyuyar.

Ömrümüzü uzadacaq bu görüş,
Sevincimiz dünyayla bir olacaq.
İkimizin bir yaşanan gününə,
Baxışların gur işığı dolacaq.

Gəl dayanaq qabaq-qənşər, göz-gözə,
Gəl dayanaq, a yeriyən möcüzəm.

## QƏFİL YAĞIŞ

Günəşi dövrəyə aldı buludlar,
Oyandı göylərdə bir qəfil yağış.
Səmada çaxnaşma saldı buludlar,
Ələndi torpağa nur naxış-naxış.

Çiçəklər başını qaldırıb baxdı –
Bulud da, Günəş də göydə qoşaydı.
Şəfəqlər yağışa qarışıb axdı,
Səma çilçıraqdı, yer tamaşaydı.

Bu qəfil yağışın istəyi nəymiş.
Duruluq parladı havada, yerdə.
Bəlkə, gözəllərin həsrətindəymiş;
Qızlar çiçəklədi pəncərələrdə…

## NECƏ UNUDUM

Şimşək çaxdı, alov çıxdı sözündən,
Gilə-gilə kədər yağdı gözündən.
– Unut məni, unut, – dedin, – bu gündən. –
Birdən-birə, söylə, necə unudum?

Göy çəmənlər birdən-birə saralmır,
Qara saçı birdən-birə qar almır,
Bəyaz günlər birdən-birə qaralmır,
Birdən-birə axı necə unudum?

Dediklərin ürəyimi yaralar,
Birdən-birə sağalmaz ki, yaralar.
Gözlərindən qaysaqlanar, qaralar,
Ağrısını birdən-birə unutmaz.

İstəyini boğa bilmək bir hünər,
Niyyətindən öz ürəyim üşünər,
Dilim elə təkrarlayar adını
Qəlbim səni, könlüm səni düşünər.

Dil unutmur, qəlb unutmur bir günə,
Birdən-birə unutmaqmı olar heç?

Bu sevgini hardan tapdı qış görən?
Gözlərində buz oldummu yəni mən?
Birdən-birə sevməmişdim səni mən,
Birdən-birə indi necə unudum?

## SEVGİM ÇİÇƏK AÇMAZ…

Qəfil yaman soldu ümid ağacı,
Bir damla suyun da oldu möhtacı.
Hanı bu əzabın, qəmin əlacı?!
Çətin o duyğular bir də oyana,
Sevgim çiçək açmaz bundan o yana.

İstəyim nə qəfil tilsimə düşdü,
Söndü gözlərimdə arzu, diləyim.
Sevinc kimin oldu, qəm kimə düşdü,
Olub – olacağa indi neyləyim?!
Rast çıxa bilmədim eşqi duyana.
Sevgim çiçək açmaz bundan o yana.

A mənim ümidim – sirli yalqızım,
Necə yaşamısan, necə, narazım?
Baharım gəlməmiş gəldi payızım,
Sevgim çiəçək açmaz bundan o yana.

## XƏBƏRİN YOX

Səni Tanrı, səni mələk
Sanmağımdan xəbərin yox.
Hər dəqiqə, hər an belə
Anmağımdan xəbərin yox.

Hərdən yanır, hərdən donur,
Dilim – həsrətimin sonu.
Nə sevgimdən, nə də onu
Danmağımdan xəbərin yox.

Pünhan eşqim bəsdi bunca,
Ümidimi üzdü bunca.
Gözün görür məni, ancaq,
Yanmağımdan xəbərin yox.

## BU SEVGİNİN

Bu sevginin gəlişiylə
Alovlandım yana-yana.
Dönüb səndən uzaqlaşdım,
Səni mələk sana-sana.

Bu əzabı duyan – desin,
Çəkə bilən, gəlib çəksin.
Ürəyimə köçdü əksin,
Daim səni ana-ana.

Gah baharam, gah da qışam,
Susmağımda yanılmışam.
Mən özümü danırmışam,
Bu sevgini dana-dana.

## İNDƏN BELƏ

Qəlbində büzüşüb qaldı sözlərin,
Gecdi, ha desən də söz indən belə.
Yandırıb yaxırdı dünənə kimi,
Sinəndə güllənər göz indən belə.

Bir dəfə gəlmişdi, bir də qayıtmaz,
Sönük arzuları bir də oyatmaz.
Daha bu günəşdə eşqin boy atmaz,
Daha üzə gəlməz yaz indən belə.

Qıfıllı qalıbdı sinəndə sözün,
Özün, öz oduna səpdin qar, özün.
Geciksən özünsən, günahkar özün,
Rəşad, bu əzaba döz indən belə.

## XOŞ SÖZÜN

Bir xoş sözün olub nə müddətdi ki,
Mənim yol-yoldaşım, mənim sirdaşım.
O sözün nuruna gözümü dikib,
O sözün sehrinə qarışıb başım.

Xoş sözün elə bil quş lələyidir,
Yanımda olursan hər düşünəndə.
Xoş sözün – nəfəsin, bəxt mələyidir,
İsidir könlümü tək üşüyəndə.

…Cibindən çıxarıb taya yanında
Xəlvətcə bir şəklə baxan oğlanın,
Xoşbəxtlik işığı yanır alnında,
O gözəl oğlanın, o xan oğlanın…

Mən də onun kimi bu otaqda tək,
Sirli yaddaşımı səhifələyirəm.
Əlimi alnımda gəzişdirərək

Sözünü düşünüb «kef eləyirəm».

## SINAQDAN ÇIXDINSA

Sinəmdə çiçəktək bitdin bir bahar,
Dünya yaşıllaşdı, ilk məhəbbətim.
Vaxtsız gəlişindən düşdüm günaha,
Əsdi küləkləri sarı həsrətin.

Payızın nəfəsi saraltdı səni,
Rişən ürəyimdə dururdu ancaq.
Nə qədər istədim unudum səni,
Təzədən göyərdin bahar olunca.

Sənə ki, bu həsrət bata bilmədi,
Gətirə bildinsə hər sınağa tab,
Ay kövrək qəlbimin ilk məhəbbəti,
Sənə bu yollarda ölüm yoxdu ta.

## HARDA SƏN VARSANSA

Sən bu görüşlərə təsadüf demə,
Tale işığıdı bürüyüb bizi.
Yazılan yazıdı bu ömrə-günə,
Bir kökdə kökləyib ürəyimizi.

Bir eldə doğulduq, yaşıd doğulduq,
Tale görüşdürdü bizi, təsadüf?
Rastlaşdı gözümüz – hara yön aldıq,
Dedin arxamızca gəzir təsadüf.

Hər görüş təsadüf, hər gün təsadüf,
Duydunmu bu qədər təsadüf olmaz.
Müxtəlif səmtlərə getdik, görüşdük –
Gülüm, bu görüşlər təsadüf olmaz.

Bir eşqin cazibə orbitindədir,
Hər an, eyni vuran ürəklərimiz.
Bir bahar səması siqlətindədir,
Sevdikcə durulan ürəklərimiz.

Bir əsim küləyə dönsən bir səhər,
Yolunda ucalan yaşıl çinaram.
Gülüm, yaşayırıq hələ nə qədər –
Harda sən varsansa, orda mən varam.

## O YA ƏFSANƏYDİ…

*(zarafat)*

«Qarşıdan bir sona keçdi»

Bir payız anına gəlmişdi bahar –
Küçələr, səkilər yırğalanırdı.
Bağlı pəncərələr, sakit eyvanlar,
Heyrətli gözlərdə sırğalanırdı –
Ağzını ayırıb baxırdı şəhər.

Qəfil təkərlərin əyləc səsləri,
Karıxan sürücü baxışı – harın.
Küçəni keçməyə çatmaz hünəri –
İşığı yansa da, işıqforların.

Bəzəkli maşında əyləşən oğlan,
Bahalı siqnalın «xoruz» buraxar.
Ötəri həvəsi gözündə qalan
Bu bahar səni də yalqız buraxar –
Ağzını ayırıb baxarsan elə.

Boynu əyri bitib yeyin gedənin,
Arxada qalanlar tələsiyirdi.
Küylü uşaqların içində biri
Qonşusu çıxmağa həvəsiyirdi –
Ağzını ayırıb baxırdı şəhər.

İşığa düşmüşdü bir oğlan gözü,
Bilmir yanındakı nə söyləyirdi.
Qolundan yapışan dilavər qızın
Barmağı böyrünü dürtmələyirdi –
Ağzını ayırıb baxırdı oğlan.
Çağrışı boş idi o tumsatanın
Eh, indi o səsi eşidən hanı?
Xəbəri yox idi əsgər oğlanın,
Cibində qalmışdı tum stəkanı,
Ağzını ayırıb baxırdı şəhər.

Elə addımlayır, elə gedirdi –
İşvəli sənəmlər, qəmzəli qızlar
Həsəd aparmırdı, heyrət edirdi.

Çəkdi bir şəhəri o gün çarmıxa,
O ya əfsanəydi, ya da bir tilsim.
Ağzını arayıb söz soruşmağa,
Ağzını ayıra bilmədi heç kim
Ağzını ayırıb baxırdı hamı.

## NİYƏ GİZLƏNİR?

Bulaqdan durudur, bulana bilməz,
Baxanda o gözlər göy təmizlənir.
Onda söylə mənə, onda söylə bəs
Gözlərin gözümdən niyə gizlənir?

Tale ulduzumun gur işığıdır,
Ömrümün, günümün yaraşığıdır.
Qəlbinlə qəlbimin barışığıdır,
Gözlərin gözümdən niyə gizlənir?

Sevgimmi bənzəyib kədər qışına,
Qorxub çəkinmisən qardan-yağışdan.
Bəlkə, başqa istək çıxıb qarşına,
Baharmı ummusan başqa baxışdan?
Qəlbim alovlanır, yanır, közlənir,
Gözlərin gözümdən niyə gizlənir?

## YAZIĞIM GƏLİR

Ürəyimi dilə tutub
Şirin nağıllar söylərəm.
Bir iynəcə işığımı
Günümə günəş eylərəm –
Baxtıma yazığım gəlir.

Quruca ağac saplağı
Saxlamaz solan yarpağı.
Yarpaq yükü ağırlığım
Qabar edəndə torpağı –
Taxtıma yazığım gəlir.

Ömür şimşək sürətində,
Masamın istisi gendə.
Qəlbim doludu şeirlə,
Əlim qələm həsrətində –
Vaxtıma yazığım gəlir.

## YUXUDA NƏ GÖRÜB BU QIZ?

Ayrılmayıb yuxusundan,
Yuxudakı duyğusundan,
Üzü gülüş, gözü gülüş,
Üzü günəş, gözü günəş –
Yuxuda nə görüb bu qız?

Bu gecə qəlbində yatıb,
Gözlərində doğub Günəş,
Gözlərindən baxır Günəş –
Yuxuda nə görüb bu qız?

Qanadı olsa uçar,
                quçar mavi səmanı.
Sevindirmək istəyir
                sevincilə hamını.

Dönüb göy üzünə üzü,

Günəşi gəzdirər gözü.
Yumuldu, qatdandı dizim –
Yuxuda nə görüb bu qız?!

## QƏFİL

Qəfil gördüm
sözlərimin
buz üstə düşən köz kimi
cızıldaya-cızıldaya söndüyünü,
qaralıb kömürə döndüyünü.
Gördüm sözlərim
sahilə atılmış balıq kimi
Çabalayıb ölür.
Gördüm
hər gözündən
bir şeytan boylanıb gülür.

Qəfil duydum:
boş şeymiş
            ocaq kimi yanmağım.
Alovum, odum qəlbinə keçmirmiş,
Gözümün işığı
      gözünə keçmirmiş.
Qəfil yıxıldım,
Sözlərin qanadında
pillə-pillə qalxdığım
      taxtımdan,
İkiəlli yapışıb baxtımdan,
taleyimə ağladım,
      duymadın məni.

## AXTARMA ÖZÜNÜ ŞEİRLƏRİMDƏ

Qısılıb küncünə sakit otağın
Dikərsən gözünü solğun şəklimə.
Bu həsrət – qurumuş üzüm cecəsi,
Sıxıb ayrılığı şərab çəkmirəm, –
Axtarma özünü şeirlərimdə.

Gözlərin dolmağa bir misra gəzər,
Qəlbin yuxalmağa bir misra gəzər.
Tapmazsan kədərli, ağrılı misra,
Sənli günlərimlə yoğrulu misra –
Axtarma özünü şeirlərimdə.

O bulud sevginin, duman sevginin
Sözümün canında nəmi qalıbdı.
Qəlbimə, könlümə daman sevginin

Titrəyən səsimdə qəmi qalıbdı.

Nəmli sözlərimlə, qəmli səsimlə
Ümidli şeirlər yazıram hər vaxt.
O nəmi gözünlə görə bilməzsən,
O qəmi baxışla olmaz oxumaq –
Axtarma özünü şeirlərimdə.

## HƏR NƏSLİN…

Hər nəslin sevimli nəğmələri var,
Hər nəslin sevimli filmləri var.

Əllinci illərin dəb kinoları
Ekranda verilər bu gün arabir.

Mənimçün bir adi, lenti köhnələn
Yayılmış süjetlər üstə köklənən
          filmdir –
əllinci illərin dəb kinoları.

O vaxtın mən yaşlı cavanlarına
Sızıltılı qəmdi, şirin sevgidi,
Qədim xatirədi, kədərli ahdı –
Əllinci illərin dəb kinoları.

Baxıram,
          mən sözü söz eşidirəm,
Onlar o sözlərlə il yaşayırlar,
Mən təkcə görürəm ekran verəni
Bəs onlar nə görür, görəsən, Allah?
Dönür klubların zil qaranlığı,
Kadrlar dəyişir, sözlər dəyişir.
Nəğmələr oxunur – gənclik qayıdır,
Hər nəğmə bir köhnə sevgi oyadır.
Hər nəğmə bir yatmış arzu ayıldır.
Ekrandan gələn səs
Elə bil otuz il irəlidən gəlir,
O şirin, sevgili illərdən gəlir.

Ömrün neçə ili
        təzədən yaşanır, təzə başlanır.
Əllinci illərin cavanlarına
        Bir təzə, çiçəkli yaz bağışlayır –
Əllinci illərin dəb kinoları.

## NAĞIL

Uyub yaz havasına
elə gedir zalım oğlu,
deyirsən heç nə, heç nə onu
saxlayammaz yolundan.

Amma saxladı,
Bir dəli, selləmə yağış saxladı.
Qaçıb girdi yekə bir ağacın altına.

…Doğuldu, yekəldi, sevdi, sevildi,
Ev tikdi, ev qurdu ağacın altda.
Çətir də götürdü, papaq da qoydu,
Gah yatdı, gah durdu ağacın altda…
…Yarpaqdan-yarpağa
          sürüşə-sürüşə
Bir yağış damcısı
          düşdü saçlarının arasına.
Soyuqluğundan
          əsim-əsim əsdi bədəni!

Əlini, ovcunu sürtdu saçına,
O yaş eləcə qaldı.
Bu dünyanın dağı-daşı qurudu,
Yağışında islanmışı qurudu,
O yaş qurumadı.

O gecə qızdırma içində
   yandı bədəni.

KİTABIN İÇİNDƏKİLƏR

Önsöz. Bütün yönləri ilə yaradıcı............................3
Tanrının bəxşişi (dastan (2011–2014)	67
Yenə də bahar qayıdır (roman (1996)	315
Martın biri (hekayə (1991).................................379
Babalarım torpaq olub (1979–1987) 385
Mən əlini buraxmazdım (1981–1987)	471